# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 203 (8519) BAZAR, 4 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İlham ƏLİYEV: "Madagiz bizimdir!"

## Daha 30 il gözləməyə vaxtımız yoxdur

### Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində Azərbaycanın haqlı mövqeyini beynəlxalq ictimaiyyətə növbəti dəfə çatdırdı

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

***Jurnalist:* Azərbaycan Respublikasının Prezidenti, "Əl-Cəzirə"yə müsahibə verdiyiniz üçün Sizə təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Sizi görməyə çox şadam.

***- Ermənistan və Azərbaycan arasında hazırkı münaqişə 20 ildən artıqdır ki, başlayıb. Müəyyən irəliləyişlər və geriləmələr olmuşdur, lakin bu vaxta kimi sülhə nail olunmamışdır. Niyə görə bu münaqişə bu qədər uzun çəkir?***

- Əsas səbəb odur ki, Ermənistan sülh istəmir. Onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişmək istəmirlər və bu da münaqişənin bu qədər uzun çəkməsinin səbəbidir. Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı. Çünki 1993-cü ildə Ermənistan ərazilərimizin bir hissəsini işğal etdikdə BMT Təhlükəsizlik Şurası qoşunların bizim ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr kağız üzərində qalmaqdadır. Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Qeyd etdiyim kimi, əsas səbəb Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır. Bir çox hallarda mən bu məsələni qaldırmışam və demişəm ki, Ermənistanı qətnamələrin tələblərinə əməl etməyə məcbur etmək və torpaqlarımızın boşaldılmasına başlamaq üçün ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunmalıdır. Lakin mənim müraciətlərimə müvafiq şəkildə cavab verilməmişdir və indi baş verənlər Ermənistanın destruktiv siyasətinin nəticəsidir.

***- Beləliklə, Siz deyirsiniz ki, Azərbaycan beynəlxalq müstəvidə narahatlıq doğuran hüquqi məsələlərə görə beynəlxalq səviyyədə layiq olduğu dəstəyi almır?***

- Beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərar və qətnamələri baxımından bizim çox geniş dəstəyimiz var. Dediyim kimi, beynəlxalq ali orqan olan BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın qoşunlarının geri çəkilməsini tələb edən qətnamələr qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası eynisini edib. İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar və başqaları eynisini edib, lakin bu, kifayət etmir. Beləliklə, münaqişənin həlli üçün hüquqi çərçivəmiz var, lakin təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, biz burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir.

*Ardı 2-ci səh.*



## Azərbaycan-Türkiyə birliyinin bariz nümunəsi

### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident.

Əziz qardaşım.

Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata əl atmışdır. Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Bu təxribat nəticəsində indiyə kimi hərbçilərimiz, 19 mülki şəxs, o cümlədən iki uşaq həlak olmuş, 55 mülki şəxs yaralanmışdır. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlamışdır.

Ermənistan ilk dəfə deyil ki, Azərbaycana qarşı hərbi təxribata əl atır. İyul-avqust aylarında törədilmiş hərbi təxribatlar, Azərbaycanın işğal olunmuş ərazilərində xarici ölkə vətəndaşlarının qeyri-qanuni məskunlaşdırılması Ermənistanın öz təcavüzkar siyasətindən əl çəkmədiyini göstərir. Ermənistan rəhbərliyi "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanatlarla danışıqlar prosesini mənasız etmişdir.

Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatının ilk saatlarından etibarən qardaş Türkiyə Respublikası bütün səviyyələrdə bu xain təcavüz aktını qətiyyətlə pisləmişdir. Sizin məsələyə dair çox açıq və sərt bəyanatlarınız bir daha Azərbaycanın öz haqq işində yalnız olmadığını göstərmişdir. Türkiyənin müvafiq dövlət qurumlarının rəhbərləri, parlament üzvləri və ictimaiyyət nümayəndələri də məsələyə qəti və birmənalı münasibət bildirmişdilər. Mən hər gün türk qardaşlarımızdan çoxsaylı dəstək məktubları alıram.

Bütün bunlar Azərbaycan-Türkiyə birliyinin növbəti bariz nümunəsidir və Azərbaycan xalqı tərəfindən ən yüksək şəkildə qiymətləndirilir. Bu dəstəyə görə Sizə və qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından təşəkkür edirəm.

Əziz qardaşım.

Üzvü olduğumuz Türk Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi ilə bağlı sentyabrın 28-də bəyanat qəbul etmişdir. Bu bəyanata görə də Sizə öz minnətdarlığımı bildirirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2020-ci il*

## Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevadan növbəti vətənpərvərlik təşəbbüsü

### Onlar bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna ianə ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb.

Fondun əsasnaməsinə əsasən, Silahlı Qüvvələrin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycan ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər könüllü ödəmələr həyata keçirə bilərlər.

## Azərbaycan Ordusu daha 8 kəndi azad etdi

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

Bu barədə dünən özünün rəsmi Tvitter səhifəsində yazan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha sonra ikinci qeydini paylaşıb:




"Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

Qarabağ Azərbaycandır!"

### Prezident İlham ƏLİYEV: "Madagizin tarixi adını bərpa edirəm, bundan sonra Suqovuşan adlandırılır"

"2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən özünün rəsmi Tvitter səhifəsində yazıb.

### Ali Baş Komandan Madagizi işğaldan azad edən hərbçilərə təbrik göndərib

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev dünən 1-ci Ordu Korpusunun komandiri Hikmət Həsənovu Madagizin işğaldan azad olunması münasibətilə təbrik edib. Ona tapşırıq verib ki, Ali Baş Komandanın təbriklərini korpusun bütün şəxsi heyətinə çatdırsın.

Hikmət Həsənov Ali Baş Komandana öz təşəkkürünü bildirib, Prezidenti əmin edib ki, 1-ci Ordu Korpusu Ali Baş Komandan tərəfindən qarşısında qoyulmuş bütün vəzifələri şərəflə yerinə yetirəcəkdir.

***Prezidentin Mətbuat Xidməti***

## Düşmən bayrağını, silahını, texnikasını ataraq şərəfsizcəsinə qaçır







*Bax: səh. 8*

**Düşmənin ümumilikdə 230-dək tank və digər zirehli texnikası; 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 38 ədəd hava hücumundan müdafiə vasitələri; 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri; 7 silah-sursat anbarı; 50-dən artıq tank əleyhinə vasitələr; 130-dan artıq avtomobil texnikası; 8 "Qrad" yaylım atəşli reaktiv sistemi; 1 "S-300" zenit-raket kompleksi məhv edilib**

# Daha 30 il gözləməyə vaxtımız yoxdur

*Əvvəli 1-ci səh.*



Bildiyiniz kimi, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir.

***- Siz Ermənistanı bu müharibəni, bu münaqişəni başlamaqda günahlandırırsınız. Bir çoxları iddia edə bilər ki, Ermənistan öz cari ərazisini və 2018-ci ildəki məxməri inqilabdakı qələbəni nəzərə alaraq münaqişənin başlamasına risk etməzdi. Buna Siz nə deyərdiniz?***

- Bu cür təhlillərin səbəbinin nə olduğunu bilmirəm. Lakin biz burada nə görürük, biz yerlərdə nə baş verdiyini görürük. Əgər son iki ildə "inqilab"dan sonra Ermənistanın nə etdiklərinə və nə bəyan etdiklərinə nəzər salsaq görərik ki, onlar bizi həmişə təhrik ediblər və yeni müharibəyə başlamağı hədəfə alıblar və bunun səbəbi danışıqları tamamilə pozmaq idi. Onlar Azərbaycana qarşı bir neçə hərbi təxribat törədiblər.

İyulun 12-də onlar münaqişə regionundan çox uzaqda olan Tovuz rayonunda, Azərbaycanın qərbində, Ermənistan-Azərbaycan sərhədindəki kəndlərimizə və hərbi mövqelərimizə hücum ediblər. Onların bunu nə üçün etdiklərini başa düşmək çox çətin idi. Onlar ağır artilleriya ilə bizə hücum etdilər. Hərbi qulluqçular arasında ilk itkiləri Azərbaycan tərəfi verdi. Bizim dörd hərbi qulluqçumuz və 76 yaşlı bir kəndli dərhal öldürülmüşdür. Beləliklə, biz cavab tədbiri görməli idik. Cavab verdikdən və onlar acı məğlubiyyətlə üzləşdikdən sonra geri çəkildilər, atəşkəs üçün yalvarmağa başladılar. Onda da mən dedim ki, bizim Ermənistanın ərazisində heç bir hərbi məqsədlərimiz yoxdur. Biz onları geri oturdan kimi və onlar istədiklərini həyata keçirə bilmədiklərini başa düşən kimi toqquşmalar dayandı. Toqquşmalar yalnız dörd gün davam etdi. Sonra avqustun 23-də Ermənistan ordusu tərəfindən ərazimizə daxil olmaq və terror aktlarını törətmək üçün göndərilmiş diversiya qrupu dağıdılmışdır və bu diversiya qrupunun başçısı yaxalanmışdır. Hazırda o, istintaq altındadır. O, mülki vətəndaşlarımıza və hərbi qulluqçularımıza qarşı terror aktları törətmək üçün göndərildiyini bildirən ifadələr verir. Bunu biz etməmişdik, bunu onlar etdilər. Sonra sentyabrın 27-də baş verənlər bu siyasətin məntiqi davamıdır. Bundan əlavə, biz onların bəyanatlarına, söylədiklərinə nəzər salsaq, onların bizi təhrik etməsi açıq-aşkar görünür. Bir il bundan əvvəl Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan etmişdir və bu bəyanat danışıqları tamamilə mənasız edir. Çünki danışıqlar masasında olan əsas məsələlərdən biri işğal edilmiş ərazilərin Azərbaycana qaytarılmasıdır. Əgər o, "Qarabağ Ermənistandır" deyir və onun anlayışına görə Qarabağ təkcə keçmiş Dağlıq Qarabağ muxtar vilayəti deyil, buraya bütün işğal olunmuş ərazilər daxildir. Bu, onların bu əraziləri geri qaytarmaq istəmədikləri, bu, danışıqların sonu deməkdir.

***- Ermənistan nəyə görə risk edib təxribata əl atıb?***

- Birincisi, hesab edirəm ki, onlar danışıqlar prosesini tamamilə məhv etmək istəyirdilər. Sonra onlar etdikləri kimi, buna görə bizi günahlandırmaq və "baxın, Azərbaycanla danışıqlar aparmaq mümkün deyil" söyləmək istəyirdilər. Hesab edirəm ki, səbəblərdən biri də onların daxili çətinlikləri ola bilər. Çünki biz indi Ermənistanda baş verənləri bilirik. Onlar çox ciddi siyasi böhrandan əziyyət çəkirlər. Hücuma keçməmişdən iki gün əvvəl əsas müxalifət partiyasının rəhbəri həbs edilmişdir. Sabiq iki prezident barədə cinayət araşdırması aparılır. Faktiki olaraq, Ermənistanda diktatura rejimi yaradılmışdır. İnqilabdan sonra baş nazirin verdiyi bütün vədlər kağız üzərindədir. Heç nə icra edilməmişdir. Orada adambaşına görə pandemiya ilə əlaqədar vəziyyət dünyada ən pis vəziyyətlərdən biridir. Beləliklə, diqqəti yayındırmaq lazım idi və o, bunu edə bildi. İndi isə o, nə etməyə çalışır? Guya Azərbaycanın təcavüzü qarşısında cəmiyyəti bir araya gətirmək və öz şəxsi hakimiyyətini gücləndirmək istəyir. Beləliklə, onların fikrincə, hər şey çox məntiqlidir, lakin onlar çox böyük səhv etdilər. Bundan əlavə, təcavüzdən bir neçə gün əvvəl mən BMT Baş Assambleyasında çıxış etdim və dedim ki, onlar müharibəyə hazırlaşırlar və onları dayandırmaq lazımdır. Bu da baş verdi.

***- Bundan əvvəl Siz dediniz ki, Ermənistan ordusu işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxmalıdır, indi regionda hansı məqsədləriniz var?***

- Kim, biz?

**- Bəli, Azərbaycan olaraq.**

- Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mənim tələb etdiklərim tamamilə beynəlxalq hüquqa müvafiqdir, çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi "Dağlıq Qarabağ respublikası"nı tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bu günün siyasi və geosiyasi reallıqlarına əsaslanır. Hesab edirəm ki, Ermənistan hökuməti özlərinin qlobal arenada "əhəmiyyətinə", onlara göstərilə biləcək mümkün beynəlxalq dəstəyə həddindən artıq böyük qiymət veriblər və bizi təhrik etməklə, bizə hücum etməklə böyük səhvlərə yol veriblər. İndi də onlar ciddi məğlubiyyət acısını yaşayırlar.

***- Siz Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlar masasına getməyi qəbul edərdinizmi?***

- Əslində, danışıqlar dayanıb. Çünki onun "Qarabağ Ermənistandır" ifadəsindən sonra mən danışıqlar üçün heç bir imkanın olmadığını dedim. Lakin Minsk qrupunun həmsədrləri Ermənistan hakimiyyətinin yeni olduğunu, ola bilsin emosiyalarına və sözlərinə tam hakim ola bilmədiyi üçün məndən xahiş edərək deyirdilər ki, Azərbaycan daha çox anlayış göstərsin. Mən dedim ki, yaxşı, gəlin cəhd edək. Biz sülh yolunu tapmaq istəyirik, ona görə də biz uzun illərdir ki, gözləyirdik və bu yayındırıcı yanaşma olmasaydı, yəqin danışıqlar davam edəcəkdi. Bu bəyanatdan sonra mənim Ermənistanın baş naziri ilə görüşüm oldu. Lakin görüşlər tamamilə mənasız idi, rəsmi xarakter daşıyırdı. O, mənə əraziləri geri qaytarmayacaqlarını deyirdi. Əgər onlar bunu etmək istəmirlərsə, əgər onlar neçə illər ərzində Minsk qrupu tərəfindən hazırlanmış prinsiplərə qarşı çıxırlarsa və danışıqları məhv edirlərsə, bundan sonra nədən danışmaq olar ki? Danışıqlar birtərəfli qaydada aparıla bilməz. Bizim tərəfdaşımız olmalıdır. Lakin Ermənistanın simasında bizim hələ danışıqlarda tərəfdaşımız yoxdur.

***- Onda danışıqlar masasına qayıtmaq üçün Azərbaycanın ilkin şərti kimi Ermənistanın işğal olunmuş ərazilərdən çıxmasını deyə bilərikmi?***

- Əslində, Ermənistanın baş naziri bizə qarşı ilkin şərtlər irəli sürüb. Yeri gəlmişkən, düşünürəm ki, bu da növbəti təxribatdır. Bir neçə ay öncə o, Azərbaycan üçün yeddi ilkin şərt irəli sürmüşdü. Əslində, o, öz gündəliyini bizə və Minsk qrupuna diktə etmək istəyirdi. Bu ilkin şərtlərdən biri də ondan ibarət idi ki, Azərbaycan "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalıdır. Bunu təkcə biz yox, həm də Minsk qrupu rədd etdi. Çünki bu, iyirmi ildən çox müddət ərzində hazırlanmış danışıqların formatını tamamilə dəyişir. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Beləliklə, o, bizə qarşı ilkin şərtlər irəli sürür və biz onları rədd etdik. Onun bunu etmə səbəbi ondadır ki, o, danışıqların dayanmasını və status-kvonun dəyişməz olaraq saxlanmasını istəyirdi. Bizə gəldikdə, biz həmişə danışıqlara hazırıq. Biz heç vaxt danışıqlardan imtina etməmişik. Əvvəlki illərdə danışıqlar prosesində çətin vaxtlar yaşamışıq. Heç də hər şey rəvan getmirdi. Lakin Ermənistanın əvvəlki rəhbərləri ilə bizim prosesimiz olub və biz mərhələli yanaşmanı işləyib hazırlamışdıq. Əks halda, biz bu qədər uzun illər bu prosesdə iştirak etməzdik. Bu, faydasız vaxt deyildir. Hesab edirəm ki, biz çox böyük irəliləyişə nail olmuşduq. Mən bu prosesdə 2003-cü ildən bəri iştirak edirəm. Mən Ermənistanın iki sabiq prezidenti ilə işləmişdim. Biz irəliləyişə nail olduq, bu, asan deyildi. Bizdə çox müxtəlif fikirlər var idi, lakin biz mərhələli şəkildə irəliləyirdik və indiki məqamda əldə etdiklərimizi işləyib hazırlamışdıq. Paşinyan hakimiyyətə gəldikdən sonra nəinki ondan əvvəl olanları məhv etdi, o, ondan əvvəl sanki Ermənistanın mövcud olmadığı və indi yeni Ermənistanın yaradıcısı kimi davranmaq istəyirdi. O, işlənilmiş bütün prinsipləri məhv etdi. Buna görə bütün məsuliyyət onun və onun hökumətinin üzərindədir.

Yeri gəlmişkən, Ermənistanda rasional insanlar bunu başa düşür. Onlar Ermənistan əhalisinə xəbərdarlıq edərək bu şəxsin onların ölkəsini fəlakətə apardığı ilə bağlı bəyanatlar verirlər. Danışıqlarda belə davranmaq olmaz, Azərbaycanı belə təhrik etmək olmaz.

Digər bir təxribat Azərbaycanın qədim Şuşa şəhərində qondarma "Dağlıq Qarabağ lideri"nin qondarma "andiçmə" mərasiminin təşkil olunması idi. Heç bir digər qondarma "Dağlıq Qarabağ lideri" bunu etməmişdir. O, bunu nəyə görə etdi? Azərbaycanlıların hisslərini təhqir etmək üçün. Sonra onlar qondarma "Dağlıq Qarabağın parlamenti"ni Xankəndidən Şuşaya köçürməyi qərara aldılar. Nə üçün? Azərbaycanlılara qarşı daha bir təhqir. Onlar işğal olunmuş ərazilərdə Livandan olan erməniləri açıq şəkildə məskunlaşdırır və bunu televiziyada nümayiş etdirirlər. Bu, Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır və burada məqsəd onların bizə qarşı nifrətini nümayiş etdirmək idi. Onun etdiyi hər şey danışıqlar prosesini məhv etmək məqsədini daşıyırdı. Lakin indi onlar danışıqların aparılması üçün yalvardıqda, Paşinyan dünya liderlərinə dəfələrlə zəng etdikdə və Azərbaycandan şikayət etdikdə, hesab edirəm, bu liderlər ona deməlidirlər ki, sən danışıqlar prosesini pozdun, sən Azərbaycanı təhrik etdin, sən azərbaycanlıların hisslərini təhqir etdin. Ona görə sən bunun üçün məsuliyyət daşımalısan. Erməni xalqı, - mən bir neçə gün bundan əvvəl Ermənistan xalqına müraciət etdim, - buna görə onu məsuliyyətə cəlb etməlidir. Bizim erməni xalqı ilə problemimiz yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Azərbaycanda minlərlə erməni yaşayır və Dağlıq Qarabağda yaşayanları da öz vətəndaşlarımız hesab edirik. Biz onları Azərbaycanda bir çox digər millətlərin və etnik azlıqların nümayəndələri kimi bizimlə birlikdə yaşamağa dəvət edirik. Buna görə Ermənistan bu təhrikedici bəyanatları səsləndirməkdən tamamilə çəkinməlidir, onlar "Qarabağ Ermənistan deyil" kimi yeni bəyanatla çıxış etməlidir və sonrasına biz baxarıq.

***- Beləliklə, bu siyasi dalanda Rusiya vasitəçiliyi Azərbaycan üçün məqbuldurmu?***

- Rusiya Amerika Birləşmiş Ştatları və Fransa ilə birlikdə vasitəçi olan ölkələrdən biridir. Bu prosesdə iştirak etdiyim 17 il ərzində hər üç ölkə prosesdə eyni dərəcədə iştirak edib. Prosesdə kifayət qədər yüksək səviyyədə koordinasiya var. Əlbəttə ki, Rusiyanın xüsusi mövqeyi var, çünki o, regionda Azərbaycana qonşu ölkədir, onun Ermənistanla dövlət sərhədi yoxdur. Lakin buna baxmayaraq, Rusiya Azərbaycan və Ermənistanla yaxşı münasibətləri və tarixi münasibətləri olan bir ölkədir. Buna görə əlbəttə ki, vasitəçilik etmək üçün onların rolu və bacarığı obyektiv səbəblərə görə regiondan uzaqda yerləşənlərlə və ola bilsin, son onillikdə burada nələrin baş verdiyini tam şəkildə bilməyənlərlə müqayisədə çox yüksəkdir.

Ona görə də düşünürük ki, üç ölkə birlikdə işləməyə davam etməlidir, əgər onların hamısı neytrallığı qorusa. Bu, mühümdür. Son günlərdə əks-təsir göstərən, neytrallıq mövqeyində müəyyən dəyişikliyi nümayiş etdirən bəzi bəyanatlar görməyimiz bizi narahat edir. Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək. Lakin əgər siz vasitəçisinizsə, neytral olmalısınız, vasitəçi olmalısınız. Əks halda, vasitəçilik bizim tərəfimizdən qəbul edilməyəcək.

***- Beynəlxalq ictimaiyyət atəşkəs çağırışları edir. Lakin həm Azərbaycan, həm də Ermənistan tərəfinin son bəyanatlarını nəzərə alaraq, Siz atəşkəslə bağlı beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymamaq seçimini edirsiniz?***

- Xeyr, biz buna göz yummuruq. Lakin atəşkəs birtərəfli qaydada əldə oluna bilməz. Bu günlərdə mənə zəng vuran liderlərə bu mesajı çatdırmağa çalışıram ki, başlayan Azərbaycan tərəfi olmayıb. Biz özümüzü müdafiə etməli idik. Əgər biz bu dəfə etdiyimiz kimi cavab verməsəydik, bu gün mülki şəxslərimiz arasında yüzlərlə itki olacaqdı. Hələ də itkilərimiz çoxdur. Bu səhər mən məlumat aldım ki, mülki şəxslər arasında 19 itkimiz var, onlardan 2-si uşaqdır. Mülki insanlarımız arasında 54 yaralı var. Ermənilərin artilleriya hücumu nəticəsində 300-dən çox evə ziyan dəyib və ya tamamilə dağılıb. Onlar bizim kəndlərə, insanlarımıza hücum edir, bacardıqları qədər çox azərbaycanlı öldürmək istəyirlər. Dünən onlar Ermənistan ərazisindən uzaq məsafəli raketlərdən istifadə etməyə başladılar. Bununla da onlar istifadə etdikləri bu silahları Azərbaycan üçün qanuni hədəfə çevirirlər və biz bu hədəfləri məhv etməliyik. Sonra isə onlar bizi günahlandıracaqlar ki, biz Ermənistan ərazisinə hücum edirik. Onlar bunu istəyirlər. Onlar münaqişəyə üçüncü tərəfləri cəlb etmək istəyirlər ki, bu tərəflər onları müdafiə etsinlər və onlar üçün daha 30 illik qanunsuz işğalı təmin etsinlər. Atəşkəs - yaxşı, bəs, hansı şərtlərlə? Şərtlər belə olmalıdır ki, onlar ərazilərdən çıxmalıdırlar. Mən 2 gün bundan əvvəl dedim ki, qoy onlar çıxmağa başlasınlar, qoy çıxmaqla bağlı bizdə cədvəl olsun, qoy onlar üzərlərinə vasitəçilər tərəfindən təsdiq olunmuş ciddi öhdəliklər götürsünlər, atəşkəs rejiminə əməl etsinlər və əlbəttə ki, biz də eyni şeyi edəcəyik. Bu hərbi toqquşma bizim nəyimizə lazımdır? Bizə torpaqlarımızın sülh yolu ilə geri qayıtması lazımdır. Biz sülh yolu ilə həllə istəkli olduğumuzu 28 il ərzində nümayiş etdirdik. Bu 28 il ərzində toqquşmaların olduğu vaxtlar oldu və ən böyüyü indidir. Daha biri 4 il bundan əvvəl olmuşdu. Beləliklə, bu, bizim mövqeyimizdir və Ermənistan tərəfindən siyasi və hərbi təxribatlar barədə dediklərimi nəzərə alsaq, düşünürəm ki, bu, tamamilə ağlabatandır.

***- Sonuncu münaqişəyə baxdıqda, Azərbaycan Ordusu cəbhədə müəyyən irəliləyişə nail olub və xüsusilə Füzuli rayonu ətrafında bəzi kəndləri geri alıb. Bu, o deməkdir ki, Azərbaycan geri qaytardığı həmin ərazilərdən geri çəkilməyə hazırlaşmır?***

- Xeyr, əlbəttə ki, xeyr! Çünki bu ərazilər bizə məxsusdur. Bu ərazilər qədim torpaqlarımızdır. Bu ərazilər bizim insanların əsrlərboyu yaşadığı ərazilərdir və onlar ermənilər tərəfindən işğal olunub və dağıdılıb. Füzulidə, Ağdamda və Azərbaycanın başqa şəhər və kəndlərində, işğal olunmuş ərazilərin cənub-şərqində baş verənlərlə bağlı internetdə şəkillər var. Onların bir neçə qanunsuz yaşayış məntəqələrinin olduğu Laçın və Kəlbəcər rayonlarında da dağıntılar var, lakin bu ərazidə olduğu qədər ağır deyil. Bu, bizim torpağımızdır. Biz onu geri almışıq, biz onu güc yolu ilə geri qaytarmışıq, biz onları itkilər verərək geri qaytarmışıq, biz heç vaxt bundan geri dönməyəcəyik. Biz orada yaşayacağıq. Bizim həmin ərazilərdən güclə çıxarılmış insanlarımız bu gün, demək olar ki, 30 ildir bir arzu ilə, bir amalla yaşayır - geri qayıtmaq. Mən sizə 2016-cı ilin aprelində yenə də erməni təcavüzü nəticəsində əks-hücuma keçməklə ərazilərimizin bir hissəsini azad etməyimizlə bağlı əyani bir nümunə göstərə bilərəm. Kəndlərimizdən biri ermənilər tərəfindən dağıdılmışdı və azərbaycanlılar geri qayıda bilmirdilər, çünki ermənilərin mövqeləri dağlarda idi. Biz qaçqınlar üçün yeni kənd tikdik və hətta heç vaxt o torpağı görməyənlər, ondan sonra dünyaya gələnlər belə hamısı Cocuq Mərcanlıya qayıtdı. Mən demişdim ki, Cocuq Mərcanlı ləyaqətimizin rəmzidir, iradəmizin rəmzidir və Cocuq Mərcanlı bizim qayıdışımızın rəmzidir. Mən demişdim ki, qayıdışımız indi başlayır. Mən əminəm ki, o ərazilərdən köçürülənlərin hamısı geri qayıdacaq. Geri qayıtmağa yol yoxdur, çünki hər şey dağılıb. Hər şey. Bir tikili belə qalmayıb. Hər şey dağılıb. Sözsüz ki, biz kömək edib şəhərləri, kəndləri yenidən quracağıq, onların əvvəlki adlarını qaytaracağıq. Çünki ermənilər bizə qarşı mədəni soyqırımı törədiblər. Onlar işğal olunmuş ərazilərdə bütün məscidləri dağıdıblar. Onlar məscidlərdə donuz və inək saxlamaqla bütün müsəlmanları təhqir edirlər. Onlar şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdiriblər. Bütün adlar qaytarılacaq. Biz öz torpaqlarımıza geri qayıdacağıq. Bu, bizim qanuni hüququmuzdur. Bu, bizim üçün tarixi vəzifədir və əminəm ki, biz buna nail olacağıq.

***- Qafqaz çox mürəkkəb regiondur, təkcə coğrafi nöqteyi-nəzərdən deyil, həm də mədəniyyət, etnik mənsubiyyət və sosial quruluş nöqteyi-nəzərdən. Siz xalqların öz müqəddəratını təyin etmək hüququna inanırsınızmı?***

- Bilirsiniz, bu, erməni təbliğatının əsas etibarilə beynəlxalq hüquq üzrə mütəxəssis olmayan sadə insanlardan ibarət beynəlxalq ictimai rəyi çaşdırmaq üçün tez-tez istifadə etdiyi məqamdır. Lakin beynəlxalq hüququn Helsinki Yekun Aktında əks olunan əsas prinsiplərinin çox aydın izahı var ki, orada ərazi bütövlüyü prinsipi üstündür. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm prinsiplərindən biridir. Lakin əgər biz geriyə baxıb BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına nəzər salsaq görərik ki, öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünə ziyan vurmamalıdır. Başqa bir mühüm məqam odur ki, ölkənin ərazi bütövlüyü güc yolu ilə dəyişdirilə bilməz, ölkə əhalisinin razılığı olmadan dəyişdirilə bilməz. Ona görə də Dağlıq Qarabağ məsələsində sözsüz ki, öz müqəddəratını təyinetmə ermənilərin etmək istədikləri şəkildə işləmir. Başqa bir arqument odur ki, erməni xalqı artıq öz müqəddəratını təyin edib. Onların müstəqil Ermənistan dövləti var. Bu gün ermənilər hər yerdə yaşayırlar. Onlar Fransada yaşayırlar, onlar Amerikada yaşayırlar, onlar Rusiyada yaşayırlar, onlar Yaxın Şərqdə yaşayırlar. Qoy, onlar öz müqəddəratlarını həmin ölkələrdə istəsinlər. Əgər ermənilər özlərinə məxsus olmayan torpaqları istəsəydilər və sadəcə olaraq, əksəriyyət olduqlarına görə həmin torpaqları istəsəydilər, həmin ölkələrin rəhbərliklərinin reaksiyası necə olardı? Bu, onların uzun illər istifadə etdikləri taktikadır - gəlmək, dəstək istəmək, torpaq istəmək və sonra özlərinin qondarma qədim tarixləri barədə feyk xəbərlər hazırlamaqla və həmin torpaqları özləri üçün tələb etməklə ərazinin tarixi kimliyini dəyişməyə başlamaq. Qoy Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə vermək istəyən ölkələr öz torpaqlarının bir hissəsini Dağlıq Qarabağdan olan ermənilərə versinlər, onları qəbul etsinlər və orada onlara öz müqəddəratını təyinetmə hüququ versinlər. Onda baxaram onların reaksiyası necə olacaq.

***- Hazırda vəziyyət necədir? Ruslar, iranlılar, türklər, fransızlar, amerikalılar münaqişə ilə bağlı narahatlığını ifadə edirlər. Bu münaqişə nə vaxtsa regional ola bilərmi?***

- Mən belə düşünmürəm. Zənnimcə, bunun üçün əsas yoxdur və biz bu münaqişənin regional münaqişəyə çevrilməsinin qəti olaraq əleyhinəyik. Ermənistanın etmək istədiyi məhz budur. Ona görə də onlar Azərbaycana bəzi xarici dəstəklə bağlı feyk xəbərlər icad edirlər. Lakin, eyni zamanda, onlar özləri xarici dəstək istəyirlər. Ona görə də mən elə hiss edirəm ki, hazırda, döyüş meydanında çox ciddi məğlubiyyətlə üzləşdikləri bir vaxtda, onların əsas hədəfi bu münaqişəni regional münaqişəyə çevirməkdir. Lakin mən əminəm ki, qeyd etdiyiniz ölkələr heç vaxt bunun olmasına imkan verməyəcəklər. Çünki regionumuzda təhlükəsizlik bütün region ölkələrinin maraqlarına xidmət edir və qeyd etdiyiniz ölkələr arasında Türkiyə, Rusiya, İran region ölkələridir. Digər ölkələrin bura ilə, regionla əlaqəsi yoxdur. Onlar region ölkələri deyil. Onların danışıqlara şərait yaratmaqla bağlı mandatı var, çünki bu, 1992-ci ildə baş verib. Biz, şəxsən mən Minsk qrupunun belə tərkibdə olmasına görə cavabdeh deyilik. Sözsüz ki, əgər biz sülhə şərait yarada biləcək hər hansı kontakt qrupunun tərkibi ilə bağlı bu gün qərar versəydik, əlbəttə, tərkib tamamilə fərqli olardı. Mən konkretləşdirmək istəmirəm, lakin bəzi ölkələrin qərəzli davranışı səbəbindən həmin qrupda yeri olmazdı. Beləliklə, biz, xüsusilə region ölkələrinin münaqişədən kənar durması, heç bir halda münaqişəyə müdaxilə etməməsi üçün əlimizdən gələni etməliyik və Ermənistana xəbərdarlıq etməliyik - işğalı dayandır. İşğalı dayandır və onda siz xeyrini görəcəksiniz. Onda siz uzun illər ərzində bu təcavüz səbəbindən Ermənistan rəhbərliyinin Ermənistanı məhrum etdiyi iqtisadi, investisiya, enerji və nəqliyyat sahələrində regional layihələrə inteqrasiya edəcəksiniz. Beləliklə, biz bu münaqişənin mümkün qədər tez bir zamanda dayanması, həllin mümkün qədər tez tapılması üçün əlimizdən gələni etməliyik. Biz "bunu dayandırın, biz işləyəcəyik, danışıqlar aparacağıq, yardım edəcəyik" kimi bəyanatlara qulaq asmaq mövqeyində deyilik. Biz bunu dəfələrlə eşitmişik. Bizim daha 30 il gözləməyə vaxtımız yoxdur. Münaqişə indi həll olunmalıdır. Ermənistana kömək etmək istəyənlər onların, belə demək mümkünsə, yaxın tərəfdaşları qoy onlara kömək etmək üçün desinlər ki, əraziləri tərk edin, iradənizi nümayiş etdirin, atəşi dayandırın, deyin ki, bu gün, ya sabah, bir həftəyə mən Ağdamı tərk edəcəyəm, növbəti dəfə, növbəti həftə Füzulini tərk edəcəyəm, növbəti həftə Kəlbəcəri tərk edəcəyəm və s. və biz dayanarıq. Bu, çox ədalətli mövqedir. Bu, müharibəyə deyil, sülhə istiqamətlənmiş mövqedir.

***- Ankaranın bu münaqişəyə hərbi nöqteyi-nəzərdən öz təyyarələri və sair ilə cəlb olunmasına dair Ermənistanın iddiaları barədə nə deyə bilərsiniz?***

- Bu, yalan məlumatdır. Bunun sübutu yoxdur. Mən bununla bağlı artıq bəyanatlar vermişəm. Türkiyə bizim qardaş ölkəmizdir. Ermənistanın hücumunun ilk günündən, ilk saatından Türkiyə Azərbaycana tam dəstəyini ifadə etdi. Qardaşım, Prezident Ərdoğan dəfələrlə çox mühüm bəyanatlar verib. Dünən parlamentin açılış sessiyasında çıxış edərkən o, daha bir mühüm bəyanat verdi ki, Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Biz bu dəstəyi hiss edirik. Biz türk qardaşlarımıza, Prezidentə və digər rəsmi şəxslərə çox minnətdarıq. Lakin Türkiyə heç bir şəkildə münaqişəyə cəlb olunmayıb. Ermənistanın artıq mediada yer almayan feyk xəbərlərindən biri odur ki, Türkiyəyə məxsus F-16 təyyarəsi Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbərdir. Sübut haradadır? Sübut yoxdur. Yerə enən və havaya qalxan hər bir təyyarə kompüterdədir. Hər kəs nə baş verdiyini görə bilər. Mən təəccüblənirəm, niyə Minsk qrupunun həmsədr ölkələri - Fransa, ABŞ, Rusiya buna münasibət bildirmir. Onlar bu feyk xəbərə münasibət bildirmir. Onların bəziləri Azərbaycan və Türkiyənin buraya terrorçular dəvət etməsi kimi başqa feyk xəbərlərə münasibət bildirir.

***- Mən məhz bu barədə soruşmaq istəyirdim, cənab Prezident. Ermənistan, həmçinin Türkiyəni suriyalı müxalif döyüşçüləri Azərbaycana gətirməkdə ittiham edir.***

- Bu, tamamilə feyk xəbərdir. Eynilə Türkiyəyə məxsus F-16-nın onların Su-25-ni vurması kimi feyk xəbərdir. Onların Su-25 təyyarəsi qəzaya uğrayıb. Mənə məlumat verilmişdi ki, o, pilotun təcrübəsizliyi ucbatından dağa çırpılıb.

***- Amma onlar bunu sübut etmək üçün dəlillərinin olduğunu deyirlər.***

- Qoy göstərsinlər. Haradadır dəlil? Təkcə Ermənistan deyil, əfsuslar olsun, mən dünən eşitdim ki, Fransa prezidenti də bəyanat verib. O, ayın 27-də axşam mənə zəng vurmuşdu, mən ona bunun səhv, yanlış olduğunu dedim. O, bu bəyanatı heç bir dəlil olmadan verib. Qoy o, bizə dəlil versin, sübut versin. Yalnız sözlərdir. Biz də çox söz deyə bilərik, amma demirik, məsuliyyətli davranırıq. Azərbaycanda hər hansı xarici ölkənin iştirakına dair heç bir dəlil belə yoxdur. Biz nə ediriksə, özümüz edirik. Bizim qabil ordumuz var. Ordumuzda kifayət qədər insan var, ehtiyatımızda kifayət qədər insan var. Mən qismən səfərbərlik elan etmişəm. Bu, bizə ehtiyac olacağı təqdirdə ehtiyatda olan on minlərlə adamı cəlb etməyə imkan verəcək. Beləliklə, bizim buna ehtiyacımız yoxdur. Ermənistanın buna ehtiyacı var, çünki Ermənistan əhalisinin sayı azalır, cəmi 2 milyon nəfərdir. Ona görə də onlar özləri Yaxın Şərqdən insanları cəlb edirlər və bizim sübutumuz var, təkcə erməni əsilliləri deyil. Yeri gəlmişkən, Yaxın Şərqdən gələnlərin erməni əsilli olması və ya qeyri-erməni əsilli olmasının heç bir fərqi yoxdur. Əgər kimsə xaricdən muzdlu kimi döyüşməyə gəlirsə, bununla beynəlxalq səviyyədə məşğul olunmalıdır. Bu ittihamlar tamamilə əsassızdır. Biz onları rədd edirik və dəlillərin ortaya qoyulmasını tələb edirik.

***- Siz də Ermənistanın gətirdiyi əcnəbi muzdlularla bağlı dəlilləri ortaya qoyacaqsınızmı?***

- Bizdə artıq bəzi kəşfiyyat məlumatları var və bundan əlavə dünən mənə göstərdilər ki, internetdə videolar var, Yaxın Şərqdən olan insanlar erməni əsgərləri ilə birlikdə oturub, onların formasını geyiniblər, onlarda Ermənistan milli bayrağı var, onlar birlikdə oturub müzakirə aparırlar. Səsi yoxdur, lakin düşünürəm ki, bu, yetərlidir. Onlar buna görə məsuliyyət daşımalıdırlar.

***- Diplomatiya nə vaxtsa işləyə bilərmi? Yoxsa, sizin üçün yeganə həll müharibədir?***

- Mən artıq demişəm ki, Ermənistan beynəlxalq hüquqa əməl etsə, ərazilərin bir hissəsindən vaxt cədvəlinə müvafiq olaraq dərhal çıxmağa başlasa, - əlbəttə ki, biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik, - diplomatiya işləyə bilər. Yeri gəlmişkən, Ermənistanda bu hökumət hakimiyyətə gəlməmişdən əvvəl biz danışıqlar masasındakı məsələləri müzakirə edəndə ilk bənd o idi ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır. Bu, bərpa olunmalıdır. Bizim tələbimiz budur və düşünürəm ki, bunu tələb etməyə haqqımız var.

***- Azərbaycan Prezidenti İlham Əliyev, "Əl-Cəzirə"yə müsahibə verdiyiniz üçün çox sağ olun.***

- Təşəkkür edirəm.

# «Sizin komandanlığınızla Azərbaycan Ordusu çox güclü, qüdrətli və yenilməz orduya çevrilib»

# İlham Əliyevi milli maraqlardan heç bir güc geri çəkindirə bilməz

Oktyabrın 2-də Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Fransa Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsi və tezliklə danışıqların aparılmasına çağırıb.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini işğaldan azad edib.

Dövlət başçısı onu da qeyd edib ki, Ermənistan danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurub. Prezident İlham Əliyev vurğulayıb ki, danışıqların pozulması, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

***Prezidentin Mətbuat Xidməti***

# Prezident İlham Əliyev Qazaxıstan, Özbəkistan və Qırğızıstan prezidentlərinə məktub ünvanlayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə və Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekova məktub ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktublarda sentyabrın 27-də Ermənistanın Azərbaycana, qarşı növbəti təxribat törətdiyini və bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini, eyni zamanda, hərbi mövqelərini atəşə tutduğunu bildirib. Bu təxribat nəticəsində hərbçilərimiz, mülki şəxslərimiz həlak olub və yaralanıb. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb.

Prezident İlham Əliyev Ermənistanın bu hücumunun planlaşdırılmış hərbi təxribat olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Ermənistan rəhbərliyinin danışıqlar prosesini pozmağa yönəlmiş bəyanatları, iyul-avqust aylarında törədilmiş hərbi təxribatlar, Azərbaycanın işğal olunmuş ərazilərində xarici ölkə vətəndaşlarının qeyri-qanuni məskunlaşdırılması Ermənistanın öz təcavüzkar siyasətindən əl çəkmədiyini və yeni müharibəyə hazırlaşdığını göstərir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğuna dair ölkəmizin mövqeyini bir daha təkrarlayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi ilə bağlı Türk Şurasının 2020-ci il 28 sentyabr tarixli bəyanatına toxunan Prezident İlham Əliyev bu bəyanata görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə və Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekova təşəkkürünü bildirib.

# BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinə Ermənistanın hərbi təxribatları barədə məlumat verilib

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Əhmədov oktyabrın 2-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazirin müavini Əli Əhmədov Ermənistanın Azərbaycana qarşı törətdiyi və bu gün də davam edən növbəti hərbi təxribatla bağlı vəziyyət barədə məlumat verib. Qeyd edib ki, sentyabrın 27-də Ermənistan qoşunlarının təmas xətti boyu yaşayış məntəqələrimizi, hərbi birləşmələrimizin mövqelərini ağır artilleriya qurğularından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan buna cavab olaraq özünümüdafiə hüququ çərçivəsində və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə qarşı müvafiq əks-hücum əməliyyatları həyata keçirir. Bundan əvvəl də iyul-avqust aylarında Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təxribatların törədildiyini və nəticədə hərbçilərimizin və mülki şəxslərimizin həlak olduğunu deyən Əli Əhmədov bu təxribatları Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasətinin davamı kimi qiymətləndirib. Qeyd edib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

Baş Nazirin müavini vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulması və müharibə cinayətidir. Ermənilərin Azərbaycan əhalisinin cəmi bir faizini təşkil edən, Azərbaycan ərazisində yaşayan etnik azlıq olduğunu bildirən Əli Əhmədov dünyanın heç bir yerində belə bir azlığın özünə müstəqillik tələb etməsi hallarına rast gəlinmədiyini deyib.

Qulam İshaqzai Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı narahatlığını ifadə edib. O, cəbhə xəttinə yaxın yerləşən rayonların mülki əhalisi arasında sorğu keçirilməklə BMT-nin müvafiq humanitar yardım göstərməyə hazır olduğunu bildirib. Qeyd edib ki, bu yardımın psixoloji dəstək, xüsusi çadırların qurulması, ərazilərin minalardan təmizlənməsi və digər formalarda reallaşdırılması mümkündür.

Baş Nazirin müavini Əli Əhmədov təklifə görə qarşı tərəfə minnətdarlığını bildirib, hazırkı mərhələdə Azərbaycanın yardıma ehtiyac duymadığını vurğulayıb.



Müzəffər ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, əks-hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirməsi Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin və xarici ölkə vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc və qürur hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Goranboy rayonundan Milli Qəhrəmanın həyat yoldaşı **Rübabə İsmayılova** yazır: "Hörmətli cənab Prezident. Sizin rəhbərliyinizlə Azərbaycanın rəşadətli ordusunun göstərdiyi şücaətlər bizi sevindirir. Bu münasibətlə Sizi səmimi-qəlbdən təbrik edirik. Biz Sizin haqq işinizi dəstəkləyirik və Sizinlə birlikdəyik. İnanırıq ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, biz Qarabağı azad edəcək və şəhidlərimizin ruhunu şad edəcəyik. Allah Sizi bu xalqdan, xalqı da Sizdən ayırmasın".

Zaqatala rayonunun Yuxarı Tala kəndindən **Kamalov Kamal** sevinc hisslərini bu sözlərlə ifadə edir: "Cənab Ali Baş Komandan. Mən Qarabağ döyüşləri əlilinin oğlu olaraq, Sizi yeddi kəndin alınması ilə bağlı xəbər münasibətilə ürəkdən təbrik edirəm. Çox az qaldı, cənab Prezident. Düşmənləri bizim torpaqlardan çıxaracağıq. İşğal etdikləri ərazilərimizi tərk etmələri üçün bu zamana qədər düşmənə vaxt verdik, lakin torpaqlarımızdan çıxmadılar. Biz də öz torpaqlarımız uğrunda öz torpağımızda döyüşürük. Vətən məni bu dəqiqə çağırsa, ön cəbhəyə getməyə hazıram. Şəhidlərin qanı yerdə qalmayacaq. Qələbə bizimdir. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!"

Abşeron rayonundan **Bəxtiyar Qurbanov** və **Mübariz Niyazov** yazırlar: "Hörmətli cənab Prezident. Biz mənfur qonşularımız, erməni faşistləri tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda apardığınız mübarizəni dəstəkləyirik və ehtiyac yaranarsa, göstərişiniz əsasında bu mübarizəyə hər an qoşulmağa hazır olduğumuzu bildiririk. Allahdan arzumuz budur ki, inşallah, dediyiniz kimi, Azərbaycanın bayrağını Şuşada qaldıraq və həmin bayrağı Azadlıq meydanına gətirib xalqımıza nümayiş etdirək. Bu işdə Allah Sizə yar olsun".

Sumqayıt şəhərindən **Aynurə Tağıyeva:** "Cənab Ali Baş Komandan. Sizə bu məzmunda təşəkkür məktubu yazmaq mənim çoxdankı arzum idi. Bu arzuma çatdığıma görə Sizinlə fəxr edirəm. Bu gün səngərdə düşmənlə üz-üzə olan əsgərlərimizin şücaəti qarşısında baş əyirik. İgidlərimizin qəhrəmanlığı sayəsində ermənilərin doğma yurdumuzdan qaçmaqdan başqa şansı yoxdur. Sizi çox sevirik. Allah bütün xalqımızı, əsgərlərimizi qorusun.

Ordumuzun uğurlu əməliyyatları münasibətilə dövlət başçısını təbrik edən **Xəyalə Əkbərova** yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan. Bütün ailəmiz adından Sizi və xalqımızı ordumuzun düşmənə sarsıdıcı zərbələr endirməsi münasibətilə təbrik edirəm. İnanırıq ki, Sizin rəhbərliyinizlə nəhayət ki, ata-baba torpaqlarımız mənfur düşməndən azad ediləcək və Qələbə sevincini bütün xalqımızla birlikdə Şuşada Azərbaycanın üçrəngli bayrağı altında qeyd edəcəyik. Şəhidlərimizin ruhu şad olsun. Bu çətin və şərəfli işinizdə Sizə yeni böyük uğurlar arzu edirəm. Tanrı Sizi qorusun".

Mingəçevir şəhər sakinləri **Gülsurə İsmayılova** və **Ağasən Şükürov:** "Hörmətli cənab Prezident. Ermənistan qoşunları tərəfindən işğal edilmiş torpaqlarımızda Milli Ordumuzun əldə etdiyi uğurlar, cəbhədəki erməni təxribatına verilmiş layiqli cavablar bizləri daha da ruhlandırır. İnanırıq ki, tezliklə qələbə xəbərləri işğal edilmiş torpaqlarımızda - Xankəndidə, Şuşada, Kəlbəcərdə, Laçında və digər rayonlarımızda Azərbaycan bayrağının dalğalanmasına qədər davam edəcək. Bütün Azərbaycan xalqı bu günü səbirsizliklə gözləyirdi. Sizin rəhbərliyinizlə çox uzaqda olmayan Qələbə sevincini yaşayacağımıza inanırıq. Qüdrətli ordumuzun uğurları tezliklə bütün tarixi torpaqlarımızın işğalçılardan azad ediləcəyinə və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdacaqlarına böyük əminlik yaradır. Azərbaycan Respublikası öz tarixinin mürəkkəb və şərəfli bir dövrünü yaşayır. 30 ilə yaxındır ki, təcavüzkar Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal altında saxlayır. Beynəlxalq hüquqa məhəl qoymayan işğalçı dövlət beynəlxalq təşkilatların, həmsədr dövlətlərin qərar və qətnamələrini yerinə yetirməkdən aşkar şəkildə imtina edir. Azərbaycan dövlətinin sülhpərvər siyasəti Ermənistanın cinayətkar rejimi tərəfindən qəbul edilmir. Təcavüzkar dövlət son dövrlərdə özünün işğalçı niyyətlərini daha da artıraraq Azərbaycanın yeni torpaqlarını ələ keçirmək iddiası ilə çıxış edir".

Füzuli rayonundan **İlahə Cəfərova** yazır: "Hörmətli cənab Prezident. Sizin Ali Baş Komandanlığınızla rəşadətli ordumuz tərəfindən düşmənin törətdiyi təxribatın qarşısı qəhrəmanlıqla alınır. Cəbhə bölgəsində yaşayan bir məcburi köçkün kimi bu, məni hədsiz dərəcədə qürurlandırır. Cəbhəyə çox yaxın ərazidə yaşamağıma, burada gedən döyüşlərə baxmayaraq heç nədən qorxmuram, Sizə və ordumuza güvənərək həyatıma davam edirəm. Burada yaşayan hər bir şəxsdə böyük ruh yüksəkliyi var, hər birimiz həsrətlə qələbə gününü gözləyirik. Cənab Prezident, hər zaman Sizin arxanızda, ordumuzun yanındayam. Lazım olarsa, Vətənimin ərazi bütövlüyü uğrunda könüllü olaraq döyüşlərə qoşulmağa hazıram. İnanıram ki, Sizin rəhbərliyinizlə müzəffər ordumuz tezliklə xalqımıza qələbə sevincini yaşadacaq, üçrəngli bayrağımızı Qarabağın gözü olan Şuşa şəhərində dalğalandıracaq. Əminəm ki, zəfərə sayılı günlər qalıb. Cənab Prezident, Sizə cansağlığı arzulayıram. Ordumuzun genişmiqyaslı uğuru münasibətilə Sizi bir daha təbrik edirəm".

Masallı rayonunun Öncəqala kəndindən **Xəlil Hüseynov** və **Rəfael Ağayev** yazırlar: "Möhtərəm cənab Prezident. Masallının Öncəqala kənd müəllimləri adından Sizi və ordumuzu döyüşdəki uğurlu qələbələrə görə təbrik edirik. Fəxr edirik ki, Sizin Prezidenti olduğunuz respublikada yaşayırıq. Sizin inamlı və qətiyyətli çıxışlarınız bizi qələbəyə ruhlandırır. Hər an Sizin yanınızdayıq, bir çağırışla hər birimiz silaha sarılmağa hazır müsəlləh əsgərlərik. Qarabağ bizimdir, qələbə bizimlədir!"

Kəndləri işğaldan azad olunan Ağcabədi rayon sakinləri **Şükür Axundov, Nizami Məmmədov** və **Eldəniz Məmmədov** sevinclərini bu sözlərlə ifadə edirlər: "Hörmətli cənab Prezident. Kəndlərimizin işğaldan azad olunması xəbəri hamımızın həsrətinə son qoydu. Tezliklə bu həsrətin Şuşada, Xankəndidə də bitəcəyinə, tezliklə oraların da azad olunması xəbərini eşidəcəyimizə əminik. Biz indi çox qürurluyuq. Biz və bizim kimi minlərlə azərbaycanlı döyüşməyə hazırdır. İnşallah, Qələbə qazanacaq və bayrağımızı Qarabağda, Xankəndidə asacağıq".

Şəki şəhərindən **Samir Hacıyev:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Apardığınız uğurlu siyasətə, qətiyyətli mövqeyinizə görə Sizə bir vətəndaş kimi dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Xalqımız çox yaxşı bilir ki, Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlişi və atəşkəsə nail olması dövlətimizi çox böyük təhlükələrdən xilas etdi. Eyni zamanda Sizin son iyirmi ilə yaxın vaxt ərzində apardığınız uğurlu daxili və xarici siyasətin nəticəsində ölkəmiz daha da inkişaf etdi, ən əsası isə ordumuz dünyanın ən güclü orduları siyahısında özünə yer aldı. Bu gün qəti əminik ki, erməni terrorçuları güclü ordumuzun qarşısında çox davam gətirə bilməyəcək. Uca Tanrı qələbə xəbərini eşitməyi tezliklə xalqımıza nəsib etsin. Allah Sizi və Ordumuzu qorusun".

Astara rayonundan **Fərid Yusifov:** "Hörmətli cənab Ali Baş Komandan. Azərbaycan dövlətinin 2003-cü ildən ötən müddət ərzində Sizin tərəfinizdən bütün sahələr üzrə uğurla inkişaf etdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda başladığınız haqq-ədalət müharibəsi bütün xalqımız kimi, Astara rayon sakinləri tərəfindən də sevinclə qarşılanır. Cənab Prezident, biz, Astara rayon ictimaiyyətinin nümayəndələri qəti olaraq əminik ki, Sizin rəhbərliyinizlə başlayan haqq-ədalət müharibəsi erməni faşistlərinin işğalında olan bütün torpaqlarımızın tezliklə azad edilməsi ilə başa çatacaq. Ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimizin ruhu şad olsun. Ulu Tanrının köməyi ilə üçrəngli bayrağımız Xankəndidə, Azərbaycanın mirvarisi olan Şuşada və bütün Qarabağda dalğalanacaq. Tanrı Sizi və ordumuzu qorusun".

Lənkəran şəhərindən **Zaur Məmmədov** Ali Baş Komandana dəstəyini bu sözlərlə ifadə edir: "Cənab Ali Baş Komandan. Son zamanlar baş verən hadisələr bizi ürəkdən sevindirir, ordumuzun uğurları, beynəlxalq münasibətlər sistemində Sizin qətiyyətli addımlarınız, xüsusilə bütün forumlarda, debatlarda Ermənistan rəhbərliyini susdurmağınız real həqiqətlərin bütün dünyaya çatdırılmasına xidmət edir. Lənkəran gəncləri olaraq, hər zaman Sizin yanınızda olduğumuzu bildirir, bütün varlığımızla Vətənə, dövlətçiliyə xidmət etməkdən qürur duyuruq".

Ağcabədi rayonundan **Minə Nərimanova** bu gün hər birimizin müsəlləh əsgər olduğunu bildirərək yazır: "Cənab Ali Baş Komandan. Siz daim Qarabağ məsələsinə həssaslıqla yanaşmış, bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə çalışmısınız. Qarabağ məsələsinə ikili standartlarla yanaşan dünya dövlətləri bir tərəfdən Azərbaycanı danışıqlara çağırsa da, digər tərəfdən öz əlaltıları vasitəsilə ölkə daxilindəki sabitliyi pozmağa cəhd etmişlər. Ermənilərin iyul ayında Tovuz bölgəsində, sentyabrın 27-dən isə sərhədboyu dinc əhalini ağır artilleriya atəşinə tutması düşmənin əsl niyyətini göstərdi. Onlar mülki şəxsləri öz çirkin əməllərinin qurbanına çevirmək istəyirlər. Sizin uğurlu xarici siyasətinizin nəticəsidir ki, qardaş Türkiyə, Pakistan, Ukrayna, İsrail və digər nüfuzlu dövlətlər Azərbaycanın haqq işini dəstəklədiklərini bildirmişlər. Bu gün bizim hər birimiz Vətən qarşısında müsəlləh əsgərik. Sizin komandanlığınız və Ulu Tanrının köməyi ilə biz tezliklə Qarabağa zəfər bayrağımızı sancacağıq".

Azərbaycan Dövlət Aqrar Universitetinin fizika və riyaziyyat kafedrasının kollektivi adından **Qalib Ağayev** yazır: "Cənab Ali Baş Komandan. Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün Sizin göstərdiyiniz istiqamətlər və verdiyiniz əmrlər əsasında ordumuz böyük nailiyyətlər əldə edir. İnanırıq ki, Sizin fədakar və inamlı siyasi fəaliyyətiniz əsasında qısa müddətdə işğal olunmuş torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaqdır. Biz hər zaman Sizinləyik".

Bakı şəhərindən **Aysel Həsənova:** "Hörmətli cənab Prezident. Bir Azərbaycan vətəndaşı və Fövqəladə Hallar Nazirliyinin əməkdaşı olaraq, Sizin siyasətinizi, ölkəmizin gələcəyi və vətəndaşlarımızın rifahı üçün qəbul etdiyiniz qərarları tam dəstəkləyirəm və bizə yaşatdığınız bu tarixi, qürurverici günlər üçün dərin minnətdarlığımı bildirirəm. Mən əminəm ki, Siz beynəlxalq arenadan gələn təzyiqlərin, zənglərin, siyasi oyunların qarşısında sonadək dayanacaqsınız və Azərbaycanın işğal olunmuş ərazilərində üçrəngli bayrağımızın dalğalanmasını və Qələbə sevincini bizə yaşadacaqsınız. Bu şərəfli günləri, qələbə xəbərlərini bütün xalqım kimi gözləyirəm. Vətənimiz uğrunda gedən müharibədə bir vətəndaş və dövlət qulluqçusu olaraq yanınızdayam və əlimdən gələni etməyə hazıram. Hər bir Azərbaycan övladı kimi, mən də ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə, tarixi torpağımız olan Dağlıq Qarabağ üçün canımdan keçməyə hazıram. Hamımız Sizin haqq mübarizənizdə arxanızdayıq və sona qədər də olacağıq. İnşallah, qələbə xəbərlərini alacağıq. Dualarımız Sizinlə və əsgərlərimizlədir".

Şəki şəhərindən **Svetlana İsmayılova** və **Qəlbinur Məmmədli** yazırlar: "Cənab Ali Baş Komandan. Axır ki, çoxdan gözlədiyimiz bir zamana gəlib çatdıq. İşğalçı Ermənistanın qaça-qaça cənnət-məkan Azərbaycanımızdan çıxması fəxarət hissi verir. Qoy bütün dünya bir daha bilsin ki, Ermənistan işğalçı, biz isə Vətən torpağını qoruyan mərd bir dövlətik. Bu mərd dövlətin ərən oğulları var. Onların da başında cəsur Ali Baş Komandanı var. Biz bununla fəxr edirik. Əzəmətli bayrağımızın tezliklə Dağlıq Qarabağda dalğalanacağına inanırıq. Qarabağ Azərbaycandır!"

Bakının Nəsimi rayonundan **Flora Vəliyeva:** "Hörmətli cənab Prezident. Mən həm qarabağlı, həm də şəhid ailəsiyəm. Mənim həyat yoldaşım Vəliyev Əyyub Əli oğlu 1993-cü ildə şəhid olub. Biz hamımız bir nəfər kimi torpaqlarımız uğrunda şəhid olmağa hazırıq. Mən inaniram ki, Sizin rəhbərliyinizlə şanlı və qüdrətli ordumuz 30 illik həsrətə son qoyacaq. Biz məcburi köçkünlər öz ata-baba yurdumuza geri qayıdacağıq. Azərbaycanın üçrəngli şanlı bayrağını igid əsgərlərimiz Qarabağ torpağında dalğalandıracaqlar. Ali Baş Komandan kimi biz Sizə inanırıq və Sizin siyasətinizi dəstəkləyirik. Bu haqq yolunda Sizə və ön cəbhədə olan əsgərlərimizə Uca Tanrıdan güc-qüvvət arzulayırıq. Qarabağ Azərbaycandır, yaşasın Azərbaycan!"

Hacıqabul rayonundan **Mirəhəd İsmayılovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident. Torpaqlarımızın azadlığı uğrunda atdığınız qətiyyətli addımlar hər bir vətəndaş kimi, məni də çox qürurlandırır. Sizin əmrinizlə aparılan əks-hücum əməliyyatının uğurlu nəticələri bizi hədsiz dərəcədə sevindirir. Azərbaycan xoşbəxt ölkədir ki, qüdrətli ordusu və onun başında duran uzaqgörən Ali Baş Komandanı var. Bu günlərdə yaşadığımız qüruru və sevinci sözlə ifadə edə bilmirəm. Xalqımıza yaşatdığınız parlaq qələbə sevinci üçün Sizə dərin təşəkkürümü bildirirəm. Azərbaycan xalqı daim Sizin yanınızdadır və Sizə dəstəkdir. Allah Azərbaycan Ordusuna yeni parlaq qələbələr qazanmağı qismət etsin. Qürur hissi ilə Allahdan Sizə və xalqımıza yardımçı olmasını diləyirəm. İnanırıq ki, Sizin və qüdrətli Azərbaycan Ordusunun sayəsində torpaqlarımızın işğaldan azad olunması xəbərini tezliklə alacağıq. Allah bu şərəfli yolda Sizə və xalqımıza yar olsun. Cənab Ali Baş Komandan, bizə bu xoş günləri yaşatdığınıza görə Sizə Pirsaat Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsinin mühəndis heyəti adından təşəkkür edirəm. Sizin hər bir əmrinizi layiqincə yerinə yetirməyə, Böyük Qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazırıq".

Qəbələ rayonunun Soltannuxa kəndindən **Qurbanəli Daşdəmirov:** "Hörmətli cənab Prezident. Qəbələ Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi adından Sizə torpaqlarımızın erməni işğalından azad edilməsi yolunda tutduğunuz qətiyyətli mövqeyə görə dərin minnətdarlığımı bildirirəm. İstəyirəm biləsiniz ki, daim Sizin arxanızdayıq. Gün o gün olsun ki, işğal olunmuş bütün torpaqlarımız Sizin rəhbərliyinizlə geri qaytarılsın. Allah Sizi və ordumuzu qorusun".

Xaçmaz rayonunun Arzu kəndindən **Pünhan İsmayılov** yazır: "Möhtərəm cənab Prezident. Sizin komandanlığınızla Azərbaycan Ordusu çox güclü, qüdrətli və yenilməz orduya çevrilmişdir. Budur haqqın, ədalətin və qələbələrimizin təntənəsi. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başladığınız bu məsuliyyətli və şərəfli mübarizədə Mərhəmətli və Rəhimli Allah Sizə yardımçı olsun. Müdrik rəhbərliyinizlə düşmənlə amansız döyüşlərdə zəfər sona kimi bizimlədir, çünki Qarabağ bizimdir. Qarabağ Azərbaycandır! Çox yüksək amal uğrunda döyüş bölgələrində əldə edilmiş nailiyyətlərə görə şəxsən Sizi təbrik edir və Sizə səmimi təşəkkürümü bildirirəm. Əgər lazım gələrsə, döyüş əməliyyatlarında iştirak etməyə hər an hazıram. Amansız düşmənə qarşı Uca Tanrı Sizi və bütün Azərbaycan xalqını qorusun".

## Prezident Administrasiyasının rəhbəri, Administrasiyanın, İşlər İdarəsinin və Birinci vitse-prezidentin katibliyinin rəhbər şəxsləri, Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşları bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna köçürüblər

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Administrasiyanın, İşlər İdarəsinin və Birinci vitse-prezidentin katibliyinin rəhbər şəxsləri bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna köçürüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu 2002-ci ildən yaradılıb. Fonda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər könüllü ödəmələr həyata keçirə bilərlər.

* * *

Heydər Əliyev Fondunun əməkdaşları Milli Ordumuzun Azərbaycanın ərazi bütövlüyü uğrundakı son uğurlu əməliyyatları ilə həmrəylik nümayiş etdirərək bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna köçürüblər.

* * *

Heydər Əliyev Mərkəzinin əməkdaşları torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən əks-hücum əməliyyatlarına dəstək və vətəndaşlıq borcunu yerinə yetirmək məqsədilə bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna köçürüblər.

## *Suqovuşanda Azərbaycan bayrağı dalğalanır:*
## Prezident İlham Əliyev qələbəni, Paşinyan isə məğlubiyyəti elan edir

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Madagizin erməni işğalından azad olunduğunu elan etdi. "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

Dövlətimizin başçısının Tvitter səhifəsində etdiyi bu paylaşımdan bir qədər sonra isə Madagizin tarixi adını bərpa etdiyini bildirdi: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır".

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti bu paylaşımdan bir qədər əvvəl Ermənistanın baş naziri diaspor təşkilatlarına müraciət edərək çarəsiz halda yardım dilənirdi. Şanlı tariximizə qızıl hərflərlə yazılan bu gün həm də Paşinyanın məğlubiyyətlərinin etirafı kimi yazılacaq. Ermənistanın baş naziri müraciətində çoxlu sayda qüvvə və hərbi texnika itirdiklərini dilə gətirdi və erməni diasporundan imdad dilədi.

Bəli, artıq bütün sahələrdə böyük uğurlara imza atan Silahlı Qüvvələrimiz tarixi ədaləti, öz ərazi bütövlüyümüzü təmin edir. Azərbaycan xalqı qələbələrə sevinir, ermənilər isə məğlubiyyətə düçar olurlar.

Bu gün şanlı ordumuzun düşmənə endirdiyi zərbələrdən qorxuya düşən ermənilər artıq Xankəndindən Yerevana köç edirlər. Bütün cəbhə boyunca ağır itkilər verən düşmən geri çəkilir.

Qeyd edək ki, Tərtər rayonunun strateji əhəmiyyətli ərazisi olan Suqovuşan 1994-cü ildə düşmən tərəfindən işğal edilmişdi. Bu ərazinin işğaldan azad olunması ilə ordumuz mühüm yüksəkliklərə yiyələnmiş oldu. Bu yaşayış məntəqəsi keçmiş Ağdərə rayonu ilə Kəlbəcər rayonu arasındakı şimal yolunun üzərində yerləşir. Buraya yaxın ərazidə ermənilərin əsas hərbi bazalarından biri də yerləşirdi. Suqovuşanın azad edilməsi ordumuzun əks-hücum əməliyyatlarını daha da genişləndirməyə imkan verəcək.

## BMT-nin Avropa İqtisadi Komissiyasının iclasında iştirakçılar Ermənistan tərəfindən Azərbaycan ərazilərində törədilən ekoloji terrorun qətiyyətlə qınanılmasına çağırılıb

Cenevrədə BMT-nin Avropa İqtisadi Komissiyasının Su Konvensiyasının iclası keçirilib. Videokonfrans formatında keçirilən iclasa dünyanın 100-dən çox ölkəsi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) nümayəndələri, Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi qatılıb.

Tədbirin əsas mövzusu suyun mühafizəsi üzrə transsərhəd əməkdaşlığın gücləndirilməsi və suya bərabər çıxışın təmin edilməsi olub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ETSN-in Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Emin Qarabağlı çıxış edərək görüş iştirakçılarını Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanın ərazilərində törədilən ekoloji terror, əhalinin sudan məhrum edilməsi, transsərhəd çayların qabağının alınması və çirkləndirilməsi, su anbarlarının baxımsızlıqdan qəza vəziyyətinə düşməsi ilə ətrafdakı yaşayış məntəqələri və yüz minlərlə əhalinin təhlükə altında olmasından danışıb. O, hər kəsi Ermənistanın ölkəmizə qarşı törətdiyi təcavüz aktlarını qınamağa çağırıb.

Nazirliyin nümayəndəsi qeyd edib ki, BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etsə də, qarşı tərəf bu qətnamələrə məhəl qoymur. Əksinə, onlar işğal olunmuş ərazilərdə cinayətkar və qondarma rejim yaradaraq qanunsuz fəaliyyət göstərirlər.

Beynəlxalq ekoloji ictimaiyyətə müraciət olunaraq, Ermənistanın regiondakı işğalçı siyasətinə, bunun nəticəsində illərlə davam edən ekoloji terrora son qoyulması üçün qətiyyətli tədbirlərin görülməsinə çağırış edilib.

## "Azərişıq" ASC Mətbuat xidmətinin məlumatı

Ölkənin ərazi bütövlüyü uğrunda aparılan müharibəyə dəstək məqsədilə "Azərişıq" ASC-nin rəhbər heyəti bir aylıq maaşlarını Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə ediblər.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb.

# Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın təxribatları ilə bağlı "Russia Today Arabic" kanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Russia Today Arabic" kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.




*- Qarabağda döyüşlərin yenidən alovlanmasının səbəbləri hansılardır?*

- Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bu bölgədə azərbaycanlı mülki şəxslərə hücuma başladılar. Bundan əvvəl Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində cəmləşdirilməsinin şahidi olduq. Həmçinin iyul ayında Ermənistan Azərbaycanla sərhəddə təxribat törətdi. Bundan əvvəl isə Ermənistanın baş naziri danışıqlar prosesini dəfələrlə pozmağa cəhd göstərdi. Gördüyünüz kimi, Ermənistanın çoxlu hərbi təxribatları ilə üzləşirik. Son günlər daha çox belə təxribatların şahidi olduq. Bütün bunlar Azərbaycanı sentyabrın 27-də bu təxribatların qarşısını almaq, vətəndaşlarımızın təhlükəsizliyini və ölkəmizin suverenliyini qorumaq üçün əks-hücum əməliyyatı həyata keçirməyə məcbur etdi.

*- Bu gün hadisələrin gedişini necə qiymətləndirirsiniz? Sizcə, bu, uzunmüddətli müharibənin astanası deməkdir, yoxsa danışıqlara başlamağa gətirib çıxarmaq üçün adi hərbi hərəkətlərdir?*

- İndi bunu demək mənim üçün çətindir. Lakin onu deyə bilərəm ki, hazırda Ermənistan silahlı qüvvələrinin kəndlərimizi və qəsəbələrimizi, eləcə də mülki şəxsləri bombalamasından ciddi narahatlıq keçiririk. Azərbaycan kəndlərinin və qəsəbələrinin artilleriya atəşinə məruz qalması nəticəsində xəstəxanalar və məktəblər dağılıb, mülki şəxslər, o cümlədən uşaqlar həlak olub, müxtəlif infrastruktur obyektləri məhv edilib. Bütün bunlar ermənilərin artilleriya atəşi nəticəsində baş verib. Görürük ki, hadisələr çox təhlükəli istiqamətdə inkişaf edir. Bundan başqa, şəhər və kəndlərimizin təkcə Azərbaycanın işğal altında olan ərazilərindən deyil, həm də Ermənistan ərazisindən birbaşa raket atəşinə tutulmasının şahidi oluruq. Məsələn, ərazimizin raket atəşinə tutulması nəticəsində 20 azərbaycanlı mülki şəxs öldürülüb, onlarla yaralı var.

*- Erməni tərəfi də deyir ki, siz mülki məkanları hədəf seçirsiniz. Hətta bu regionda döyüşləri dünən və bu gün işıqlandıran jurnalistlər arasında da yaralıların olduğu deyilir.*

- Bu, erməni tərəfinin yalanıdır. Biz mülki vətəndaşları qoruyuruq. Ermənistan tərəfindən bu döyüşlər başlananda biz çalışdıq ki, mülki şəxsləri itkilərdən qoruyaq. Dağlıq Qarabağ regionuna gəldikdə isə, Azərbaycan orada heç bir qəsəbəyə, mülki obyektə hücum etmir. Jurnalistlərlə bağlı demək istəyirəm ki, beynəlxalq jurnalistləri bu gün erməni işğalı altında olan ərazilərə səfər etməkdən imtina etməyə çağırırıq. Bu, onların həyatları üçün təhlükəli ola bilər. Dağlıq Qarabağ Azərbaycanın işğal olunmuş torpaqlarıdır. Erməni tərəfi bu torpaqlarda olan jurnalistlərin taleyi üçün tam məsuliyyət daşıyır. Əlbəttə, bu torpaqlarda bütün jurnalistlər üçün təhlükə var. Nəzərə almaq lazımdır ki, erməni silahlı qüvvələri bu döyüşlər ərzində mülki şəxslərdən və jurnalistlərdən insan qalxanı kimi və təbliğat məqsədilə istifadə edirlər. Təbii ki, biz yaralanan jurnalistlərə görə təəssüfləndiyimizi bildiririk.

*- Azərbaycan bu gün Dağlıq Qarabağda atəşkəsin bərpası üçün hansı yolu görür. Siz deyirsiniz ki, bu ərazi işğal olunub. Fikrinizcə, həllə nail olmaq üçün nə tələb olunur?*

- Biz burada səbəb və nəticə prinsipinə əsaslanmalıyıq. Səbəb budur ki, Ermənistan Azərbaycanın bu bölgəsini, ona bitişik rayonları işğal edib. Bu, əsas səbəbdir və regionda sülhə, sabitliyə əsas təhlükədir. Bu, son gərginliklərə də əsas səbəbdir. Bu fəaliyyətlərin nəticəsi isə budur ki, biz sülh danışıqlarını irəli apara bilərik, lakin burada erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını tərk etməsi, işğal vəziyyətinin sona çatması lazımdır. Bu münaqişənin həllinə nail olmaq üçün beynəlxalq hüquqa istinad etmək lazımdır.

*- Lakin Azərbaycan bu dəfə hərbi həll yoluna bel bağlayır. Nə üçün Bakı indi yalnız hərbi həllə bel bağlayır?*

- Mən bu ifadəni dəyişmək istəyirəm. Azərbaycan hücuma və erməni təcavüzünə məruz qalan tərəfdir. Ermənistan işğalçı tərəfdir. Bunu nəzərə almalıyıq. Ermənistan Dağlıq Qarabağı hərbi qüvvələrdən istifadə etməklə işğal edib. Bizim bu regiondan 1 milyondan çox məcburi köçkün və qaçqınımız var. Azərbaycan nəyə dəvət edir? Azərbaycan sülh prosesinə və danışıqlara dəvət edir. Azərbaycan daim danışıqlara sadiqdir. Otuz ildən çoxdur ki, Azərbaycan səbir göstərib və danışıqlar prosesinə hazır olduğunu nümayiş etdirib. Çox təəssüf ki, Ermənistan bundan sui-istifadə edərək özünün işğalçı siyasətini pərdələyir. Buna görə də biz bu gün böyük gərginliyin şahidi oluruq. Bu gərginliklər istənilən vaxt təkrarlana bilər. Buna görə də biz bu münaqişənin əsas səbəblərini aradan qaldırmalıyıq. Söhbət hərbi işğaldan gedir. Buna görə də işğal bitməlidir. Erməni əsgərləri Azərbaycan ərazilərindən geri çəkilməlidirlər. Qarşılıqlı anlaşmaya və yaranmış yeni vəziyyətə görə biz bu münaqişənin davamlı həllinə nail ola bilərik.

Yeri gəlmişkən, Azərbaycan bu gün Dağlıq Qarabağdakı bütün erməni əsilli vətəndaşlara müraciət edərək bildirir ki, biz bu regionda sülhə nail olmağa tam hazırıq. Biz bunu istəyirik. Lakin bunun üçün onların döyüşlərdən və hərbi fəaliyyətdən uzaq qalmaları lazımdır.

*- Siz siyasi həll istəyirsiniz, lakin bu siyasi həll üçün şərtlər qoyursunuz. Dediniz ki, Ermənistan qoşunları Qarabağdan çıxarılmalıdır. Qarşılıqlı olaraq siz Yerevanın irəli sürdüyü şərtləri və tələbləri yerinə yetirməyə hazırsınızmı?*

- Azərbaycan nə deyirsə beynəlxalq hüquqa əsaslanır. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr mövcuddur. Xatırlatmaq istəyirəm ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Bu qətnamələr münaqişənin həlli üçün çərçivə müəyyən edir. Bütün qətnamələrdə deyilir ki, Ermənistan tərəfindən silahlı qüvvələrin istifadəsi qəbuledilməzdir. Bu qətnamələr Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Biz BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş bu qətnamələrin icra olunmasını istəyirik. Bütün bunlar silahlı qüvvələrin geri çəkilməsinə çağırır. Məhz erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasından sonra davamlı sülh üçün şərait yarana bilər.

*- Başqa məsələyə keçək. Bakı Türkiyənin hərbi dəstəyinə nə qədər ehtiyac duyur? Nəzərə almaq lazımdır ki, Silahlı Qüvvələriniz erməni ordusu üzərində üstünlük qazanıb. Türkiyənin Azərbaycana böyük hərbi dəstək verməsi barədə fikirlərə münasibətiniz necədir?*

- Türkiyə və Azərbaycan iki suveren dövlətdir. Bizim aramızda strateji əlaqələr və tərəfdaşlıq var. Biz qardaş xalqlarıq. Lakin bu münaqişədə Türkiyə üçüncü tərəf deyil. Türkiyə bu münaqişədə siyasi, mənəvi və geosiyasi cəhətdən iştirak edir. Söhbət Türkiyənin iştirakını iddia edən erməni təbliğatından gedir. Onlar Azərbaycan mülki şəxslərinə qarşı təxribatlar törədirlər. Biz də vətəndaşlarımızı qorumaq üçün bəzi tədbirlər görməyə məcburuq. Sual Ermənistanadır. Ermənistan bu hərbi fəaliyyət və işğalla bəşəri cinayətlər, mülki şəxslərə qarşı cinayətlər törədir. Ona görə də Ermənistan bu gün bu hərbi fəaliyyətlərə və müharibə əməllərinə görə məsul tərəfdir. Türkiyənin iştirakına gəldikdə isə, bu, sırf siyasi iştirakdır. Təbii ki, Azərbaycanın bu münaqişəni həll etməyə qadir Silahlı Qüvvələri var. Bizim kifayət qədər resurslarımız var. Biz başqa qüvvələri cəlb etmirik. Azərbaycan hər hansı başqa tərəfin iştirakı barədə iddiaları rədd edir.

*- Siz Türkiyə Ordusunun bu döyüşlərdə birbaşa iştirakını inkar edirsiniz. Lakin bu günlərdə Paris və Yerevan muzdluların döyüş meydanına gəlməyindən danışırlar.*

- Mən bu fikri rədd edirəm.

*- Hansı fikri nəzərdə tutursunuz?*

- Mən Türkiyənin iştirakı ilə bağlı iddiaları rədd edirəm.

*- Yaxşı, bəs Paris və Yerevanın başqa muzdluların digər münaqişə regionlarından gəlib burada döyüş meydanında olması fikirləri barədə nə deyərdiniz?*

- Ermənistan Azərbaycana qarşı çirkin təbliğat aparır. Erməni tərəfindən soruşuram: Uzun illərdir ki, erməni tərəfi Suriya və Livan ermənilərini gətirir və onları Azərbaycana, onun Silahlı Qüvvələrinə qarşı muzdlu kimi istifadə edir. Biz müxtəlif radikal erməni təşkilatlarından muzdlu və könüllülərin olduğunu müəyyənləşdirmişik. Hələ 1990-cı illərin əvvəllərində hərbi əməliyyatlar başlayanda Ermənistan Azərbaycana qarşı döyüşlərdə terrorçulardan istifadə edirdi. Siz bu sualı ermənilərə ünvanlayın. Qoy onlar desinlər ki, nə üçün muzdluları göndərirlər.

Fransanın ittihamlarına gəlincə, biz Fransanı vasitəçi tərəf kimi görməli idik. Lakin Fransa bu münaqişənin mahiyyətini dərk etmir. Aydındır ki, Fransa daim erməni tərəfini dəstəkləyir və Ermənistana meyilli olub. Bu gün Fransa seçkilər ərəfəsindədir. Buna görə də bəzi siyasətçilər erməni lobbisinin dəstəyinə nail olmaq istəyirlər. Onlar erməni diasporunun simpatiyasını qazanmaq istəyirlər. Ona görə də onlar Ermənistanın Azərbaycana qarşı apardığı təbliğatda iştirak edirlər. Biz bunu qəbul etmirik. Azərbaycanın muzdlulardan istifadə etdiyini iddia edənlərə demək istəyirəm ki, onlar muzdlulardan istifadə edən tərəfə diqqətlə baxsınlar.

*- Əgər bunu yalnız Yerevan desəydi, bəlkə də sizinlə razılaşa bilərdik. Amma burada dünyanın mötəbər və ermənilərə meyilli olmayan kanalları var ki, onlar cəbhə xəttində olan əsgərlərlə görüşüb müsahibə alıblar. Onlar Suriyadan Türkiyə yolu ilə döyüşdə iştirak etmək üçün gəliblər.*

- Mən burada heç bir məntiq görmürəm. Niyə görə Azərbaycan Suriyadan və Liviyadan hər hansı muzdlunu burada döyüşmək üçün cəlb etməlidir. Bu, qeyri-məntiqidir. Bu, Azərbaycan siyasətinə uyğun deyil. Azərbaycan nəyə görə ehtiyac hiss etməlidir ki, üçüncü dövlətlərdən muzdlular gətirsin. Bizim kifayət qədər qüvvələrimiz, əsgərlərimiz və zabitlərimiz var. Kifayət qədər texnikamız da var. Azərbaycan əsgərləri bu münaqişənin xarakterini bilir və regionu tanıyırlar. Bir gecədə başqa yerdən gətirilən muzdlular düşmən qüvvələri ilə necə döyüşə bilər? Bu, məntiqsizdir. Biz bunu anlaya bilmirik və hesab edirik ki, bu, erməni təbliğatının bir hissəsidir.

*- Hesab edirsinizmi ki, Qarabağdakı bu gərginlikdən öz aralarındakı haqq-hesablarını həll etmək istəyən maraqlı beynəlxalq və ya regional tərəflər var?*

- Birincisi, Ermənistanı ittiham etmək lazımdır. Məhz Ermənistan bu regiondakı gərginlikdən istifadə edən, yararlanan tərəfdir. Ermənistan Soros Fondundan dəstək alır. Soros erməni xalqına çox şey vəd edib. Odur ki, Ermənistan öhdəliklərini yerinə yetirmək istəyir. Ermənistanda iqtisadi vəziyyətin pisləşməsi barədə deyə bilərik ki, bir çox dövlətlərdə inqilab tarixləri bu reallığı göstərir. Digər tərəfdən, görürük ki, Ermənistan, xüsusilə onun yeni müdafiə naziri militarist xarakterlidir, müharibəyə meyillidir. O, Ermənistanın hərbi doktrinasının müəllifidir. Bu doktrinada daha çox müharibəyə çağırış var. Bu, onu göstərir ki, Ermənistan Azərbaycanın yeni ərazilərini ələ keçirmək və sülh danışıqlarında üstünlük qazanmaq istəyir. Bu, qeyri-realdır. Onlar "böyük Ermənistan" siyasətini həyata keçirmək, yeni ərazilər işğal etməklə erməni imperatorluğunu yaratmaq istəyirlər. Bu, Ermənistan hakimiyyətinin həyata keçirdiyi doktrinadır. Bütün bunlar onu göstərir ki, məhz Ermənistan işğaldan yararlanan dövlətdir. Həm də onu göstərir ki, Ermənistan bu münaqişəyə qabaqcadan hazırlıq görüb. Bu, öz-özünə yaranan münaqişə deyil. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən qabaqcadan planlaşdırılıb. Onlar bununla Ermənistan doktrinasını və "böyük Ermənistan" xülyasını reallaşdırmağa hədəflənibləər. Onlar Azərbaycanın mülki vətəndaşlarını hədəfə alıblar.

*- Rusiya, ABŞ və Fransanın həmsədri olduğu Minsk qrupu əvvəllər döyüşləri dayandıra bilirdi. Bəs, bu gün Minsk qrupu nə təklif etməlidir ki, döyüşlər dayansın və tərəflər danışıqlar masasında əyləşsinlər?*

- Son vəziyyətlə bağlı onu deyə bilərəm ki, bu qrupda həmsədr olan dövlətlər də məsuliyyət daşıyırlar. Mən bütün proses barədə danışıram. Minsk qrupu təkcə atəşkəsə deyil, həm də bu münaqişənin həllinə məsuliyyət daşıyır. Münaqişənin həlli üçün hərtərəfli proqram olmalıdır. Təəssüf ki, biz bunu görmədik. Minsk qrupu yalnız tərəflərin fikirlərini bir-birinə çatdırmaqla məşğuldur. Onlar üzərlərinə heç bir məsuliyyət götürmürlər. Bu qrupa üzv olan bəzi dövlətlərə gəlincə isə, onlar Ermənistana meyilli mövqe tuturlar. Biz son vaxtlar bir neçəsinin mövqeyini gördük. Bütün bunlar bu fikirləri təsdiq edir. Minsk qrupunun fəaliyyətinə gəlincə, biz iştirakçı dövlətlərlə əməkdaşlığa açığıq. Onlar dünya birliyinin bir hissəsidir. Minsk qrupunun əsas mandatı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etməkdir. Lakin o, bu qətnamələrin icra edilməsində uğursuzluğa düçar oldu. Buna görə də biz bu gün hərbi gərginliklə üzləşirik.

*- Rusiya dəfələrlə vurğulayıb ki, o, Azərbaycan və Ermənistan arasında orta mövqe tutur. Eyni zamanda, o, bu münaqişəyə son qoymaq üçün istənilən dialoqa evsahibliyi etməyə və ona səy göstərməyə hazır olduğunu bildirib. Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz? Bu gün Moskvadan nə istənilir?*

- Rusiya Azərbaycanın strateji tərəfdaşıdır, Azərbaycana qonşu dövlətdir. Rusiya ilə Azərbaycan arasında yaxşı qonşuluq əlaqələri var. Bu tərəfdaşlıq çərçivəsində Rusiya ilə Azərbaycan arasında bir sıra tədbirlər həyata keçirilir. Həqiqətən biz hesab edirik ki, Rusiya da bu regionda sülh üçün narahatdır. Belə ki, Rusiya da Qafqaz regionuna qonşu dövlətdir. O da bu regionda yerləşir. Bu regionda sülh onun da xeyrinədir. Ona görə də sülhə nail olunmasında maraqlıdır. Qarşılıqlı şəkildə anlamalıyıq ki, Ermənistanın hərbi qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionundan çıxmadan sülhə nail olmayacağıq. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilməlidir. Yalnız belə şəraitdə hamı - Azərbaycan, Rusiya və Ermənistan bundan yararlana biləcək. Ermənistan həmin qətnamələrin tələblərinə əməl etməlidir və uydurma tarixi geosiyasi ambisiyalarından əl çəkməlidir. Biz əməkdaşlığa əsaslanmalıyıq. Lakin çox təəssüf ki, biz bu gün bunun əksini görürük. Ermənistan nifrətə köklənib, ərazilərin ilhaqına və işğala çalışır. XXI əsrdə beynəlxalq əlaqələrdə bu, qəbuledilməzdir.

*- Sonuncu sualım döyüşlərin miqyasının genişlənməsi ehtimalı barədədir. Azərbaycanı və Ermənistanı dəstəkləyən tərəflərin, mövqelərin olduğunu nəzərə alsaq, bu münaqişənin miqyasının genişləndirilməsi məsələsi barədə fikrinizi bilmək istəyirəm.*

- Azərbaycan buna tamamilə qarşıdır. Azərbaycan istəmir ki, bu region xarici aktorlar arasında mübarizə meydanına çevrilsin. Biz regionda sülh və sabitliyi təmin etməliyik. Buna görə də Azərbaycan düşmən tərəfi sülhə məcburetmə əməliyyatında iştirak edir. Ermənistan isə sülh danışıqlarını iflasa uğradır. Uzun illərdir ki, biz Ermənistanın danışıqlar prosesini uzatdığının şahidi oluruq. Buna görə Azərbaycan Ermənistanı sülhə məcbur etmək üçün bir neçə tədbir görür. Amma Azərbaycan hər hansı xarici tərəfin bu hərbi münaqişədə iştirakının əleyhinədir.

## Silahlı Qüvvələrə Yardım Fonduna 120 milyon manatdan çox vəsait toplanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il oktyabrın 1-dək 120 milyon 106 min 408,24 manat, 218 min 680,68 ABŞ dolları, 18 min 341 avro və 5000 min rubl vəsait daxil olub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Təkcə bir ay ərzində - sentyabrın 1-dən oktyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna 6 milyon 691 min 593,07 manat və 5102,8 dollar vəsait yığılıb.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Ordusuna maddi və mənəvi dəstəyini əsirgəməyən hər kəsə dərin minnətdarlığını bildirir.

Xatırladaq ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan vurur.



Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Füzuli rayonunun Horadiz şəhərinin ətrafında qamışlıq-bataqlıq ərazidə yanğın baş verib, 20 hektar sahədə qamışlıq, kol-kos və ağaclıq yanıb. Hadisə yerinə cəlb olunan FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən görülən tədbirlər sayəsində yanğının daha geniş əraziyə yayılmasının qarşısı alınıb.

Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə mərmi düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyekti yanıb. Yanğın zamanı tövlənin içərisində olan 3 baş iribuynuzlu heyvan çıxarılıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Düşmənin atdığı mərmi Ağdam rayonunun Evoğlu kəndində vətəndaşa məxsus təsərrüfat obyektində yanğına səbəb olub. Yanğınsöndürmə qüvvələrinin operativ müdaxiləsi sayəsində obyektin bir hissəsi yanğından mühafizə olunub.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işğaldan azad edilməkdə olan ərazilərimizdə göstərəcəyi xidmətlər

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad edilməkdə olan ərazilərimizdə göstərəcəyi xidmətlərlə bağlı ilkin statistikanı təqdim edir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Silahlı Qüvvələrimizin uğurlu hərbi əməliyyatları nəticəsində işğaldan azad edilməkdə olan torpaqlarımızda öz fəaliyyət istiqamətləri üzrə hər kəsi xidmətləri ilə əhatə edəcək.

**O GÜN UZAQDA DEYİL... QƏLƏBƏ BİZİMLƏDİR!**

# *Hikmət HACIYEV:* "Danışıqlar prosesinin konkret nəticələri olmalıdır"

Azərbaycan həmişə danışıqlar prosesində iştirak edir. Danışıqlar prosesini pozan Ermənistandır. Ona görə də bu müraciətlər, ilk növbədə, Ermənistana olmalıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, danışıqlar naminə danışıqlar artıq hər kəsi taqətdən salıb. Danışıqlar prosesindən konkret nəticə gözlənilir. Ona görə də proses, ilk növbədə, nəticəyönümlü olmalıdır ki, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindəki mövcudluğuna son qoyulsun, Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılsın, BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinin həyata keçirilməsi təmin olunsun. Azərbaycan konstruktivliyini, danışıqlar prosesindəki mövqeyini aydın və birmənalı şəkildə ifadə edib. Hesab edirik, indiki şəraitdə də beynəlxalq ictimaiyyət Ermənistana daha böyük siyasi-diplomatik təzyiq göstərməlidir ki, Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarsın. Bütün bunlar barədə Prezident İlham Əliyev beynəlxalq media kanallarına verdiyi müsahibələrdə də ətraflı məlumat verib.



# *Kamran ƏLİYEV:* "Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycanın Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb"

Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb. Bugünədək 19 mülki şəxs həlak olub. Təəssüf doğurucu hal ondan ibarətdir ki, həlak olan şəxslər arasında da qadınlar və uşaqlar da var. Üç qadın və iki azyaşlı uşaq Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev oktyabrın 3-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün təşkil olunan brifinqdə məlumat verib.

Baş prokuror bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərmi nəticəsində Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlu və ailəsinin dörd üzvü - anası, həyat yoldaşı və övladları həlak olub. Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adamöldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adamöldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Kamran Əliyev diqqətə çatdırıb ki, bu müddət ərzində dinc əhaliyə qarşı törədilən cinayətlərlə bağlı başlanan 12 cinayət işinin 1-i Goranboy, 5-i Tərtər, 3-ü Ağdam, 2-si Füzuli, 1-i isə Cəbrayıl rayonu üzrə başlanıb.

Ümumilikdə sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Yaralanan şəxslərdən 26-sı Tərtər, 10-u Ağcabədi, 14-u Ağdam, 6-sı Füzuli, 2-si Goranboy, 2-si Bərdə, 1-i Daşkəsən, 1-i Xocalı, 1-i isə Cəbrayıl rayonlarının sakinləridir. Xəsarət alanlardan 56-sı kişi, 6-sı qadın, 1-i isə uşaqdır. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 181 ev və 44 mülki obyekt yararsız vəziyyətə düşüb.

Kamran Əliyev bildirib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində törətdiyi təxribatlar həm də hərbi cinayətlərdir. Bu cinayətlərlə bağlı hazırda Respublika Hərbi Prokurorluğunda beş cinayət işi başlanıb və istintaq davam etdirilir.

Qeyd edilib ki, Ermənistan mülki əhalimizə qarşı cinayətlər törətməklə yanaşı, işğal etdiyi ərazilərdə Azərbaycanın sərvətlərini talamaqla məşğuldur. Ermənistanın 1994-cü ildən bugünədək ölkəmizə qarşı təcavüzü davam edir. İşğal olunmuş ərazilərimizdə iqtisadi fəaliyyətlə məşğul olduğu üçün 12 nəfər beynəlxalq axtarışa verilib.

Kamran Əliyev vurğulayıb ki, bundan başqa, Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri Qurqen Alaverdyan barəsində cinayət işinin istintaqı davam edir. O, iki nəfərlə birlikdə Azərbaycan ərazisinə daxil olaraq strateji baxımdan əhəmiyyətli yerləri öyrənmək istəyib. Bu fakt sübut edir ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərində birbaşa Ermənistan silahlı birləşmələrinin, Ermənistan Müdafiə Nazirliyinin əməkdaşları xidmət edirlər.

Baş prokuror qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təxribat törətməkdə məqsədləri mülki əhali arasında qorxu və panika yaratmaqdır. Ermənistan Azərbaycanın ərazilərinə təcavüz edib. Ermənistan rəhbərliyi təcavüzkar siyasətindən əl çəkmir. Erməni silahlı birləşmələri dinc azərbaycanlı əhalinin öz torpaqlarını qoyub getməsini istəyirlər. Onlar hər zaman olduğu kimi, Azərbaycana və vətəndaşlarımza qarşı təcavüzkar siyasətlərini davam etdirirlər.

Diqqətə çatdırılıb ki, 1994-cü ildən bugünədək Azərbaycan vətəndaşlarına qarşı təxribat törədənlər sırasında Ermənistan vətəndaşları olan ermənilər də var. Bu da onu göstərir ki, Ermənistan vətəndaşları başqa ölkə əhalisinə qarşı hücumlar edir. Bununla da onlar Azərbaycan əhalisinin həyatına təhlükələr yaradıb. Ermənistan tərəfi heç vaxt atəşkəs rejiminə riayət etməyib, onlar hər zaman mülki şəxslərə və hərbçilərimizə qarşı cinayətlər törədib. 1994-cü ildə atəşkəs elan olunsa da həmin vaxtdan bugünə qədər yaşayış məntəqələrini və mülki əhalimizi hədəfə alıb.

Atəşkəs imzalanandan - 1994-cü il mayın 12-dən indiyə qədər 398 nəfər Azərbaycan hərbçisi, 31 nəfər mülki şəxs isə qətlə yetirilib. Atəşkəs sazişinin imzalanmasından indiyədək 1038 hərbçi, 69 mülki şəxs yaralanıb. İndiyədək ermənilərin törətdikləri cinayətlərlə bağlı 287 cinayət işi qəsdən adamöldürmə, 625 cinayət işi isə qəsdən adamöldürməyə cəhdlə bağlıdır. 2015-2018-ci illərdə bu cinayətləri törətməkdə təqsirləndirilən iki nəfər Ermənistan vətəndaşı həbs edilib. Onlar uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Həmin işlər üzrə yeddi nəfər axtarışa verilib. Bütün bu faktlarla bağlı prokurorluq orqanları tərəfindən müvafiq cinayət işləri başlanılıb.

Kamran Əliyev əlavə edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini hədəfə alaraq cinayətlər törətməsi əvvəllər də olub. 2016-cı ilin Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən 6 mülki şəxs qətlə yetirilib, 26 nəfər xəsarət alıb. Həmçinin 300-dən çox ev və mülki yaşayış sahəsi yararsız hala salınıb.

Brifinqdə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində həlak olmuş dinc əhali haqqında məlumatlar slayd şəklində nümayiş etdirilib.

# *Prezidentin köməkçisi:* "Xalqımız Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyini yüksək qiymətləndirir"

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri yüksək səviyyədə davam edir. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, qardaş Türkiyə hər fürsətdə Azərbaycana dəstəyini göstərir. Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən ifadə olunan fikirlər Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilir. Hazırda Türkiyənin bu məsələdə Azərbaycana siyasi və mənəvi dəstəyini görürük ki, bu da xalqımız tərəfindən yüksək dəyərləndirilir.

* * *

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransa Prezidenti Emmanuel Makronun son bəyanatlarına münasibət bildirərkən deyib ki, vasitəçilik missiyasını həyata keçirən dövlətlər birtərəfli açıqlamalardan çəkinməlidirlər.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev birtərəfli açıqlamaların verilməsinin danışıqlar prosesinə və vasitəçilik missiyasına xələl gətirə biləcək hal olduğunu qeyd edib. Prezidentin köməkçisi deyib ki, danışıqlar missiyasının mahiyyəti olduğu kimi qalır. Əvvəl Xarici İşlər nazirləri səviyyəsində müəyyən görüşlərin keçirilməsi barədə təkliflər vardı ki, Azərbaycan tərəfi də bu və digər məsələlərə baxa bilər. Amma, ilk növbədə, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi istiqamətində səylər səfərbər olunmalıdır ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulsun və hərbi işğala əsaslanan status-kvo, nəticə etibarilə, sonluğa gətirilsin.

* * *

Ermənistan tərəfində xarici ölkələrdən gətirilən muzdlu döyüşçülərin olması ilə bağlı Azərbaycanda kifayət qədər faktlar var. Əldə olan faktlar, dəlillər Azərbaycanın beynəlxalq tərəfdaşlarına təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, Ermənistan silahlı qüvvələrinin tərkibində Yaxın Şərqdən gətirilmiş terrorçular, muzdlu şəxslər iştirak edirlər. Onlar cəbhənin ön xəttinə çıxarılırlar. Təkcə bu gün deyil, həmişə Ermənistan tərəfdən muzdlulardan, terrorçulardan ölkəmizə qarşı istifadə olunub. Hətta son dövrlərdə bir sıra ölkələrdə, o cümlədən Avropadakı erməni əsilli şəxslərin muzdlu kimi Azərbaycana qarşı döyüşlərdə iştirak etməsi barədə faktlar var. Biz də kanallardan istifadə edərək aidiyyəti ölkələrə müraciət edirik ki, vətəndaşlarına sahib çıxsınlar, onları bu kimi qeyri-qanuni hərəkətlərdən çəkindirsinlər. Xüsusilə də Yunanıstandan və başqa ölkələrdən belə məlumatlar daxil olur. Bir məqamı da onların diqqətlərinə çatdırırıq ki, əgər bu qəbildən olan şəxslər Azərbaycanın işğal altında olan ərazilərində Azərbaycanın mülki əhalisinə, hərbçisinə qarşı silahdan istifadə edərlərsə, onlar beynəlxalq humanitar hüquqa əsasən "kompatant" adını daşıyırlar. Onlar legitim hərbi hədəfdirlər ki, Azərbaycan Silahlı Qüvvələri tərəfindən zərərsizləşdirilməsi istiqamətində bütün addımlar atılacaq.

* * *

Ermənistan Müdafiə Nazirliyi kifayət qədər saxta məlumatlar paylaşır. Bu məlumatların əksəriyyəti fotoşopdur. Onlardan bir necəsini artıq ifşa etmişik.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi deyib ki, guya İrəvan səmalarında dronlar uçurdu, o da fotoşop idi. Sonradan həmin görüntülərin saytlardan və sosial şəbəkələrdən silinməsi ilə bağlı göstəriş verilib.

"Media nümayəndələrimizə müraciət edirik ki, məlumatlara həssaslıqla yanaşsınlar və yalanları ifşa etsinlər. Sözügedən fotoşopları asanlıqla aşkarlamaq mümkündür", - deyə Hikmət Hacıyev qeyd edib.

# Müdafiə Nazirliyi xəbər verir

## Azərbaycan Ordusu dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlər ordumuzun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi ilə bağlı daxil olan çoxsaylı müraciətlərlə bağlı ölkə əhalisinə müraciət edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə bildirilib ki, Azərbaycan Ordusu dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Şəxsi heyətin təchizatı, təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər bu gün də davam etdirilir.

Müraciətdə bildirilib ki, son günlər Azərbaycan Ordusunun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi ilə bağlı xeyli sayda müraciət daxil olur.

Müdafiə Nazirliyi ordumuza göstərilən diqqət və qayğıya görə xalqımıza dərin minnətdarlığını bildirir. Hazırda Azərbaycan Ordusunun hərbi hissələri, xüsusilə də ön xətt bölmələri bütün təminat növləri ilə tam təmin olunub və əlavə yardıma ehtiyac yoxdur. Azərbaycan əsgərinin yalnız xalqımızın mənəvi dəstəyinə ehtiyacı var ki, bu da daim göstərilir.

"Eyni zamanda bildiririk ki, ayrı-ayrı vətəndaşlarımız, təşkilat və müəssisələr Müdafiə Nazirliyinə müraciət etmədən birbaşa hərbi hissələrə gedir və müxtəlif növ yardımlar aparırlar. Bu da bəzi hallarda pərakəndəliyə, şəxsi heyətə çatdırılan ərzaq məhsullarının xarab olmasına və israfçılığa səbəb olur. Ərzaq məhsullarının qida təhlükəsizliyi nəzarətindən keçmədən şəxsi heyətə verilməsi isə hərbi qulluqçuların sağlamlığı üçün ciddi təhlükə yarada bilər.

Bu sahədə fəaliyyətin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və yardımın planlı şəkildə hərbi hissələrə çatdırılması məqsədilə Müdafiə Nazirliyində aşağıda əlaqə nömrələri qeyd edilən müvəqqəti "qaynar xətt" fəaliyyət göstərir: +994 (012) 406-85-43, +994 (070) 946-51-11, +994 (055) 294-15-30", - deyə Müdafiə Nazirliyinin müraciətində qeyd olunub.

## Şəxsi heyət çatışmazlığından əziyyət çəkən düşmən qocaları döyüşə göndərir

"Döyüş əməliyyatları zamanı istər canlı qüvvə, istərsə də döyüş texnikası sarıdan xeyli itki verən Ermənistan silahlı qüvvələri artıq 60-70 yaşlarında olan qocaları da döyüşə göndərir".

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

Polkovnik Vaqif Dərgahlı bildirib: "Belə görünür ki, bu, qadınların ardınca döyüşə qocaları göndərən düşmənin son ehtiyat qüvvəsi olacaq".

## Hərbçilərimizin uğurlu əməliyyatları davam edir

Cəbhədə vəziyyət gərgin olaraq qalır. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib. Bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

* * *

Oktyabrın 3-də gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv artilleriya atəşinə tutulub. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri artilleriya atəşinə tutulur.

Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin hərbi texnikasına sarsıdıcı zərbələrin endirilməsini əks etdirən yeni görüntülər paylaşıb. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoda oktyabrın 3-də səhər döyüşləri zamanı bölmələrimiz tərəfindən düşmənin hərbi texnikasına sarsıdıcı zərbələrin endirilməsi əksini tapıb.







* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin ağır itkilər verməsini əks etdirən yeni görüntüləri paylaşıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoda düşmənin bir neçə tankının bölmələrimiz tərəfindən məhv edilərək sıradan çıxarılmasına dair görüntülər yer alıb.

* * *

Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.

AZƏRTAC xəbər verir ki, hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - 4 ədəd "KAMAZ" və 1 ədəd "QAZ" markalı avtomobillər qənimət kimi ələ keçirilib. Avtomobillərin içərisində erməni əsgərlərinə məxsus geyimlər, müxtəlif ləvazimatlar, rabitə və digər mühüm hərbi vasitələr aşkar edilib. Hərbi texnikaların hamısı işlək vəziyyətdədir.

Qeyd edək ki, daha əvvəl də Ermənistan ordusunun bir neçə hərbi maşını qənimət olaraq ələ keçirilmişdi.

## Azərbaycanın Müdafiə Nazirliyinin təqdim etdiyi videoçarxda ordumuzun və xalqımızın döyüş ruhunun sarsılmazlığı əks olunub

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də səhər saatlarından başlayaraq ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması, düşmənin bu təxribatlarına qarşı bölmələrimizin uğurlu əks-həmlə əməliyyatı, eləcə də xalqımızın igid övladlarının vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müharibəyə tam hazır olması ilə bağlı növbəti videoçarx paylaşıb.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoçarxda əvvəlcə düşmənin yaşayış məntəqələrimizi, dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslər arasında ölən və yaralananların olduğu, əhalinin əmlakına külli miqdarda ziyan dəyməsini əks etdirən görüntülər yer alıb.

Bundan başqa, videoçarxda Azərbaycan Ordusunun əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə düşmənə qarşı həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində düşmənə sarsıdıcı zərbələr vurması qeyd olunub. Həmçinin ölkəmizdə qismən səfərbərlik elan olunması barədə Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən, ölkəmizdə on minlərlə igid vətən övladının düşmənə layiqli cavab vermək, ərazilərimizi işğaldan azad etmək üçün böyük ruh yüksəkliyi ilə ordu sıralarına qoşulduğu diqqətə çatdırılıb.

Videoçarx Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" sözləri ilə başa çatır.

## Cəbhə bölgəsində təbliğat-təşviqat işləri əməliyyat şəraitinə uyğun həyata keçirilir

Sentyabrın 27-də ağır döyüşlərin başladığı ilk gündən cəbhə bölgəsində təbliğat-təşviqat işləri də əməliyyat şəraitinə uyğun təşkil edilərək həyata keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun qazandığı uğurların, döyüşçülərimizin rəşadətinin ictimaiyyət arasında daha geniş təbliği, vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərən hərbi qulluqçuların xalqa tanıdılması sistemli şəkildə təşkil edilir və yerinə yetirilir.

Bu günlərdə Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin, "Azərbaycan Ordusu" qəzeti redaksiyasının əməkdaşları döyüş bölgəsinə ezam edilib. Cəbhəboyu zonada quraşdırılan səyyar mətbəələrdə "Sən qalib gələcəksən!", "Qalibiyyət döyüşü" və "Böyük Qələbə uğrunda" təşviqat vərəqələri, "Azərbaycan Ordusu" qəzetinin xüsusi buraxılışları, bukletlər hazırlanaraq cəbhədə olan şəxsi heyət və cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında yayılır.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən 4 təbliğat-təşviqat qrupu yaradılıb. Həmin qruplar veteranların, ictimaiyyət nümayəndələrinin şəxsi heyət qarşısında çıxışlarını təşkil edir və konsert proqramları təqdim edirlər. Bundan əlavə, səsgücləndirici avtomobillər vasitəsilə Ümummilli Lider Heydər Əliyevin və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuz haqqında çıxışları, hərbi vətənpərvərlik mahnıları və döyüşlər barədə operativ məlumatlar cəbhəboyu zonadakı yaşayış məntəqələrində səsləndirilir, vətənpərvərlik mövzusunda bədii və sənədli filmlər nümayiş olunur.

Bu tədbirlər döyüşən əsgər və zabitlərin mənəvi-psixoloji durumuna müsbət təsir göstərir, döyüş əzmini, qələbə ruhunu daha da artırır, mülki əhali tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanır.

## Müdafiə Nazirliyinin "qaynar xətt" nömrələrində dəyişiklik edilib

Azərbaycan Ordusunun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi ilə bağlı fəaliyyətin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və yardımın planlı şəkildə hərbi hissələrə çatdırılması məqsədilə Müdafiə Nazirliyində müvəqqəti "qaynar xətt" nömrələri aşağıdakı kimidir: +994 (012) 406-85-43 və +994 (012) 406-59-33.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Milli maraqlar naminə əməkdaşlıq

# 50 siyasi partiyadan Ali Baş Komandan İlham Əliyevə tam dəstək





## "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" konfransının iştirakçıları Prezidentin həyata keçirdiyi bütün siyasi, hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bəyan etdilər

Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya rəhbərlərinin iştirakı ilə oktyabrın 3-də Prezident Administrasiyasında "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" adlı videokonfrans formatında görüş keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə keçirilən tədbirdə ölkənin siyasi partiyalarının rəhbərləri bir araya gəlməklə Azərbaycanda yaşanan milli və siyasi həmrəyliyi bir daha nümayiş etdiriblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə erməni təxribatı nəticəsində cəbhə xəttində baş verən döyüşlərdə şəhid olmuş hərbçi və mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından iştirakçıları salamlayan Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev ölkənin mütləq çoxluğu təşkil edən siyasi partiyalarının bir araya gəlməsindən və Prezidentin ətrafında olmalarından məmnunluğunu bildirib.

Administrasiyanın rəsmisi çıxışında cəbhədə yaşanan hadisələr, əldə olunan uğurlar, Prezident İlham Əliyevin mövqeyi, diplomatik müstəvidə qazanılan nəticələr, habelə Ermənistan hökumətinin qeyri-adekvat addımları haqqında geniş söhbət açıb.

Bildirilib ki, müasir tariximizin və haqq mübarizəmizin ən məsuliyyətli və ən qürurlu mərhələsini yaşayırıq. Bu günlərdə milli həmrəyliyə xidmət edən hər bir addım və layihə böyük əhəmiyyətə malikdir.

Ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididir. 2020-ci ildə aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, ilk çağırışla bu il iyulun 15-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşib və birgə dəstək bəyanatı imzalayıblar. Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümüdür. "Həmin bəyanat AZƏRTAC vasitəsilə 8 dilə tərcümə edilib, həmçinin dövlətimizin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə və Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin səfirliklərinə göndərilib", - deyə şöbə müdiri Ə.Vəliyev bildirib.

Son bir neçə ay ərzində siyasi dialoqun bərqərar olunmasında, etibarlı münasibətlərin formalaşmasında və siyasi partiyaların fəaliyyəti üçün dövlət tərəfindən göstərilən dəstək haqqında məlumat verən Ə.Vəliyev mövcud istiqamətdə əməkdaşlığın mütləq davam etdiriləcəyini diqqətə çatdırıb.

Çıxışında parlamentin fəaliyyətinə xüsusi toxunan Ədalət Vəliyev VI çağırış Milli Məclisdə müxalifət partiyalarının təmsil olunmasını ölkəmizdə demokratik münasibətlərin və siyasi dialoqun mövcudluğunu sübut edən əsas göstəricilərdən biri kimi xarakterizə edib.

Sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların bölgələrdə normal fəaliyyətinin təmin olunması üçün şöbə tərəfindən mütəmadi qaydada yerli icra hakimiyyəti başçıları ilə görüşlər keçirildiyi haqqında da məlumat verilib. Qeyd olunub ki, bütün siyasi qüvvələr üçün bərabər şəraitin yaradılması məqsədilə siyasi partiya sədrlərinin fəaliyyətinin təşviqi istiqamətində müvafiq tədbirlər görülür.

Videokonfransa qatılan bütün siyasi partiyaların rəhbərləri çıxışlarında bildiriblər ki, Ermənistanın siyasi hakimiyyəti xalqının diqqətini ölkə daxilindəki sosial-iqtisadi problemlərdən, pandemiyanın yaratdığı sosial çətinliklərdən yayındırmaq məqsədilə cəbhədə təxribat törədib. Bu, bir daha göstərir ki, Ermənistan hökuməti 30 ildir sürən münaqişənin həllində maraqlı deyil. Bu məqsədlə mütəmadi olaraq cəbhə xəttində atəşkəsi pozur. Ermənistan baş nazirinin qəbuledilməz bəyanatları, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi müzakirələrində konstruktiv mövqe nümayiş etdirməməsi, "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatları danışıqların pozulmasında əsas amillərdir.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildiriblər.

Videokonfransın sonunda siyasi dialoqun dəstəklənməsinin ölkəmizdə demokratiyanın inkişafında mühüm rol oynadığını vurğulayan Prezident Administrasiyasının şöbə müdiri Ə.Vəliyev Azərbaycan xalqının ölkə rəhbərliyini daim dəstəklədiyini deyib, həmçinin milli və siyasi həmrəyliyin qorunması üçün bütün lazımi işlərin görüləcəyini vurğulayıb.

Çıxışını dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin "Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik!", "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" fikirləri ilə bitirən Ədalət Vəliyev siyasi partiyaların rəhbərlərinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Qeyd edək ki, "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" adlı videokonfrans formatında keçirilən görüşdə aşağıdakı partiyaların rəhbərləri iştirak ediblər:

1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. Ədalət Partiyası - İlyas İsmayılov
4. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
5. Böyük Quruluş Partiyası - Fazil Mustafa
6. Azərbaycan Xalq Partiyası - Pənah Hüseyn
7. Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə
8. Ana Vətən Partiyası - Fəzail Ağamalı
9. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev
10. ReAL Partiyası - İlqar Məmmədov
11. Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev
12. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova
13. Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər
14. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə
15. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
16. Milli Vəhdət Partiyası - Yunus Oğuz
17. Böyük Azərbaycan Partiyası - Elşad Musayev
18. AĞ Partiya - Tural Abbaslı
19. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov
20. Vəhdət Partiyası - Tahir Kərimli
21. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
22. Milli Cəbhə Partiyası - Razi Nurullayev
23. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
24. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli
25. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
26. Azadlıq Partiyası - Əhməd Orucov
27. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov
28. Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan
29. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov
30. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə
31. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev
32. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
33. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev
34. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli
35. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov
36. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev
37. Milli Həmrəylik Partiyası - Əlisahib Hüseynov
38. Yeni Zaman Partiyası - Musa Ağayev
39. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan
40. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov
41. Milli Konqres Partiyası - İxtiyar Şirinov
42. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov
43. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov
44. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev
45. Birlik Partiyası - Xudadat Xudiyev
46. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov
47. Qorqud Partiyası - Firudin Kərimov
48. Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov
49. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev
50. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu.

## Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkməndən

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi son silahlı təcavüz ilə əlaqədar Sizə yazıram.

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də saat 06:00 radələrində atəşkəs rejimini kobud şəkildə pozaraq iriçaplı silahlardan, minaatanlardan və artilleriyadan istifadə edərək Azərbaycanın Silahlı Qüvvələrinin mövqelərini intensiv atəşə məruz qoyması ilə bağlı xəbərləri oxuduqda çox kədərləndim.

Bu fürsətdən istifadə edərək Azərbaycanın hərbi qulluqçularının Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə zəruri əks-hücum tədbirləri gördüyü bir vaxtda öz dəstəyimi bildirmək istəyirəm.

Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərində faciəvi şəkildə həyatını itirən mülki şəxslərin yaxınlarına başsağlığı verir, yaralananlara şəfa diləyir, eləcə də bir çox evlərə və mülki infrastruktura dəymiş geniş ziyandan hiddətləndiyimi bildirirəm.

Cəbhə xətti boyunca sıx məskunlaşmış mülki ərazilər və qurğular Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən hədəfə alınıb və bombalanıb. Ermənistan silahlı qüvvələri cəbhəboyu yaşayış məntəqələrini bombalamağa davam edirlər.

Aydındır ki, Ermənistanın yaşayış məntəqələrini və mülki insanları qəsdən hədəfə alması 1949-cu il tarixli Cenevrə Konvensiyası da daxil olmaqla, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Mülki əhalinin hədəfə alınması Ermənistanın silahlı qüvvələrinin döyüş planına daxil edilmiş bir taktikadır və 1992-ci ilin fevralında törədilmiş Xocalı soyqırımı da bunun əyani sübutudur.

Ermənilərin iriçaplı silahlardan istifadə etməklə Azərbaycan Ordusunun mövqelərini, mülki şəxsləri və mülki infrastrukturu atəşə tutması Beynəlxalq hüquqa əsasən Azərbaycana qarşı növbəti hərbi təcavüz və güc tətbiqi aktıdır.

Azərbaycan Ermənistanın yeni təcavüz aktına və fəal şəkildə müharibəyə hazırlaşması barədə beynəlxalq ictimaiyyətə dəfələrlə xəbərdarlıq edib. Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qalması regional sülhə və təhlükəsizliyə çox ciddi təhlükə olaraq qalmaqdadır.

BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələri fonunda, dünyanın COVID-19 pandemiyasına qarşı mübarizə apardığı bir vaxtda Ermənistanın hərbi-siyasi rəhbərliyi növbəti avantüraya və hərbi təxribata əl atıb. Ermənistan rəhbərliyi bu hərəkətləri ilə bir daha beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq ictimaiyyətə kobud hörmətsizlik nümayiş etdirib.

Mövcud vəziyyətə və hadisələrin gələcək inkişafına görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq ictimaiyyət tərəfindən razılaşdırıldığı kimi, bütün Dağlıq Qarabağ bölgəsinin Azərbaycana qaytarılmasını və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz evlərinə qayıtmaq imkanını səbirsizliklə gözləyirik.

Mən və Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupu sizin yanınızdayıq və parlamentdə məlumatlandırma işləri aparmağa davam edəcəyik.

*Hörmətlə,*

***Bob BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri***

## Almaniya Bundestaqının deputatları Ermənistanın növbəti təxribatı ilə bağlı bəyanat yayıblar

Almaniya Bundestaqının hakim Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının deputatları - Xarici siyasət komitəsinin üzvü, fraksiyanın Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel və Almaniya-Cənubi Qafqaz parlament qrupunun üzvü Eberhard Qinqer Ermənistanın növbəti təxribatı ilə bağlı bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "1990-cı illərdə Dağlıq Qarabağ uğrunda hərbi əməliyyatlarda 20 mindən çox insan həlak olub və bir milyon insan qaçqın, köçkün düşüb. Bu müharibənin gedişində Ermənistan silahlı qüvvələri Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağla yanaşı, ətraf 7 rayonu da işğal edib. Azərbaycan ərazilərinin işğalı BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsində (822, 853, 874 və 884 saylı) pislənilib.

Vurğulanır ki, beynəlxalq ictimaiyyət hələ də Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edir. Almaniya və Avropa İttifaqı (Aİ) Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır. Onlar həmçinin "Dağlıq Qarabağ respublikası"nın və bu rejimin keçirdiyi qondarma "seçkiləri" tanımır.

## Ermənistan münaqişə zonasında fəaliyyət göstərən jurnalistlərin təhlükəsizliyini və mühafizəsini risk altına atır

*"Ermənistanın Azərbaycana qarşı davam edən hərbi əməliyyatları zamanı həm öz, həm də üçüncü ölkələrin vətəndaşları olan jurnalistləri istismar etmək üçün etdiyi məsuliyyətsiz cəhdlərinə dair xəbərlərin sayı artmaqdadır. Xüsusi narahatlıq doğuran haldır ki, Ermənistan bəzən jurnalistləri və digər media mütəxəssislərini fəal hərbi əməliyyatların getdiyi ərazilərə gətirərkən, onları döyüşçülərdən aydın şəkildə ayırmaq üçün bilərəkdən lazımi tədbirlər görmür".*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada həmçinin deyilir: "Ermənistanın bu məsuliyyətsiz davranışı öz-özlüyündə, onun beynəlxalq humanitar hüquq üzrə üzərinə götürdüyü mülki əhalini və mülki obyektləri hücumların təsirindən qorumaq üçün bütün mümkün tədbirləri görmək öhdəliyinin ciddi şəkildə pozulmasıdır. Bununla, Ermənistan anti-Azərbaycan təbliğatı məqsədilə münaqişə zonasında fəaliyyət göstərən jurnalistlərin təhlükəsizlik və mühafizəsini risk altına atır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xatırladır ki, beynəlxalq humanitar hüquq və BMT Təhlükəsizlik Şurasının 1738 (2006) və 2222 (2015) saylı qətnamələrinə əsasən, silahlı qarşıdurmalardakı jurnalistlər mülki insanlar kimi təsnif edilir və belə olduğundan mülki statuslarına mənfi təsir göstərən heç bir hərəkət etməmələri şərti ilə mülki vətəndaşlara şamil olunan müdafiə ilə təmin edilməlidirlər.

Bu səbəbdən, bütün jurnalistlər, media mütəxəssisləri və əlaqəli şəxslərin maksimum dərəcədə diqqətli olmaları, münaqişə bölgəsindəki mülki statuslarına xələl gətirəcək hər hansı bir əməldən çəkinmələri böyük əhəmiyyət kəsb edir.

Bundan əlavə, nazirlik yuxarıda qeyd olunan BMT qətnamələrinin jurnalist fəaliyyəti üçün çərçivə yaratdığını və silahlı münaqişə vəziyyətlərində işləyən, bu barədə məlumat verən media mütəxəssisləri üçün istinad şərtləri (qaydaları) olduğunu vurğulayır. Xüsusilə bu qətnamələrdə Təhlükəsizlik Şurası bütün dövlətlərin siyasi müstəqilliyi, suveren bərabərliyi və ərazi bütövlüyü, habelə bütün dövlətlərin suverenliyinə hörmət prinsiplərinə sadiq qaldıqlarını təsdiqləyir, şiddət, soyqırımı, insanlığa qarşı cinayətlər və beynəlxalq humanitar hüququn digər ciddi pozuntularını təhrik etmək üçün medianın istifadəsini qınayır.

Jurnalistlərin açıq-aydın şəkildə təsbit olunmuş bu qaydalara riayət etməmələri medianın gərginlik və nifrəti alovlandırmaq üçün istismar olunması risklərini artırır, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı qanunsuz güc tətbiqi nəticəsində yaranan, beynəlxalq humanitar hüququn ciddi pozuntuları ilə müşayiət olunan vəziyyətlərə gətirib çıxarır ki, bu da ərazilərin işğalı və münaqişələrin davam etdirilməsinə səbəb olur.

Jurnalistləri bir daha Azərbaycanın müvəqqəti işğal olunmuş ərazilərinə səfər etməməyə, beləliklə, Ermənistanın onları istismar etməsinə imkan verməməyə, habelə Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərənləri yuxarıda göstərilən tələblərə ciddi şəkildə əməl etməyə, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan hər hansı bir hərəkətdən, o cümlədən Ermənistanın Azərbaycana qarşı qanunsuz qüvvələrdən istifadəsini təbliğ etməkdən çəkinməyə çağırırıq. Bütün bu media nümayəndələrinə, xarici jurnalistlərin Azərbaycanda akkreditasiyası ilə bağlı Azərbaycan Respublikasının qayda və qanunlarına ciddi şəkildə riayət etməyi tövsiyə edirik.

Bundan əlavə, bütün aidiyyəti hökumətlərarası və qeyri-hökumət təşkilatları və institutları, jurnalistlər, media işçiləri və əlaqədar şəxslərin Ermənistan tərəfindən sonuncunun Azərbaycana qarşı hərbi təcavüzündə istismarının qarşısını almaq, bütün jurnalistlərin mülki statuslarına mənfi təsir göstərməmək üçün ciddi şəkildə qayda və qanunlara əməl etmələrini təmin etmək məqsədilə bütün lazımi tədbirləri görməyə çağırırıq".

## Ermənistan və erməni diaspor təşkilatları Azərbaycan və onun mülki əhalisinə qarşı terror fəaliyyəti həyata keçirdiyinə görə beynəlxalq hüquqi məsuliyyət daşıyır

*"Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüzünün qarşısının alınması və təmas xətti boyunca sıx məskunlaşmış mülki vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə həyata keçirdiyi cavab tədbirləri çərçivəsində Ermənistan öz silahlı qüvvələrinin məruz qaldığı ciddi itkiləri kompensasiya etmək niyyəti ilə xarici ölkələrdə yaşayan erməni mənşəli diaspor üzvlərini müvəqqəti işğal altındakı Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş hərbi birləşmələrinə cəlb etmək üçün addımlar atır".*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Azərbaycan tərəfində olan məlumatlara, o cümlədən açıq informasiya mənbələrində yer alan xəbərlərə görə Suriya, Livan, Rusiya, Gürcüstan, Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin vətəndaşları olan minlərlə erməni mənşəli şəxsin döyüşlərdə iştirak üçün işğal edilmiş ərazilərimizə gəldiyi və ya gəlməyə hazırlaşdığı bildirilir.

Bir çox hallarda Ermənistan hökuməti və xaricdə fəaliyyət göstərən erməni diaspor təşkilatları tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində davam edən hərbi əməliyyatlarda iştirak etmək məqsədilə erməni diaspor üzvlərinə Ermənistana təcili gəlmə çağırışları edilir, bu ölkələrdə Ermənistana bilet satışı və yığım məntəqələri təşkil olunur. Bundan əlavə, xeyriyyə cəmiyyətləri və ya qeyri-hökumət təşkilatları statusunda fəaliyyət göstərən bəzi erməni diaspor təşkilatları diaspor üzvlərindən maliyyə ianəsi və digər təchizat materialları toplayaraq Silahlı Qüvvələrimizə qarşı döyüşən silahlı birləşmələrə göndərir.

Nazirlik xatırladır ki, BMT Təhlükəsizlik Şurasının (TŞ) 2178 (2014) saylı qətnaməsinə əsasən "yaşadıqları və ya vətəndaşlıq mənsubiyyəti olan ölkələri tərk edərək terror əməlləri törətmək, planlaşdırmaq, buna hazırlıq və ya həmin əməllərdə iştirak etmək və ya silahlı münaqişələrlə əlaqəli vəziyyətlər də daxil olmaqla terrorçuluq təlimi keçmək və ya almaq məqsədilə digər ölkə ərazisinə səfər edən şəxslər" "əcnəbi terrorçu döyüşçülər" olaraq müəyyən edilir.

Ermənistan və erməni diaspor təşkilatları Azərbaycan və onun mülki əhalisinə qarşı terror fəaliyyəti həyata keçirdiyinə görə beynəlxalq hüquqi məsuliyyət daşıyır.

Eyni zamanda, öz ərazilərində Ermənistanın Azərbaycana qarşı terror fəaliyyətlərinin təşkili və maliyyələşməsinə imkan yaradan dövlətlər üçün də beynəlxalq hüquq və bu dövlətlərin milli qanunvericiliklərinə müvafiq məsuliyyət təsbit edilib. BMT Nizamnaməsinə əsasən, icrası məcburi xarakter daşıyan yuxarıda istinad edilən qətnamənin və BMT Təhlükəsizlik Şurasının 2396 (2017) saylı qətnaməsinin müvafiq operativ bəndlərinə görə, BMT-nin üzvü dövlətlər başqa ölkələrdə davam edən silahlı münaqişələrdə iştirak məqsədilə ərazilərini tərk edən vətəndaşlarına və ya ölkəsində qanuni əsasda yaşayan digər şəxslərin sərhədkeçmələrinin qarşısını almalı və onlara münasibətdə cinayət qanunvericiliyinə uyğun olaraq müvafiq cəza tədbirləri görməlidirlər.

Mənşə ölkələri özlərinin qeyd edilən beynəlxalq və milli qanunvericilikdən irəli gələn öhdəliklərinə əlavə olaraq, həm də nəzərə almalıdırlar ki, onların vətəndaşları olan "erməni terrorçu döyüşçülər" sonradan öz ölkələrinə qayıda biləcəkləri halda, terror təlimi görmüş potensial terrorçu olaraq həmin cəmiyyətlərin təhlükəsizliyi üçün real təhdidə çevriləcəklər.

Bu xüsusda, Azərbaycan tərəfi bütün mənşə və tranzit dövlətlərdən öz vətəndaşlarının Ermənistana artan səfərlərinə xüsusi sayıqlıq nümayiş etdirməsini və sərhədlərdə müvafiq qabaqlayıcı sərhəd nəzarəti tədbirləri görməsini, eləcə də öz əraziləri daxilində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə və Azərbaycanın mülki əhalisinə qarşı terror fəaliyyətinə dəstək və belə fəaliyyətin maliyyələşdirilməsinə imkan verməməsini tələb edir.

Azərbaycan tərəfi həm ikitərəfli, həm də müvafiq beynəlxalq mexanizmlər çərçivəsində hüquqlarından istifadə etməklə beynəlxalq səviyyədə tanınmış ərazilərində və özünün mülki əhalisinə qarşı terror fəaliyyətinin təşkili və maliyyələşdirilməsinin qarşısının alınması və günahkarların ədalət mühakiməsinə verilməsi üçün bütün addımlar atmaqda qətiyyətlidir".

# Vətən müharibəsi zəfərlə başa çatacaq!

Ermənistan ciddi təlaş içərisindədir. Azərbaycan Ordusunun uğurlu əməliyyatları təcavüzkar ölkəni çıxılmaz duruma salıb.
30 ilə yaxındır ki, beynəlxalq təşkilatların qətnamələrini heçə sayan, danışıqlar prosesini müxtəlif bəhanələrlə uzadan Ermənistanın terrorçu rəhbərliyi indi həmin qurumlardan kömək umur və Azərbaycana təzyiq göstərilməsi üçün bəzi dövlətlərə yalvarır. Təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi indiyədək üzərinə götürdüyü öhdəliyə biganə yanaşan Fransa hökuməti Dağlıq Qarabağdakı vəziyyətlə bağlı qeyri-adekvat addım atır. Bu da haqlı olaraq rəsmi Bakının ciddi etirazına səbəb olub.
Siyasətçilər, Milli Məclisin deputatları hesab edirlər ki, Fransa Prezidenti Emmanuel Makronun beynəlxalq mandata zidd olan fikirləri sülhə deyil, balansın pozulmasına yönəlib. Görünən odur ki, Fransa Minsk qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə deyil, daha da qızışdırılmasına, status-kvonun saxlanmasına çalışır.



# İlham Əliyev heç bir güzəştə getməyəcək

## Həmsədr statusunda olan Fransanın Ermənistana havadarlığı Azərbaycanı haqq savaşından çəkindirə bilməz





### "Bizi bu cür səbatsız bəyanatlar qorxuda bilməz"

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini **Rəşad Mahmudov** düşünür ki, Ermənistanın hazırkı baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm şüarı, sülh prosesini tənzimləməli olan ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi Fransanın dövlət başçısı Makronun "Qarabağın yenidən "ələ keçirilməsini" qəbul etməyəcəyik!" kimi səbatsız bəyanatı, ABŞ-da yaşayan erməniəsilli "qədim peşə ustası" Kim Kardaşyanın mənbəyi göstərilməyən paylaşımları trio təşkil edir:

"Bu trio sayəsində bir çox məsələ bizə və dünya ictimaiyyətinə öz çılpaqlığı ilə məlum oldu - beynəlxalq təşkilatların qərəzli mövqeyi, Ermənistanın hərbi siyasi rəhbərliyinin riyakarlığı və bacarıqsızlığı, mənbəyi bəlli olmayan yalanları dünyaya yayma məharətinin iç üzü... Budur erməni xisləti

Bizim haqq işimizi öz qərəzli niyyətlərinə və ehtiraslarına bürüyən Makron kimilər bir daha dünyaya sübut edir ki, onların ədalətdən, həqiqətdən, siyasətdən və sülhdən başqa hər şeydən anlayışları var. Amma bizə məlum oldu ki, onların pozuculuq və səbatsız əməlləri heç vaxt Azərbaycanı öz torpaqlarını işğaldan azad etməkdən çəkindirməyəcək. Bizim yolumuz haqq yoludur, Vətənin müdafiəsi yoludur!

Biz Qarabağ uğrunda Vətən müharibəsi aparırıq və ölkəmizin qüdrətli ordusu Ali Baş Komandanımızın rəhbərliyi altında öz şərəfli missiyasını həyata keçirir. Bizi bu cür səbatsız bəyanatlar qorxuda bilməz!"

Deputatın sözlərinə görə, 30 ildən çoxdur bu problemi çözə bilməyən ATƏT-in Minsk qrupunun, habelə bir çox beynəlxalq təşkilatın səmərəsiz fəaliyyəti bir daha onu göstərir ki, belə qurumların arxasında məhz makronlar, paşinyanlar kimi səbatsız siyasətçilər dayanıbmış. Ermənistan siyasi-hərbi hakimiyyətinin müharibə vəziyyətində ortaya qoymuş olduğu münasibət, eləcə də hər zaman Azərbaycan xalqına çox tanış olan, amma dünya ictimaiyyətinin fikrini çaşdırmaqla öz milli kimliklərinə və əxlaqlarına uyğun bir şəkildə yalan və böhtanlara əl atan kardaşyanlar kimi erməni xisləti gözlədiyimiz reallıq idi: "Nikol Paşinyanın hakimiyyətə gəldikdən sonra qısa müddət içərisində əvvəlcə özünü liberal-demokrat kimi göstərməsi, daha sonra isə Qarabağ məsələsində əsl şovinist simasını, başqa millətlərə qarşı dözümsüz, amansız və qatı millətçilik düşüncələrini ortaya qoyması faktları bizim uzun illər ərzində Ermənistan hökumətindən və xalqından gözlədiyimiz dinc yolun birmənalı şəkildə mənasız və faydasız olduğunu sübut etdi. Nəticədə bizim səbr kasamız doldu və anladıq ki, bu məsələni danışıqlar yoluyla həll etməyin, uzatmağın mənası yoxdur. Bunun yalnız bir yolu var - işğalçıyla güc yolu ilə danışmaq və onu cəzalandırmaq!"

Deputat deyir ki, müharibə yolu məhz paşinyanların və onların havadarlarının maskalanmış simalarını ortaya qoymuş oldu. Azərbaycanı savaşa vadar edən amillərdən biri də məhz belə səbatsız liderin, eləcə də onun həyat yoldaşının silaha sarılması kimi ortaya qoya bildikləri reallıqlar oldu: "Əminliklə deyirəm, gün gələcək ki, biz məlum qonşu dövlətin başında duran bu səbatsız və miskin adama bəlkə də təşəkkür edəcəyik ki, nə yaxşı sən gəldin hakimiyyətə! Nə yaxşı ki, sən gəlib öz xalqını məhvə doğru sürüklədin!"

Fransa Prezidentinin tutduğu mövqeyə gəlincə isə R.Mahmudov qeyd edir ki, Makron son illərin siyasətçisidir və onun belə səbatsız, düşüncəsiz bəyanatı əslində başadüşülləndir. Onun təcrübəsi yoxdur və xüsusilə erməni lobbisinin təsiri altına düşməsi də şəksizdir. Lakin Makron unutmamalıdır ki, Fransa kimi qədim dövlətçilik ənənələri olan böyük bir ölkənin başçısıdır. Sözü ağzında bişirib çıxarmalıdır. Yaxşı olar ki, diplomatik dil və danışıq mədəniyyətini Azərbaycan kimi gənc və müstəqil dövlətin təcrübəli Prezidenti cənab İlham Əliyevdən öyrənsin.

Deputat vurğulayıb ki, bütün bu sərsəm bəyanatlar Azərbaycanı tutduğu yoldan döndərə bilməz. Müharibə Azərbaycan ərazisində gedir və biz torpaqlarımıza təcavüz etmiş düşmənlə vuruşuruq. Əgər kimsə xaricdən müdaxilə etmək barədə düşünürsə, çox yanılır. Bu nə ona, nə Yerevana fayda gətirməyəcək, əksinə, özləri yanacaqlar.

R.Mahmudov sonda ordumuzun uğurlu əməliyyatlarını da dəyərləndirdi: "Bu günlər nə qədər çətin, nə qədər məsuliyyətli günlər olsa da, tarixi günlərdir! Şanlı Ordumuz tarix yazır, şərəfli tarix! Buna qəlbən inanırıq! Biz Ordumuza, onun Ali Baş Komandanına inanırıq. Tarix dəfələrlə sübut edib ki, o yerdə ki, xalqla ordunun və Ali Baş Komandanın sarsılmaz birliyi var, o yerdə zəfər, qələbə, uğur var. Var olsun bu sarsılmaz birlik!"

### "Fransanın mövqeyi bizi qətiyyən düşündürməməlidir"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini **Məlahət İbrahimqızı** da hesab edir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləyən tərəflər olduğu kimi, əleyhimizə fikir səsləndirənlər də var. Fransa Prezidenti Emmanuel Makron demək olar bütün bəyanatlarında işğalçı ilə işğala məruz qalan ölkəni ən yaxşı halda eyniləşdirir. Bu isə düşmənə açıq-aşkar dəstəkdir. Makronun son günlər səsləndirdiyi fikirlər də birbaşa onun ermənipərəst mövqeyindən xəbər verir.

Deputatın sözlərinə görə, məhz bu mövqeyinə görə Fransa həmsədrlikdən uzaqlaşdırılmalıdır: "Bu mövqe təkcə Makronun deyil, Fransa hökumətinin mövqeyidir. Ümumiyyətlə, Fransa həmişə - bütün tarix boyu ermənipərəst mövqedən çıxış edib. Son bəyanat zamanı da o, Azərbaycana qarşı ciddi təzyiqlərin olmasını təklif edirdi. Bununla da özünü növbəti dəfə ifşa etmiş oldu. Fransanın bu mövqeyi bizi qətiyyən düşündürməməlidir".

Deputatın fikrincə, Emmanuel Makron ikinci Ermənistan dövlətinin yaradılmasının tərəfdarıdır. Amma Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan torpaqlarında ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verilməyəcək: "Belə bir məsuliyyətli dönəmdə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın proseslərdə tutduğu mövqeyi birmənalı şəkildə pisləyirik. Fransa Prezidentinin hərbi əməliyyatlar başladığından bəri verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir və neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır. Ona görə də bu ölkə həmsədrlikdən uzaqlaşdırılmalıdır. Düşünürəm ki, Azərbaycan ictimaiyyəti də bu fikri səsləndirən parlamentariləri dəstəkləyir".

### "Fransa həmsədr ölkə kimi açıq-aşkar Ermənistana havadarlıq edir"

Milli Məclisin deputatı, Vəhdət partiyasının sədri **Tahir Kərimli** də həmkarları ilə həmrəydir. Deputat deyir ki, bu gün Azərbaycan haqq savaşı aparır. Lakin bəzi ölkələr işğalçı Ermənistana havadarlıq edirlər. Dünyanı idarə edən bəzi güclər Azərbaycanın haqq işini görmək istəmirlər, öz torpaqlarını azad etmək haqlarına razı ola bilmirlər:

"Uzun illərdir problemin həlli üçün BMT Təhlükəsizlik Şurasından mandat almış və missiyası problemi sülh yolu ilə həll etmək olan Fransa ötən illər ərzində heç bir real addım atmamış, əksinə problemin həlli ötən dövr ərzində daha da mürəkkəbləşmişdi. Bu gün isə Fransa tərəf kimi çıxış etməyə başlayıb. Bununla da işğalçı ölkənin müttəfiqi kimi çıxış etməklə problemin həllinə maneçilik törədir".

Deputatın sözlərinə görə, münaqişənin həlli Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmasından asılıdır və hazırkı vəziyyətdə bu, yeganə şərtdir. Dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin qətiyyətli həlli Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra mümkündür. Fransa Prezidentinin bəyanatı bir daha göstərir ki, bu ölkə açıq-aşkar Ermənistana havadarlıq edir. Bu, ilk növbədə həmsədr ölkə kimi Fransanın götürdüyü öhdəliklərə ziddir".

Tahir Kərimli hesab edir ki, istənilən bəyanat, təzyiq Azərbaycanı yolundan döndərə bilməz. Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi ortadadır. Əməliyyatlar yalnız Prezident İlham Əliyevin yeganə şərtinin yerinə yetirildiyi halda dayandırıla bilər. Ermənistan silahlı birləşmələri Azərbaycan torpaqlarından tam çıxmayınca Azərbaycan Ordusu dayanmayacaq. Bu, Azərbaycanın haqq işidir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Azərbaycan Qarabağda tarixi ədaləti birdəfəlik bərqərar edəcək

Azərbaycan dövləti sentyabrın 27-dən cəbhə boyu həyata keçirdiyi hərbi əməliyyatlarla Ermənistanın təxribatlarına qarşı hansı səviyyədə cavab vermək imkanını bütün dünyaya nümayiş etdirdi. Hər gün cəbhədən sevindirici xəbərlər eşidirik. Düşmənin ön xətti yarılıb, işğal altında kəndlərimiz, o cümlədən strateji yüksəkliklər azad edilib, Ermənistanın həmin ərazilərdəki qüvvələri Azərbaycanın müasir döyüş imkanları ilə ciddi şəkildə sıradan çıxarılıb.



Aktiv yeni hərbi əməliyyatların başlaması birdən-birə baş vermədi. Xüsusən son bir ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ətrafında cərəyan edən proseslərin məntiqi yekunu Azərbaycanın hərbi yolla ərazilərini işğaldan təmizləməsinə gətirib çıxardı. Əlbəttə, rəsmi Bakı problemin danışıqlar yolu ilə həlli prosesindən heç vaxt yayınmayıb və cənab Prezident İlham Əliyev bu istiqamətdə həmişə konstruktiv mövqe nümayiş etdirib.

Lakin Ermənistan rəhbərliyinin yürütdüyü siyasət danışıqların aparılmasını tamamilə mənasız etmişdi. Belə ki, hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verən, formatın dəyişdirilməsindən, separatçı rejimin danışıqlara cəlb olunmasından dəm vuran Ermənistanın baş naziri Nikol Paşinyan daha sonra tarixin ironiyası nəticəsində tutduğu vəzifənin eyforiyasından ruhlanaraq regional siyasətdə köklü dəyişikliklər etmək eşqinə düşdü. Xüsusən son bir ildə onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət, ümumiyyətlə, danışıqların mahiyyətinə və məzmununa uyğun deyil. "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi sərsəm addımlar və nəhayət, bu ilin iyulunda Tovuza hücum etmələri bu ölkə ilə sivil danışıqları tamamilə mənasız hala gətirdi. Bunların davamı kimi avqustda Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, Ermənistanda könüllü hərbi birliklərin yaradılması təsdiqlədi ki, Ermənistan problemin həllində bütün konstruktiv yanaşmalardan uzaqdır. Üstəlik, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləməsi bu ölkənin yeni işğalçılıq niyyətlərindən xəbər verirdi.

Cənab Prezident İlham Əliyev bununla bağlı BMT-ni, ATƏT-in Minsk qrupunun həmsədrlərini zamanında xəbərdar etmişdi. Son olaraq İlham Əliyev BMT-nin Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələri ətrafında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni hərbi təxribata hazırlaşdığı ilə bağlı xəbərdarlıq etmişdi. O cümlədən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüş zamanı kəşfiyyat məlumatlarına əsasən Ermənistanın çox ciddi hərbi hazırlıqlar həyata keçirdiyini, hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşdirdiyini demişdi.

Azərbaycan Prezidenti eyni zamanda başqa bir xəbərdarlığını da edərək bildirmişdi ki, əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Budur, Azərbaycan Ermənistanı sözün əsl mənasında peşman etməkdədir. Erməni mənbələri nə qədər gizlətməyə çalışsalar da, hər gün bu ölkənin şəhər və kəndlərinə saysız-hesabsız əsgər meyitləri gedir, xəstəxanalarda yaralı əlindən yer qalmayıb.

İnsanlıqdan uzaq olan N.Paşinyan erməni ordusunun "intellektual ordu" olduğunu və az qala hər bir erməni əsgərinin qeyri-adi döyüş qabiliyyətinin olması ilə bağlı illüziyalar uydurmağa başlamışdı. Amma reallıqlar nədən ibarətdir. Döyüşlərin getdiyi günlər ərzində bu "intellektual ordu" darmadağın oldu. Erməni əsgərləri silahlarını ataraq döyüş bölgələrini qoyub ağlaya-ağlaya qaçmağa başladılar. 27 il ərzində dağlıq ərazilərin strateji yüksəkliklərində möhkəmləndirdikləri istehkamları və digər mühəndis-texniki qurğuları vasitəsilə müdafiə olunmaqlarına baxmayaraq, qəhrəman Azərbaycan əsgəri düşmənə layiq olduğu yeri göstərdi. Sual olunur: Bu idimi Paşinyanın intellektualları? Bir-birinin ardınca aldığı zərbələrdən sonra bütün dünya ölkələrinin başçılarına yalvarır ki, amandı bizi xilas edin, bizi qırırlar. İşğalçı olduqlarından danışmır, lakin problemə dini don geyindirməyə cəhd edir.

Ermənistanda ümumi səfərbərlik elan olunmasına baxmayaraq, itkilərin əvəzini doldurmaq üçün əsgər tapmaqda çətinlik var. Sıravi ermənilər isə Qarabağ uğrunda döyüşmək arzusundan uzaqdırlar. Erməni mətbuatında guya insanların könüllü şəkildə Qarabağa getmək istəmələri barədə bəhs olunanlar isə yalançı təbliğatdan başqa bir şey deyil. Ona görə Paşinyan 55 yaşına kimi kişilərin ölkədən çıxışına qadağa qoyub. Kişi tapılmadığından ölkənin müdafiə nazirliyi tərəfindən qadın batalyonunun yaradılmasına başlanılıb.

Qeyd etdiyim kimi, bu günlərdə Paşinyanın zəng etmədiyi dövlət və hökumət başçısı qalmayıb. Lakin problemə bələd olan dövlətlər və təşkilatlar yaxşı bilirlər ki, Azərbaycan öz ərazilərinin azadlığı uğrunda mübarizə aparır. Yaxşı bilirlər ki, Azərbaycan 27 ildir kağız üzərində qalan BMT qətnamələrinin, ATƏT-in Minsk qrupu vasitəsilə aparılan danışıqların tələblərinin yerinə yetirilməsi, beynəlxalq hüququn normalarının təmin olunması uğrunda mübarizə aparır. Ona görə hansısa dövlətin və təşkilatın bu günlərdə qeyri-konstruktiv davranışı işğala və işğalçıya dəstək verilməsindən başqa bir şey ola bilməz.

Olduqca sevindirici haldır ki, bu günlərdə biz Türkiyə dövlətinin, o cümlədən Pakistanın, Ukraynanın Azərbaycana möhkəm dəstəyinin şahidi olduq. Lakin Fransa Prezidenti Emmanuel Makronun hərbi əməliyyatların başladığından bəri tutduğu mövqe və verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına ziddir və neytral vasitəçilik missiyasının tələblərinin kobudcasına pozulmasıdır. Münaqişəni sülh yolu ilə həll etmək üçün yaradılmış ATƏT-n Minsk qrupunun həmsədri olan bu ölkənin rəhbərliyinin qərəzli mövqeyi qətiyyən qəbuledilməzdir. Makron bütün davranışları ilə özünə oxşayan Paşinyana elçilik etməklə, daha da çox qan tökülməsinə səbəb olur.

Fransa qədim dövlətçilik ənənələri olan dövlətdir. Lakin Makronun açıqlamaları göstərir ki, o, Avropanın belə bir dövlətinə başçılıq etmək üçün tələb olunan siyasi və mənəvi keyfiyyətlərə malik deyil. Aşağı səviyyəli sarı mətbuatın yaydığı feyk xəbərlərin Fransa kimi ölkənin başçısının dilindən səslənməsi, ilk növbədə, Fransa xalqına başucalığı gətirmir. Sarı mətbuatın xəbərlərinin təbliğatçısı səviyyəsinə enən bir adamın Fransa kimi dövlətə rəhbərliyi təəssüf doğurur. Təbii ki, onun bu addımları həm də Fransada yaşayan ermənilərin gələcək seçkilərdə səsinin alınmasına hesablanıb. Lakin proseslər göstərir ki, Makronun seçildiyi vaxtdan bəri Fransa gərgin daxili problemlərlə üzləşib. "Sarı jiletlilər"in nümayişi buna misaldır. Təbii ki, Makron növbəti dəfə prezident seçilməyəcək, ermənilər isə həmişə olduğu kimi, alət rolunu oynayacaqlar.

Kimin nə deməsindən asılı olmayaraq, Azərbaycan bu gün tarix yazır, dövlət müstəqilliyini möhtəşəm uğurlarla şərəfləndirir. Bütün bunların müəllifi isə Prezident İlham Əliyevdir. Azərbaycanın yolu haqq yolu, Qələbə yoludur. Bu yolun sonu işğal edilmiş bütün ərazilərimizin azad edilməsi və beləliklə, tarixi ədalətin bərpa olunmasıdır. Tanrı Ordumuzu qorusun!!!

***Nəsib MƏHƏMƏLİYEV, Milli Məclisin deputatı***

# Xalqımızın şərəf salnaməsi yazılır

## Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz bizi tarixi torpaqlarımıza hər an daha da yaxınlaşdırır

Bu günlər hər birimizin ürəyi səngərdədir və hərbçilərimizlə birgə döyünür. Ard-arda cəbhədən gələn xoş xəbərlər sanki 30 ilə yaxın düşmən tapdağı altında inləyən torpaqlarımızın azadlıq nəğməsidir. Bu nəğmə Azərbaycan əsgərinin silahından atılan mərmi ilə ifa olunaraq, göylərdə "qisas" deyə hayqıran şəhid ruhlarına da bir salavat duasıdır. Haqq davası üçün düşmənə atılan o mərmidən ətrafa yayılan barıt qoxusu sabah xarı bülbülün ətrini ciyərlərimizə çəkəcəyimizin müjdəsidir.

"Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik" - deyən cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdəliyi ilə düşmənin təxribatlarına cavab olaraq əks-hücum əməliyyatlarına başlayan şanlı ordumuz illərlə həsrətlə boylandığımız, qürurumuzun və şərəfimizin Murov zirvəsinə üçrəngli bayrağımızı sancıb.

Dövlət başçısının bu həssas və şərəfli günlərdə verdiyi müdrik, qətiyyətli qərarlar xalqımız tərəfindən rəğbətlə, coşquyla qarşılanır. Ali Baş Komandanımızın sərkərdəliyi ilə şanlı ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr, uğurlu döyüş əməliyyatları, qazanılmış qələbələr bizi bütün tarixi torpaqlarımıza hər saat, hər an daha da yaxınlaşdırır.

Təcavüzkar Ermənistan isə yenə də terrorçu xislətini büruzə verir. Beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini, yaşayış evlərini və mülki obyektləri intensiv atəşə tutmaqda davam edir. Sentyabrın 27-dən başlanan belə təxribatların əhatə dairəsi getdikcə böyüməkdədir. İşğalçı ölkə Tərtər və Ağdamın mülki obyektlərini, hərbi əməliyyatların olmadığı Şəmkir və Bərdə rayonlarını artilleriya atəşinə tutur. Bunun nəticəsində mülki əhaliyə, yaşayış evlərinə, infrastruktura ciddi ziyan dəyib. Ermənistanın bu cinayətləri nəticəsində onlarca insan həyatını itirib, xeyli vətəndaşımız yaralanıb.

Azərbaycan Ordusu isə Ermənistandan fərqli olaraq mülki əhaliyə deyil, yalnız hərbi obyektlərə zərbələr endirir. Artıq ordumuzun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, strateji yüksəkliklər azad olunub. Bu baxımdan sentyabr ayının 27-ni Azərbaycanın şanlı tarixinin möhtəşəm zəfər gününün başlanğıcı hesab etsək, yanılmarıq. Bütün cəbhə boyu uğurlu əks-hücum əməliyyatı hər kəsi sevindirir. Qısa müddətdə düşmənin bir çox hərbi texnikası, tank və artilleriya qurğusu sıradan çıxarılıb, yüzlərlə canlı qüvvəsi məhv edilib, hərbi qərargahları darmadağın olunub. Rəşadətli və müzəffər ordumuz əməliyyat şəraitinə nəzarəti tamamilə ələ keçirib.

Ermənistanın sülh prosesinə ciddi zərbə vurması, qeyri-konstruktiv mövqeyi ilə danışıqlardan imtina edərək təxribata əl atması onunla sülh dilində danışılmasını mümkünsüz vəziyyətə gətirib çıxardı. Budəfəki təxribatdan sonra artıq düşmənə yerini göstərməyin zamanı gəlmişdi. Aprel qələbəsindən, Günnütün işğaldan azad edilməsindən və bu ilin iyul ayında Tovuz döyüşləri zamanı əldə edilmiş zəfərdən sonra Azərbaycan Ordusunun qələbə çalacağı şübhəsizdir.

Bu gün qüdrətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm zəfər tarixi yazmaqdadır. Cənubi Qafqazın ən güclü ordusu müxtəlif növlərdə müasir döyüş texnikası ilə təchiz edilmiş, müdafiə sənayesini kifayət qədər zənginləşdirmişdi. Hazırda hərbi qulluqçularımız arasında çox yüksək döyüş əhvali-ruhiyyəsi, qələbə ruhu var. Hər birimiz Azərbaycan Ordusuna güvənir və onun şanlı tarix yazacağına əminik.

Bugünkü durum onu göstərdi ki, beynəlxalq hüququn norma və prinsiplərinə zidd siyasət aparan Ermənistanla diplomatik danışıqların heç bir faydası və mənası yoxdur. İmitasiya və riyakar mövqedən əl çəkməyən Ermənistanın siyasi rəhbərliyi dəfələrlə, Prezident İlham Əliyev tərəfindən ən yüksək beynəlxalq tribunalardan faktlarla ittiham edilib, onların faşist xisləti ifşa olunub. Bölgədə sülhə və təhlükəsizliyə rəvac verən, terrora dəstək olan təcavüzkar siyasi rejimə isə ancaq hərbi müstəvidə cavab verilməlidir. Aprel, Günnüt və Tovuz döyüşləri buna ən bariz nümunədir.

Dünya birliyi bilməlidir ki, Azərbaycan haqq mübarizəsi aparır və bu yolda heç bir qüvvə bizə mane ola bilməz. Azərbaycan öz doğma torpaqlarında əks-hücum əməlliyyatları həyata keçirməklə bölgəyə sülh və sabitlik gətirəcəyində tam qərarlıdır.

Bu müharibə həm də təsdiqləyir ki, bizim hər bir vətəndaşımız statusundan və vəzifəsindən asılı olmayaraq düşmənlə ön cəbhədə vuruşmağa hazırdır. Əsgərlərimiz, gizirlərimiz, zabitlərimiz vətən uğrunda, Azərbaycan dövlətinin vahidliyi uğrunda canlarını fəda etməyə hazırdırlar. Artıq dünya Azərbaycanın qəhrəman oğullarının, canından keçən şəhidlərimizin möhtəşəm vətənpərvərliyinin şahididir. Onlar dünyaya sözün əsl mənasında igidlik nümunəsi göstərirlər.

Döyüşlərin getdiyi bir zamanda daha da məsuliyyətli olmaq lazımdır. Hər birimizin üzərinə bu baxımdan mühüm vəzifələr düşür. Bu vəzifə vətənimiz qarşısında borcumuzdan qaynaqlanır. İnformasiya müharibəsində ayıq-sayıq olmalı, ön cəbhədəki əsgərlərimizə dəstək üçün yalnız rəsmi qaynaqlardan alınan xəbərlərə inanmalıyıq.

Bu gün ordumuzun Ali Baş Komandanın rəhbərliyi ilə yazdığı tarix Azərbaycan xalqının illərdir səbirsizliklə gözlədiyi zəfər salnaməsinə çevriləcək. Azərbaycan Ordusu işğal altındakı əzəli və əbədi torpaqlarımızı azad edəcək, ölkəmizin ərazi bütövlüyünü təmin edəcək, şəhidlərimizin qanını yerdə qoymayacaq, onların ruhunu şad edəcək. İnanırıq ki, ordumuz tezliklə bizə tam qələbə xəbərini verəcək. Cənab Prezidentin dediyi kimi: "Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik".

***Günel MƏLİKLİ, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Düşmən bayrağını, silahını, texnikasını ataraq şərəfsizcəsinə qaçır









Xalqımızın qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazılır. Azərbaycan Ordusunun şanlı qələbəsi, igid əsgərlərimizin məğrurluğu hər kəsdə ruh yüksəkliyi yaradıb. Ordumuz, xalqımız qələbəyə köklənib. Böyük Qələbəyə az qalıb.

Siyasət meydanında İlham Əliyev diplomatiyası, lider qətiyyəti qarşısında hər dəfə aciz duruma düşən Paşinyan savaş meydanında da eyni aqibəti yaşayır. Güvəndiyi “yenilməz erməni xətti” Ali Baş Komandan İlham Əliyevin cəsur əsgərləri tərəfindən darmadağın edilir. Cəzasızlıq mühitindən sui-istifadə edib doğma torpaqlarımızda “at oynadan” erməni hərbçisi, qəlbində Vətən eşqi, qələbə əzmi ilə savaşan Azərbaycan əsgəri qarşısında duruş gətirə bilmir.

Qorxudan bağrı yarılıb pərən-pərən düşən düşmən döyüş bayrağını, silah-sursatını atıb qaçır.

Bəllidir ki, döyüş bayrağı hər bir ordunun, hərbi birliyin şərəfi, namusu, qeyrəti sayılır. Amma indi Azərbaycan Ordusu Qarabağda elə bir əzmkar döyüş vəziyyəti yaradıb ki, düşmən bayrağını, “qeyrətini” də atıb qaçmağa məcbur olur.

Budur, İlham Əliyev qətiyyəti, Sərkərdə mətinliyi...

Budur, Azərbaycan əsgərinin vətənpərvərliyi, döyüş əzmi, qələbə ruhu!

Bu döyüşlərdə düşmənin 230-dək tank və digər zirehli texnikası, 250 ədəd atilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 ədəd hava hücumlarından müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan artıq avtomobil texnikası, 1 ədəd S-300 zenit-raket kompleksinin məhv edilməsi, mövqelərini qoyub qaçan Ermənistan Silahlı Qüvvələrinin 193-cü desant həmlə batalyonunun və hava desant komanda birliyinin döyüş bayraqlarının ələ keçirilməsi Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha göstərir.

Aylardır Azərbaycan Prezidenti Ermənistana xəbərdarlıq ünvanlayır və yeganə şərtinə əməl olunmasını tələb edirdi. Amma işğalçı ölkə özünü cəzasızlıq mühitində hiss edərək təxribatlardan əl çəkmədi. Paşinyan Şuşada şərab içib yallı gedərək, həyat yoldaşına hərbi forma geyindirib əlinə silah verərək, Qarabağda qanunsuz məskunlaşdırmanı açıq-aşkar nümayiş etdirərək Azərbaycanı təxribata çəkmək istədi. Lakin 30 ildir münaqişənin sülh yolu ilə həllinə razı olan Azərbaycan yenə Paşinyanın təxribatına uymadı.

Sentyabrın 27-də Azərbaycana qarşı növbəti dəfə hərbi təxribat edən Ermənistan Azərbaycan Ordusunun sürətli əks-hücumu ilə rastlaşaraq çıxılmaz vəziyyətə salındı. Torpaqlarının ərazisinin bütövlüyü uğrunda Vətən müharibəsinə başlayan Azərbaycanı artıq heç kim saxlaya bilməzdi. İndi düşmən qaçır, xarici ölkələrə yalvarır. Torpaqlarımız azad olunana, bütün terrorçu ünsürlər məhv olunana qədər Azərbaycan hərbi əməliyyatları davam etdirəcək. Bizim buna beynəlxalq hüquqda sonuna qədər haqqımız var.

Paşinyan indi anlayır ki, Azərbaycan Prezidentinin son xəbərdarlıqları mənasız deyildi. Əgər İlham Əliyevin yeganə şərtinə əməl edilsəydi, Ermənistan bu acınacaqlı duruma düşməzdi.

Bu günlərdə savaş meydanından gələn xəbərlər hər kəsi qürurlandırır. Azərbaycan Ordusu tarix yazır və əsgərlərimizin xoş müjdələri hər birimizi fərəhləndirir. Bəli, zəfərə çox az qalır. Ali Baş Komandanın dediyi kimi, bu müqəddəs günə yaxınlaşmalıyıq və yaxınlaşırıq.

Təqdirəlayiq haldır ki, bu gün xalqımız öz Ali Baş Komandanına və müzəffər ordusuna birmənalı dəstək nümayiş etdirir, torpaqlarımızın işğaldan tam azad olunacağına yüksək inam ifadə edir. Ordumuzun döyüş ruhu ölkənin bütün gənclərini səfərbər edib. Bu gün on minlərlə gənc könüllü surətdə cəbhəyə getmək, düşmənlə vuruşmaq, günahsız insanların qanını almaq, torpaqlarımızı qaytarmaq, bayrağımızı Şuşada, Xankəndidə, Ağdamda ucaltmaq arzusundadır.

Xalqımızın qəlbi Azərbaycan əsgəri ilə döyünür. Bakıdan səngərə kimi hamı qələbə əhvali-ruhiyyəsindədir. Azərbaycan Ordusu isə şərəfli missiyasını bitirənədək dayanmayacaq. Ali Baş Komandanın söylədiyi kimi, biz öz torpaqlarımızda vuruşuruq. Erməni əsgəri Azərbaycan torpağından rədd olana qədər mübarizəmiz davam edəcək. İlham Əliyevin qətiyyəti və Ordumuzun rəşadəti böyük qələbəni sürətlə yaxınlaşdırır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## Əsgərlərin sırasında olmaqdan məmnunam

Bu gün hər kəsin ürəyi Azərbaycan əsgəri ilə bir döyünür. Cəbhədən gələn sevinc dolu xəbərlər qürur verir, qələbəyə inamımızı artırır.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səfərbərliklə əlaqədar imzaladığı sərəncam ürəyimizdən xəbər verdi. Tibbi xidmət kapitanıyam. Cəbhəyə könüllü yazılanlar sırasında mən də yer aldım. Fikirləşirəm ki, bu gün mən döyüş meydanında daha çox lazımam. Yaralı döyüşçülərə ixtisaslı tibbi yardım göstərmək üçün döyüş meydanında olmaq çox vacibdir.

Artıq bir neçə gündür ki, cəbhədəyəm. İftixar hissi ilə deyə bilərəm ki, əsgər və zabitlərimizdə döyüş ruhu, qələbə əzmi çox yüksəkdir. Nisbətən yüngül yaralananlar ilk tibbi yardımdan sonra dərhal səngərə qayıdıb döyüşlərə davam edir. Bu, çox qürurvericidir. Vətən torpaqlarını erməni işğalından azad etmək, düşməndən layiqli qisas almaq həvəsi ilə alışıb-yanan əsgərlərimizin sırasında olmaqdan çox məmnunam.

***Orxan ABIŞOV,***
***Tibbi xidmət kapitanı, könüllü***

## Naftalan atəş altındadır

Düşmən cəbhəboyu ərazidə yerləşən yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir. Tərtər, Ağdam, Füzuli, Cəbrayıl, Goranboy rayonlarının, eləcə də Naftalan şəhərinin bir sıra kəndlərinin intensiv atəşə tutulması nəticəsində dinc əhali arasında həlak olan və yaralananlar var. Mülki obyektlərə ciddi ziyan dəyir.

Belə yaşayış məntəqələrindən biri də Naftalanın Qaşaltı Qaraqoyunlu kəndidir. Kənd bu günlər ağır artilleriyadan atəşə tutulmuşdur. Atılan mərmilərdən biri kənd sakini, 1951-ci il təvəllüdlü Elbruz Qurbanovun evinə düşmüş və nəticədə onun həyat yoldaşı Şəfayət Qurbanova, gəlini Afaq Əmirova, eləcə də iki nəvəsi - Fidan və Şəhriyar həlak olmuşlar.

Sonrakı günlərdə də kəndin atəşə tutulmasına ara verilməmişdir. Sentyabrın 28 və 29-da atılan 6 mərmidən 5-i boş ərazilərə, biri isə Qaşaltı sanatoriyasının yaxınlığına düşmüşdür. Bundan sonra düşmən daha da azğınlaşaraq şəhər ərazisini intensiv atəşə tutmağa başlamışdır. Belə atəşlərin biri yenə də bir nəfərin xəsarət alması ilə nəticələnmişdir. Şəhərin dairəvi yolunun kənarına düşən mərmi Qaşaltı Qaraqoyunlu kənd sakini 1965-ci il təvəllüdlü Şahvələd Əliyevə xəsarət yetirmişdir.

Düşmən artilleriya atəşlərini davam etdirmişdir. Həmin gün erməni ordusunun müxtəlif vaxtlarda atdığı 3 mərmi Qaşaltı Qaraqoyunlu kəndinə düşmüş, nəticədə iki nəfər kənd sakininin - Füzuli Bədəlovun və Səmayə Babayevanın evinə ciddi ziyan dəymişdir. Həmin vaxt hər iki evdə ailə üzvləri olmadığından insan tələfatı olmamışdır.

Naftalan şəhərinin və onun yaşayış məntəqələrinin Ermənistan ordusu tərəfindən atəşə tutulması davam edir. Lakin əhali bunun təxribat olduğunu yaxşı anlayır və qorxmur. Naftalanlılar Azərbaycan Ordusuna inanır və bilirlər ki, bu təhlükə müvəqqətidir. Çünki böyük Qələbəyə çox qalmayıb.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***




## El bir olanda...

Bu gün xalqımız bütün umu-küsünü, fərqli siyasi baxışları kənara qoyaraq birləşmiş və vahid məqsəd - Qələbə uğrunda bütün imkanlarını səfərbər etmişdir. Hamı ayağa qalxaraq işğal edilmiş torpaqlarımızın erməni tapdağından azad edilməsi uğrunda gedən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevə və ordumuza güvəndiyini bəyan edir.

Mübaliğəsiz demək olar ki, bu birlik, həmrəylik bəlkə də heç vaxt elə səviyyədə olmamışdır. 50 siyasi partiyanın yekdil fikrə gələrək imzaladığı bəyanat bir daha onu göstərdi ki, Vətən, torpaq, ərazi bütövlüyü məsələsi ortaya gələndə yumruq olmağı bacarırıq.

İndi bizim ölkə əhalisi bir neçə gün öncə düşmənin atdığı top mərmisi nəticəsində evi dağılan bir Ağdam sakininin dediyi “Yüz belə ev qurban olsun bir Azərbaycan əsgərinin dırnağına” düşüncəsi ilə yaşayır, qələbəmiz üçün bir iş görməyə, vətəndaşlıq borcunu ortaya qoymağa səy göstərir. Tərəddüd, mənim-sənin psixologiyası aradan qalxıb. Kimi istifadə etdiyi cəbhəyə yararlı avtomobili, kimi ərzaq məhsulları, kimi də geyimlə orduya kömək edir. Milli Müdafiə Fonduna vəsait köçürənlər da az deyil. Ən başlıcası isə, əli silah tutan hər kəs cəbhəyə getməyə, əsgərlərimizlə birlikdə düşmənə qarşı vuruşmağa can atır. Bu məqsədlə onlar yerlərdəki Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət edirlər.

Bu işdə salyanlılar da ön sıradadır. Rayonda gənclər arasında döyüş əhvali-ruhiyyəsi çox güclüdür. Salyan gəncləri şəhidlərimizin qisasını almaq, onların cəbhədəki yerlərini boş qoymamaq üçün ordu sıralarına yazılırlar.

Belə bir deyim var: “El bir olsa, dağ oynadar yerindən, güc bir olsa, zərbi kərən sındırar”. Bu gün Azərbaycan Ordusunun vahid komandanlıq altında əks-hücuma keçərək torpaqlarımızı düşmən tapdağından azad etməsi bir daha sübut edir ki, böyük Qələbəni yaxınlaşdıran səbəblərdən biri də birlikdir!

***Seyran CAVADOV,***
***“Azərbaycan”***



## Böyük təşviş, qorxu və köç

### Ermənilər məğlubiyyətə və Qarabağdan qaçmalarına görə rəhbərlərini günahlandırırlar



Cəbhədə gedən döyüşlər Ermənistana getdikcə daha baha başa gəlməkdədir. Hər keçən gün işğalçı dövlətə hərbi, siyasi-diplomatik və iqtisadi müstəvidə böyük zərbələr dəyir. Buna görə erməni ictimaiyyəti, sosial şəbəkə istifadəçiləri Paşinyandan hesab sorurlar.





Prezident İlham Əliyevin son günlərdə verdiyi açıqlamalar erməni mediasında da yayımlanır. KİV-də yer alan məlumatlardan da görünür ki, onlar ölkələrinin tam məhvə doğru getdiyi, Qarabağın tədricən itirildiyi barədə ortaq rəydədirlər.

### “Azərbaycan əsgəri gəlib Şuşanı boş görəcək”

“İravnuk” qəzeti yazır ki, Azərbaycan Ordusu addım-addım Xankəndiyə yaxınlaşır: “Xankəndini vahimə bürüyüb. Hər gün minlərlə insan buranı tərk edir. Acı həqiqət olsa da, vurğulayaq ki, 30 ildən sonra Azərbaycan Qarabağa yenidən qayıtmağa çox yaxındır. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistanı İlham Əliyev qarşısında kim məğlub duruma saldı? Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı müharibədə uduzur, Paşinyan isə bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir”.

“4rd.am” saytı yazır ki, əhali Xankəndidə, Şuşada təşviş içindədir. İnsanlar evlərini kütləvi şəkildə tərk edirlər: “Əhalinin əsasən üz tutduğu yer Yerevandır. Amma onların Ermənistana üz tutmasına əngəl yaradılır. Gedənlər postlarda saxlanılır. Henrix Aşotyan adlı sakinlə həmsöhbət olduq. Çox əzab, çətinlik çəkdiklərini bildirdilər. Zirzəmilərdə gizləndiklərini dedilər. Qohumunun təkidi ilə Yerevana köç etməyə hazırlaşdığını qeyd etdi. Hakimiyyətin və Qarabağ müharibəsi veteranlarının çağırışına baxmayaraq, gənclər orduya getmək istəmirlər. Onlar müxtəlif bəhanələrlə döyüşməkdən imtina edirlər. Təəssüf ki, bu gedişlə Azərbaycan əsgəri Şuşanı, Xankəndini gəlib boş görəcək”.

### “Qarabağ tədricən boşalır”

“Joxovurd” qəzeti yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan və onun rəhbərliyi qarşısında acizdir: “İlham Əliyev son bəyanatlarında Ermənistanla kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, Ermənistanın sarsıdılması prosesi Qarabağ işğaldan azad olunmayana qədər davam etdiriləcək. Amma Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Yəqin məğlubiyyəti qəbul edib. Bu, daha təhlükəli və vahiməlidir. Hospitallar yaralılarla doludur, əsgər valideynləri çox narahatdırlar”.

Qeyd olunur ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır və bu səbəbdəndir ki, Bakı konkret niyyət və məqsədlər açıqlayır. Amma nəyə görəsə, Paşinyan bu məsələdə hələ də Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək: “Davam edən müharibədə itkilərimiz minlərlədir. Ən acınacaqlısı isə odur ki, Qarabağ tədricən boşalır”.

### “Paşinyan kimi rəhbər üz qarasıdır”

“Panarmenian.net” saytı Qarabağdan hazırladığı reportajda Vardan Qasparyan adlı erməninin açıqlamalarını diqqətə çatdırıb. Hakimiyyətə od püskürən sakin açıq şəkildə deyir ki, Paşinyan niyə Ermənistanı lazımsız müharibəyə sürükləyir: “Paşinyan, Arutyunyan, Qarabağdakı bir çox ailənin adından sizə səslənirəm. Həll edin Qarabağ məsələsini, ölümlər olmasın. Çünki Azərbaycan Ordusu faktiki olaraq Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik”.

Məqalədə Prezident İlham Əliyevin “Ermənistan Qarabağ məsələsində geri çəkilməsə, daha ağır zərbələr alacaq” fikrini diqqətə çatdıran müəllif yazır ki, Paşinyan hökuməti buna qarşı hansısa əks-həmlə edə bilmir: “Paşinyan da Sarkisyanın yolu ilə gedir. Dövləti talamaqla, müharibə aparmaqla bəlkə də cibini doldurur. Paşinyan kimi cəsarətsiz rəhbər Ermənistanın üz qarasıdır”.

### “Ölmək istəmirik”

“4rd.am” saytı Xankəndidə Arutyun Manukyan adlı müharibə iştirakçısının fikirlərini məqalə başlığına çıxarıb. “Diplomatik sferada İlham Əliyevə uduzursan, heç nə demirik. Lakin cəbhədəki məğlubiyyət bizləri ciddi qorxudur, Paşinyan. Çarəsiz qalmışıq. Əldə etdiyim məlumatlara görə, bir neçə gün çəkməz, Azərbaycan Xankəndiyə çatar. Günahsız yerə ölmək istəmirik. Fərq göz qabağındadır”.

Bu arada Ermənistan tərəfində döyüşmək üçün Livandan yüzlərlə “ASALA” terrorçusunun gətirildiyi məlum olub. “Novaya qazeta”nın yazdığına görə, son günlər bu ölkədən 500-ə yaxın etnik erməni Dağlıq Qarabağdakı döyüş meydanına getmək üçün Livanı tərk edib.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!

# Şanlı Azərbaycan əsgəri, Qələbə sənindir!



## Vətən, sənə canımız fəda!

Bu gün gərək
Hər anımız Vətən! - desin.
Qılıncımız, qalxanımız
Vətən! - desin.
Ölənlərin əvəzinə
Qalanımız Vətən! - desin.

Bu gün bütün Azərbaycan Vətən deyir, Qarabağ hayqırır!

Vətən övladları doğma yurd uğrunda çarpışmağa, döyüşməyə, düşmənə qan uddurmağa tələsir.

İllərdir ürəyimizdə yaraya, könlümüzdə qubara çevrilən doğma Qarabağ bizi səsləyir, ana vətən uğrunda canlarını fəda edən müqəddəs şəhidlər qisasa haylayır...

Haydı, igidlər, yolunuz haqq yoludur, irəli!

Ey şanlı Azərbaycan əsgəri, endir yağının başına zərbəni, zəfər sənindir!

### Qarabağa qayıdış inamı zirvələrə daşındı

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması səbrimizi daşıran son damla oldu. Və elə həmin andan etibarən Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına başladı. Çox keçmədən cəbhədən gələn qələbə sədaları milyonların sevincinə, bütün Azərbaycanın şadyanalığına səbəb oldu. Ay-ulduzlu üçrəngli müqəddəs bayraqlarımız azad edilən doğma yurdlarımıza, arxa cəbhədə isə milyonlarla ələ bəzək vurdu. Bayrağımızın vətən torpaqlarına kölgə salması, şah zirvələrdə qürurla dalğalanması hər birimizin qəlbini riqqətə gətirdi, illərlə köksümüzdə sıxılıb qalan həsrəti bir andaca yox eylədi.

Rəşadətli ordumuzun sarsıdıcı həmlələri, zəfərləri milyonlarla qaçqın və köçkünün ürəyində Qarabağa qayıdış inamını zirvələrə daşıdı. İşğaldan azad edilən doğma kəndlərimizin adlarının çəkilməsi qulaqlarımızı oxşadı, ruhumuza dirilik bəxş etdi.

Azərbaycan xalqı çoxdan gözləyirdi bu qələbə müjdələrini. Elə buna görədir ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin haqq savaşına başlamaq əmri xalqımızın sevincinə, igid oğul-qızlarımızın coşqusuna səbəb oldu.

### Biz Vətən uğrunda vuruşuruq!

Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı da vurğuladı ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Hazırda Azərbaycanda qismən səfərbərlik elan edilməsi ilə əlaqədar olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin hərbi hissələrə yola salınması davam etdirilir. Cəbhə bölgəsinə göndərilən gənclər zəfər əzmi ilə yola düşür, tezliklə qələbə ilə dönəcəklərini yüksək inamla bildirirlər.

### Könlüm keçir Qarabağdan

"Vətən bizi çağırır!" deyən minlərlə könüllü vətən övladı da döyüşlərdə iştirak etmək üçün Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edir. Gəncindən, yaşlısından, qazisindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı torpaqlarımıza göz tikib qanımıza susayan erməni vandallarından qisas almaq üçün ordu sıralarına qoşulmaq istəyir.

Hələ iyul ayından etibarən Ermənistan silahlı qüvvələrinin Tovuz rayonuna hücumundan sonra on minlərlə vətəndaşımız könüllü şəkildə ordu sıralarına qoşulmaq istəyini bildirib. Prezident İlham Əliyevin çağırışına səs verən 55 mindən çox vətən övladı işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək üçün arzusunu ifadə edib.

Xüsusilə vurğulamalıyıq ki, təkcə ölkə vətəndaşlarımız deyil, qardaş Türkiyədən, eləcə də digər ölkələrdən xeyli insan Azərbaycanın haqq davasına dəstək olmaq, ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə iştirak etmək üçün ölkə Prezidentinə məktub ünvanlayıb. Dünyanın ən güclüləri sırasında yer alan Azərbaycan Ordusu isə mövcud imkanları ilə düşmən üzərində tam qələbə çalmaq əzmindədir və buna görə də ehtiyat qüvvələrin, könüllülərin müharibədə iştirakına ehtiyac görülmür.

İlham Əliyev müalicə olunan hərbçilərlə görüşü zamanı bir daha vurğuladı ki, Azərbaycan Ordusu kifayət qədər güclü və təchiz edilmiş ordudur: "Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun".

### Bu zəfər tarixdə iftixarla vərəqlənəcək

Bəli, haqqın öz yerini tezliklə tapacağı, ədalətin bərqərar olacağı tarixi bir zamanın astanasındayıq. Bu gün ana vətənimiz Qarabağ uğrunda döyüşən əsgərlərimizin müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni darmadağın etməkdir.

Bütün Azərbaycan xalqı da igid vətən savaşçılarının arxasında dağ kimi dayanıb və tezliklə zəfərin ordumuzun tam qələbə xəbəri ilə yeri-göyü lərzəyə salacağına ürəkdən inanır.

Əminik ki, illər keçəcək, 2020-ci ilin 27 sentyabrından start götürən bu tarixi qələbə günləri xalqımızın Qarabağ zəfəri kimi min illərin o üzündə iftixarla vərəqlənəcək. Gələcək nəsillər haqq işimizdə qazandığımız bu qələbə ilə, canlarını fəda edən qəhrəmanlarımızla qürurlanacaq, fəxr edəcək...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Yuvam Vətən torpağı, olmayacaq ortağı!

### Bu fikirlər ön cəbhəyə könüllü gedən vətənpərvər gənclərimizin müqəddəs andına çevrilib: "Oğul odur el başına and içə"

Bəlkə də belə çağırışlar ilk baxışdan bir qədər pafoslu səslənə bilər. Amma Dədə Qorqud boylarından da bilirik ki, Vətənin dar günlərində ona oğulluq edən igid ərənlərimizin yağı düşmən üzərinə gedəndə bir əlində qılınc, birində saz olub.

Bu gün də xalqımızın vətənpərvər oğulları düşmən üzərinə yeriməyə-yürüməyə hazırdır! Döyüşən ordu sıralarına könüllü yazılmaq üçün hərbi qeydiyyatda olduqları Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölmələrinə kütləvi şəkildə müraciətləri isə xüsusi qürur doğurur!

Şahidi olduğumuz mütəşəkkillik, həmrəylik bir daha göstərir ki, xalqımız Qarabağımızı - ulularımızın bizə miras qoyduğu maddi-mənəvi sərvətimizi işğaldan azad etməyə hazırdır!

Təcavüzkar Ermənistan 30 ilə yaxındır nəinki tarixi, əzəli torpaqlarımızı işğal altında saxlayır, üstəlik, yeni ərazilərimizi zəbt etmək tamahı ilə cəbhə xəttinə yaxın yaşayış məntəqələrimizi, mülki vətəndaşlarımızı, eləcə də ictimai əhəmiyyətli obyektlərimizi atəşə tutur. Bu, sadə dillə desək, erməni harınlığının, daşnakların insanlığa sığmayan vəhşiliyinin son həddidir ki, ordumuz tərəfindən tutarlı, sanballı cavabını almaqdadır.

#### Ermənilərin "şıltaqlığı", yaxud ermənisevdalıların ikiüzlülüyü

Azərbaycan Prezidentinin xalqa müraciətində qeyd edildiyi kimi, Ermənistan layiqli cəzasını almağa məhkumdur: "Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir..."

Bu il iyul ayının ortalarında dövlət sərhədlərimizi Tovuz istiqamətindən pozan Ermənistan təxribat törətdi və layiq olduğu şəkildə də cəzalandırıldı. Gözləmək olardı ki, beynəlxalq birlik bu təcavüzün qarşısını almaq üçün, nəhayət, hərəkətə keçəcək. Təəssüf ki, 1994-cü ildən atəşkəs haqqında saziş imzalansa da, hələ də birtərəfli şəkildə Ermənistan tərəfindən pozulmaqdadır. Beynəlxalq birliyin, xüsusən də sülh danışıqlarında vasitəçilik missiyasını yalnız kağız üzərində daşıyan, əslində təcavüzkarla ərazisi işğala məruz qalan tərəfi bir-birindən ayıra bilməyən ATƏT-in Minsk qrupu həmsədrlərinin "ermənilərin şıltaqlığı"na göstərdiyi susqunluq, yaxud ikiüzlülük özünü yenə də gizlətmədi.

Bu qanlı hadisələrdən hiddətlənən Azərbaycan gəncliyi isə düşmənə öz yerini göstərmək üçün döyüşən ordumuzun sıralarına könüllü yazılmaqla bir daha Ali Baş Komandanın hər əmrinə hazır olduqlarını nümayiş etdirdi.

Bakı şəhəri B.Sərdarov adına Binəqədi Maşınqayırma Zavodunun sex rəisi, Qarabağ müharibəsi veteranı Müzəffər Əliyev oğlu Elçini könüllü olaraq ordu sıralarına yola salan ata və yurdu dağıdılan məcburi köçkünlərimizdən biridir. Fikirləri aydın, inamı qətidir: "Ali təhsil alıb Bakıda yaşasam da, könüllü olaraq Kəlbəcərin mühasirə illərində düşmənlə üz-üzə döyüşənlərdən, son anlarda isə mühasirəni birtəhər yarıb çıxanlardan biriyəm. Danılmaz faktdır ki, o vaxtlar vətənpərvərlik olsa da, hərbi texnika və sursatımız, bunlardan başqa, iqtisadiyyatımız, ordumuz indiki kimi güclü deyildi. Bu gün isə qüdrətli ordusu olan Azərbaycan əsgərinin düşmənə layiq olduğu cavabları verdiyinin şahidiyik! Ali təhsilli oğlanlarım Eminlə Elçin Əliyevlər həqiqi hərbi xidməti Murov istiqamətində keçiblər. O yerlərə qarış-qarış bələddirlər. Bu gün Elçin könüllü olaraq ordu sıralarına yenidən yollanır. İnanıram ki, belə vətənpərvərlərimizlə biz Qarabağımızı azad edəcək, ata-baba yurdlarımızı daşnak quldurlardan təmizləyəcəyik".

#### Milli Ordumuz zəfər salnaməsi yazır

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ rayon bölməsindən oğlunu ordu sıralarına yola salan atalardan biri də Mirzə Cabbarovdur. Doğulduğu Qubadlının 30 ilə yaxındır ki, həsrətini çəkən ata bu intizara son qoyacaq Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin düşmən üzərində qələbə əzmini artıran inamlı, qətiyyətli siyasətini alqışlayır. Deyir ki, Ali Baş Komandan İlham Əliyevin bugünkü hərbi-siyasi mübarizəsi xalqımız tərəfindən birmənalı şəkildə dəstəklənir. Bu da başlanılan haqq işimizdə ən mühüm amil, xalq-dövlət və ordu birliyi deməkdir: "Gənclərimizin göstərdiyi vətənpərvərliyi də bura əlavə etsək, tezliklə öz doğma torpaqlarımıza qayıdacağımız şəksiz, qaçılmazdır. Düşmənə cavab verməyə başladığımızdan heç bir həftə keçməyib, artıq ermənilərin hərtərəfli itki ilə üzləşməsi Milli Ordumuzun zəfər salnaməsi yazacağına xalqımızın inamını qat-qat artırmaqdadır. Ona görə də hərbi çağırışçılardan başqa, ordu sıralarında döyüşmək üçün müraciət edən gənclərimizin sayının hər gün artması məndə fəxarət hissini gücləndirir! Qürur duyuram ki, nişanlı oğlum da öz həmyaşıdları kimi, Vətən müharibəsində müqəddəs borcunu verməyə hazırdır. Anası Sevdaya, II qrup əlil qardaşı Fəridə söz verib ki, düşmən üzərində qəti qələbə çalmadan geri dönmək yoxdur! Yolu açıq olsun belə oğulların! Qürur duyuram ki, qismən elan edilən səfərbərlikdən öncə də vətənpərvər oğullarımız döyüşmək üçün könüllü olaraq ordı sıralarına yazılır".

Müsəlləh əsgər kimi ordu sıralarına yola salınan oğullardan biri də Xəyal Qurbanovdur, Mingəçevir şəhərində dünyaya göz açsa da, atası Elbrus Qurbanov şəhid qardaşıdır. Əsgər atasının qənaətincə, bugünkü ruh yüksəkliyi bir daha onu göstərir ki, xalqımız işğal olunmuş ərazilərimizi düşməndən azad etmək üçün ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla qürur duyur. Ümumi qələbəmiz naminə nəbzi Vətənlə döyünən Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qismən səfərbərliklə bağlı sərəncamını yüksək əhvali-ruhiyyə ilə qarşılayır: "Çoxmillətli ölkəmizdə hər kəs bu gün Vətənin müdafiəsini özünə mənəvi borc bilir. Hər bir çağırışçının dilində əsas şüar bunlardır: "Biz birlikdə güclüyük!", "Biz zəfər çalacağıq!" Çünki bizim işimiz haqq işidir. Vətən sevgisi, yurd təəssübü milli mənlik şüurunun təməl daşlarıdır!"

#### Haydı, irəli, Azərbaycan əsgəri!

Dili bu cür xeyir-dualı valideynlər az deyil. Yusif Alışov da öz oğlu İlkini Vətənin çağırışı ilə ordu sıralarına yola salanda ona qeyrətini silaha çevirməyi tapşırıb: "Bu günlərdə sarsılmaz xalq-ordu birliyi, həmrəyliyi nümayiş etdirən vətəndaşlarımız cəsur oğullarını Azərbaycan Ordusu sıralarına təntənə ilə yola salmaqdadır. Cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatı həyata keçirərək düşmənə sarsıdıcı zərbələr vuran Azərbaycan Ordusunun sıralarına qələbə əhvali-ruhiyyəsi ilə yola düşən oğullarımızla fəxr edirik. Televiziyalardan eşidir və görürük ki, düşmən tərəfinin döyüşə, ön cəbhəyə göndərməyə gəncləri yoxdur. Fərarilik ermənilərin qorxaqlığını göstərir. Erməni anaları Paşinyan hakimiyyətinə etirazlarını bildirir və oğullarını ordu sıralarına göndərməkdən qorxurlar. Bu, bir də onu göstərir ki, Ali Baş Komandan İlham Əliyevin son günlər beynəlxalq aləmə, o cümlədən Ermənistana ünvanlı müraciəti öz təsirini göstərir. Bəli, erməni əsgəri ölmək istəmirsə, ona zorla verilən silahı yerə atıb bizim orduya təslim olsun. Bundan da yaxşı humanistlik olarmı? Yox! Erməni silahlılarının başında duranlar insan, xüsusən uşaq qatilləridir. Ordumuza gücü çatmadığından başlayıblar cəbhə boyu kəndlərimizi, şəhərlərimizi atəşə tutub, insanları, mülki obyektləri hədəfə almağa. Bu, onların son nəfəsdə olduqlarını, ordumuzun gücü qarşısında acizliklərini göstərir".

Valideynlərin, eləcə də gənclərin yaxın-uzaq qohum-əqrəbalarının izdiham və sevgi ilə yolasalma tədbirlərində iştirakı xalqımızın ordumuza və Ali Baş Komandana böyük inamıdır! Bu gün hamının bir istəyi var: torpaqlarımızı düşmən tapdağından azad etmək!

Bəli, öz övladını Vətən müharibəsini qələbə ilə başa vurmaq üçün döyüşən ordu sıralarına könüllü yola salan ölkə vətəndaşlarının ürək sözlərindən də bunu duymaq çətin deyil. İnşallah, tezliklə üçrəngli bayrağımız Şuşada, Laçın və Kəlbəcərdə, Ağdam və Füzulidə, Cəbrayıl və Zəngilanda, nəhayət, Xankəndidə dalğalanacaq ki, bu, həm də Xocalının, Ağdabanın, Bağanis Ayrımın, Qaradağlı və digər kəndlərin qisasının alınması deməkdir!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## "...Müsəlləh əsgərəm mən də bu gündən"

Düşmən olsan da belə hər şeyin həddi, hüdudu var. Tarix sübut etmişdir ki, bu hüdudu gözləməyənlərin aqibəti faciə ilə başa çatır. Faşist Almaniyasının başında durub dünyaya ağalıq etmək iddiasında olan Adolf Hitler də ağlagəlməz müharibə cinayətlərinə sərəncam vermişdi, amma aqibəti hamıya məlumdur.

Neyləyəsən ki, bəşər sivilizasiyasının bu çağında - XXI əsrdə, insan şüurunun, intellektinin pik nöqtəyə çatdığı indiki zamanda belə hallar qalmaqda davam edir. Özü də bu qədər iyrənc bir şəkildə, müasir dünyanın gözləri qarşısında. Özlərinə rəva bilmədiklərini Azərbaycan xalqına rəva görən dünyanın güc mərkəzləri, aparıcı dövlətləri isə Ermənistana "dur" demədilər.

30 ilə yaxındır ki, Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağ mənfur erməni qoşunlarının tapdağı altındadır. Vandallar həmin ərazilərimizdəki tarixi abidələrimizi, məscidlərimizi, qəbiristanlarımızı, mədəniyyət ocaqlarımızı söküb dağıdır, təhqir edir, yaşayış yerlərinin adını dəyişirlər. Məhv etdiklərini edir, qalanını da öz adlarına çıxırlar. Onlar bir sıra xarici şirkətləri işğal etdikləri ərazilərə dəvət etməklə təbii sərvətlərimizi talayıb aparırlar. Xaricdə yaşayan erməni lobbilərinə, digər havadarlarına arxalanan Ermənistanın hakim dairələri get-gedə azğınlaşır, məsuliyyətsiz, sərsəm bəyanatlar verir, dünyanı öz yalanları ilə çaşdırmağa çalışırlar.

Sentyabrın 27-də səhər saat 6 radələrində ərazilərimizi atəşə tutan mənfur düşmən bizi Vətən müharibəsinə qalxmağa məcbur etdi. Yüksək səviyyədə hərbi hazırlığı olan Azərbaycan Silahlı Qüvvələri müxtəlif istiqamətlərdə əks-hücuma keçdi. Özünü məğlubedilməz ordu kimi qələmə verən erməni silahlıları sarsıdıcı zərbələrdən geri çəkilməyə başladılar. Düşmənin çoxlu sayda müxtəlif atəş nöqtələri susduruldu, texnikası sıradan çıxarıldı, canlı qüvvəsi məhv edildi, bir sıra yaşayış məntəqələrimiz, strateji əhəmiyyətli yüksəkliklər alındı.

Qarabağın işğaldan azad olunmasına başlanması hamıda böyük ruh yüksəkliyi yaratdı. İndi hər bir gənc, ehtiyatda olan hərbi mükəlləfiyyətli vətəndaşlarımız döyüşə girmək, Vətənin müdafiəsinə öz payını vermək istəyir. Belə gənclərdən biri də Salyan rayonunun Şorsulu kənd sakini Qubad Cavadovdur. O, bir il öncə əsgəri borcunu yerinə yetirərək dədə-baba ocağına qayıdıb. Zəhməti, alın təri ilə təsərrüfat qurub, ev tikməyə başlayıb. Arzuları böyükdür. Öz təsərrüfatını genişləndirmək, ailə qurmaq haqqında fikirləşir. Dövlət başçısının qismən səfərbərlik haqqındakı sərəncamı on minlərlə gəncimiz kimi, Qubadın da ürəyincə oldu. "Vətən olmasa, ev-eşik, yurd-yuva da olmaz!" deyib Vətənin müdafiəsinə yollandı. Təkcə Qubad deyil, Şorsulu kəndinin digər gəncləri də bu ruhdadır.

Bu vətənpərvərlik hissini bütün rayonlarımızda, qəsəbə və kəndlərimizdə görmək olar. Gənclərimiz də, onları cəbhəyə yola salan valideynlər də Vətənin çağırışına böyük coşqu ilə cavab verirlər. O cümlədən Ierikli gənclər böyük ruh yüksəkliyi ilə cəbhəyə yola düşürlər. Şaiq İbrahimov Aprel döyüşlərinin iştirakçısıdır. Vətənin çağırışına səs verərək cəbhəyə getməyi özünə borc bildiyini söyləyən Şaiqi, oğlu Azər Quliyevi ötürməyə gələn Şəhla ananı və onun kimi onlarca valideyni görəndə Qarabağ savaşında qələbənin bizim olacağına heç bir şübhə qalmır. Bəli, doğrudan da, biz birlikdə güclüyük!

***Seyran CAVADOV, "Azərbaycan"***

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi başlayıb

## Ərazi bütövlüyümüz mübahisə predmeti deyil

Azərbaycan Respublikası bu gün mürəkkəb, həm də şərəfli bir tarix yaşayır. XX əsrdə ikinci dəfə öz müstəqilliyini bərpa edən Azərbaycan xalqı təəssüf ki, bədnam ermənilərin dövlətimizə qarşı təcavüzkar, işğalçı əməlləri ilə üzbəüz qaldı.

Xatırlatmaq istərdim ki, ermənilər daim öz havadarlarının dəstəyi ilə Azərbaycana qarşı ərazi iddiaları, deportasiya, terror, soyqırım əməllərini həyata keçirməklə məşğul olmuşlar. XIX əsrin əvvəllərində Azərbaycan torpaqları çar Rusiyası və İran Qacarlar dövləti arasında bölündükdən sonra Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülən ermənilər türk-müsəlman əhalisi üçün bəlaya çevrildi. Müstəmləkəçilik siyasətini həyata keçirmək məqsədilə ermənilərdən bir vasitə kimi istifadə edən çar Rusiyası onları tarixi Azərbaycan torpaqlarında, o cümlədən Qarabağda məskunlaşdırdı.

1918-ci ildə xarici ölkələrin dəstəyi ilə Azərbaycan torpaqlarında ermənilərə öz dövlətlərini yaratmağa imkan yaratdılar. Həmin dövrdə hiyləgər ermənilər Azərbaycanın Qarabağın dağlıq hissəsinə iddia etməyəcəklərini bildirmişdilər. Ancaq erməni ikiüzlülüyü bütün dövrlərdə özünü büruzə vermişdir. Sovet dövlətinin yardımı və dəstəyi ilə Azərbaycan ərazisində muxtar vilayət yaratmağa nail olan ermənilər XX əsrin 20-ci illərində Azərbaycanın bir sıra ərazilərini də ələ keçirdilər. Demək olar ki, Azərbaycan SSR-in mövcudluğu dövründə ermənilərin respublikamıza qarşı ərazi iddiaları dayanmamışdır. 1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiya edilməsi də ermənilərin məkrli siyasətinin davamı idi.

Ötən əsrin 80-ci illərinin sonunda keçmiş SSRİ məkanında baş verən hadisələr, nəticədə bu totalitar dövlətin dağılması ilə Azərbaycan öz müstəqilliyini bərpa etməsi mühüm tarixi hadisə idi. Ancaq ermənilər bu dövrdə baş verənlərdən yararlanaraq ölkəmizə qarşı yenidən öz məkrli niyyətlərini həyata keçirməyə başladılar. Nəticədə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğala məruz qaldı. Onlar Qarabağda qondarma ikinci erməni dövlətinin yaradıldığını elan etdilər. Təəssüf ki, bu problemi həll etmək məqsədilə yaradılmış Minsk üçlüyü problemi həll etmək əvəzinə təcavüzkarı dəstəkləmək, şirnikləndirmək yolunu tutdu. Azərbaycan dövlətinin regionda sülhə nail olmaq üçün atdığı humanist addımlar heç bir nəticə vermədi.

Bu günlərdə Azərbaycan xalqı öz torpaqlarını işğalçı erməni qüvvələrindən azad etmək üçün Vətən müharibəsinə qalxdı.

Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanda ikinci bir erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini dəfələrlə bəyan etmişdir. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin mübahisə predmeti olmayacağı dəfələrlə dövlətimizin başçısı tərəfindən elan olunmuşdur. Öz havadarlarına arxalanan ermənilər Azərbaycana qarşı bu gün işğal əməllərini davam etdirirlər. Lakin Ali Baş Komandanın əmri ilə şanlı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün mübarizəyə qalxmışdır.

Bu gün cəbhədə gərgin döyüşlər gedir. Bütün xalq ordumuzu, Prezidentimizi dəstəkləyir, sarsılmaz həmrəylik nümayiş etdirir. Əsgərlərimizin cəbhədə qazandığı uğurlar Azərbaycan vətəndaşlarını ruhlandırır, torpaqlarımızın erməni işğalçılarından azad olunacağına inamı daha da gücləndirir.

Azərbaycanda fəaliyyət göstərən 52 siyasi partiyanın 50-nin sentyabrın 27-də verdiyi bəyanat cəmiyyətin həmrəyliyinin təcəssümüdür. Bütün xalq Prezident İlham Əliyevin apardığı siyasətin təzliklə müsbət nəticə verəcəyinə möhkəm şəkildə inanır, dövlət başçısının yeritdiyi daxili və xarici siyasəti dəstəkləyir. Azərbaycan xalqı inanır ki, dövlətimiz yaxın müddətdə ölkəmizin ərazi bütövlüyünü tam təmin edəcək, Ermənistan təcavüzkarlığına son qoyulacaq.

Azərbaycan əsgərinə eşq olsun!

Azərbaycanın müstəqilliyi əbədi və dönməz olacaqdır.

***Vəkil HƏSƏNOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor***

## Erməni təbliğatının süqutu

Müasir müharibələrdə düşmənlə üzbəüz döyüşdə qalib gəlmək nə qədər asan deyilsə, informasiya savaşında da bütün dünyanı hörümçək toru kimi bürüyən erməni təbliğat maşınını çökdürmək bir o qədər çətindir. Müharibə bitəcək, Qafqaza sülh gələcək, lakin faşist ideologiyası ilə zəhərlənən erməni təbliğat maşını əbədi düşmən axtarışından, sonsuz qisas hissindən əl çəkməyəcək.

Bu gün işğal altındakı torpaqlarımızda nəfəsi kəsilənədək müqavimət göstərən qanunsuz erməni silahlı birləşmələri antiterror əməliyyatları zamanı dabanlarına tüpürüb qaçırlar. Bu məğlubiyyətdən savayı, biz həm də onların təbliğat maşınının süqutunu görürük.

Sonuncu savaşda 30 ilə yaxın "qalib pozası"nda danışıqlara gələn erməni liderlərinin qüruru sabun köpüyü kimi partlayıb. "Qalib" erməni əsgəri isə səngərdə məğlubiyyətin gözlənilməzliyindən dəli kimi dərdinə ağı deyib şalvarını qoyub qaçır. İşğalçı olduqlarını sanki indi anlayırlar. Erməni təbliğat maşını da sualtı mina ilə toqquşub dənizin qaranlıq sularına qərq olan gəmi kimi çökür.

Sentyabrın 27-si səhər Ermənistanın müdafiə naziri işğal edilmiş torpaqlarımızdan dinc əhalini ağır artilleriya ilə atəşə tutan kimi rəsmi saytlarında hamıya "şad" xəbərin anonsunu verib "gözləyin" dedi. Belə müştəbeh əda ilə çırtma çalıb qol atmaq üçün gərək qələbə çalacağına yüz faiz əmin olasan. Amma anons elə verilmişdi ki, Ermənistanın hərbi maşını şad xəbərə sanki milyon faiz arxayın idi. Üstəlik, Paşinyan guya oğlunu da müharibəyə yola salırdı. Amma qəfildən onun arvadı Anna Akopyan ərini saymadan bəyan etdi ki, sən demə, oğluna cəbhədə ehtiyac yox imiş.

Paşinyan isə erməni xalqına "qələbə" müjdəsini vermək əvəzinə dünyanı və erməni diasporunu ayağa qaldırdı ki, amandır qoymayın, Azərbaycan üstümüzə gəlir. Onun vurduğu zənglərin, yalvardığı siyasi liderlərin, qecə-gündüz tər töküb yaydığı bəyanatların sayı-hesabı yoxdur. Bu minvalla ermənilər yağışdan çıxıb yağmura düşdülər. Bu barədə xəbərlərsə erməni saytlarında yoxa çıxıb.

Məhz bu məqamı erməni təbliğat maşınının dalana dirəndiyi gün kimi qeyd etmək lazımdır. Ona görə ki, çarəsiz qalan erməni təbliğatçıları "şad" xəbərin nədən ibarət olduğunu açıqlamadan döyüş bölgəsində "üstünlük"lərini tirajlamağa başladılar. Hər gün ermənilərin guya vurduqları tankların, helikopterlərin, təyyarələrin sayı durmadan artırdı.

Amma qəribəsi o idi ki, erməni resurslarında belə feyk xəbərlərin sayına mütənasib olaraq Paşınyanın və onun komandasının imdad nalələri də göyə yüksəlirdi. Döyüşlərdə aramsız "üstünlük" əldə etdiklərini hər gün dəfələrlə tirajlayan ermənilər yenə nədənsə "şad" xəbərin nədən ibarət olduğunu demirlər. Əksinə, erməni hərb maşınının "üstünlük"lərinin artan statistikasına baxmayaraq, daha ucadan imdad diləyirlər.

Azərbaycan tərəfi gündə bir neçə dəfə ictimaiyyətə məlumatlar çatdırır, döyüşlərdən videolar təqdim edir və ən başlıcası, düşmənin vurulan və ələ keçirilən hərbi texnikasını nümayiş etdirir və xalqımız bundan qürur duyur. Düşmən mənbələri məlumat yaydıqca isə bütün Ermənistanda nüfuzdan düşür. Artıq ermənilər öz məlumat mənbələrinə güvənmirlər. Döyüşən əsgər də, arxa cəbhə də, bütün cəmiyyət də vahimə içindədir. Çünki erməni mənbələrinin yaydığı qələbə raportları təsdiqlənmir, videogörüntülərlə müşayiət edilimir. Qoyulan videolar yalnız təlimləri və ya Suriyadan götürülən köhnə görüntüləri əks etdirir.

Erməni təbliğat maşını elə bilirdi ki, yalan məlumatlarla auditoriyanı inandıra biləcək. Düşmən təbliğatçılarını anlamaq o qədər də çətin deyil. Çünki yüz illərdir peşələri yalanları tirajlamaqdır. Həqiqətləri gizlətmək, ya da kəllə-mayallaq təqdim etmək onlar üçün adi haldır. Sadəcə ermənilər başa düşmürlər ki, ağır döyüşlər zamanı yalan tez ifşa olunur. Halbuki bütün yalanlarının dünyada ayaq tutub yeriməsi üçün milyonlar xərcləyən erməni millətçiləri anlamalı idilər ki, bu dəfə istəkləri onlara xeyir gətirməyəcək. Əksinə, döyüşdən "şad" xəbər gözləyən hər bir erməniyə öldürücü zərbə endirəcək. Çünki Azərbaycan Müdafiə Nazirliyinin operativ və obyektiv məlumatları, cəbhə xəttindən müntəzəm yenilənən görüntülər bu gün erməni təbliğatını darmadağın edir.

Buna baxmayaraq, erməni faşistləri yenə də qarşı tərəfdə şok yaratmaq, onu yalan məlumatlarla vahiməyə salmaq niyyətlərindən əl çəkmirlər. Onlar bütün münaqişələr zamanı olduğu kimi, bu dəfə də yalan məlumatları, feyk xəbərləri yerləşdirməyə xüsusi diqqət ayırırlar. Odur ki, azərbaycanlıların adları ilə yüzlərlə profil yaradılır, provokasiya xarakterli dezinformasiyalara rəvac verilir. Nəticəsi nədir?

Bu dəfə erməni millətçiləri başqasına qazdıqları quyuya özləri düşüblər. Azərbaycan tərəfi ermənilərə ikinci zərbəni vurub və döyüşlər gedən ərəfədə sosial şəbəkələrin fəaliyyətini ölkə ərazisində məhdudlaşdırılıb. Bununla internet məkanında feyk xəbərlər yayan, provokasiyalar tirajlayan erməni trolları zərərsizləşdirilib. Həmişə ciddi vahimə, xof yaratmaq gücünə qadir olan ermənilər bu dəfə trolluqda irəli tullanmaq istədikləri yerdə geri düşüblər. Üstəlik, Ermənistanda internet istifadəçiləri Azərbaycan tərəfinin məlumatlarını paylaşmağa başlayıblar. Və iş o yerə çatıb ki, Ermənistanın Müdafiə Nazirliyi rəsmi səhifəsində internet istifadəçilərini Azərbaycan tərəfinin məlumatlarını yaymamağa çağırıb. Bunu isə bizim informasiya məkanında qazandığımız qələbə hesab etmək olar.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ermənistanda antisemitizm

Ermənistanda milli azlıqlara qarşı ictimai həyatda baş verən mənfi münasibət özünü müxtəlif formalarda göstərir. Ermənistanda yaşayan yəhudilər də bu ayrı-seçkiliyə məruz qalırlar.

Yəhudilər mənşəyi qədim Yaxın Şərqdə yaşamış yəhudilər və ya İbranilərə söykənən, dərin dini və etnik quruluşa sahib olan, dünyanın müxtəlif yerlərinə səpələnmiş bir xalqdır. Yəhudi dini ilə yəhudi xalqı arasında güclü bir bağlılıq mövcuddur ki, bunun kökləri xalqın tarixi ilə əlaqədardır. Yəhudilər tərkib baxımından 3 əsas qrupa bölünür: aşkenazilər, səfəradilər, mizrahilər.

2018-ci ilin statistik göstəricilərinə görə, dünyadakı yəhudilərin sayı 14606 milyon nəfərdir. Onların 46,2 faizi İsraildə, digərləri isə dünyanın müxtəlif ölkələrində məskunlaşmışdır. Ən çox geniş yayıldıqları ölkələr ABŞ (47,7 faiz), Fransa (3,1 faiz), Kanada (2,1 faiz), İngiltərə (2 faiz), Argentina (2,1 faiz), Rusiya (1,2 faiz) və sairdir. Yəhudilər digər ölkələrlə yanaşı, Cənubi Qafqaz regionunda da tarixin müxtəlif mərhələrində məskunlaşmış və yaşamışlar. 2017-ci ilin statistik göstəricilərinə görə, Azərbaycanda 7800 nəfər, Gürcüstanda 1600 nəfər yəhudi mövcuddur. Ermənistanda yaşayan yəhudilərin sayı isə bəzi mənbələrdə 100 nəfər, bəzi mənbələrdə isə 500 nəfər göstərilir. Onlar əsasən aşkenazi və mizrahi mənşəli yəhudilərdir. Müasir dövrdə yəhudilər əsasən paytaxt Yerevanla yanaşı, Sevanın Yelenovka kəndində və Vanadzor şəhərində də məskunlaşmışlar. 1988-ci il dekabrın 7-də baş verən Spitak zəlzələsindən əvvəl Gümrüdə də kiçik yəhudi qrupları məskunlaşmışdı.

Yəhudilərin Ermənistanda məskunlaşmasının bir sıra səbəbləri var idi. İkinci Dünya müharibəsi illərində təqiblərə məruz qalan yüzlərlə yəhudi müharibədən sonrakı illərdə sovet Ermənistanına köçmüşdür. Buna görə də İkinci Dünya müharibəsindən sonra sovet Ermənistanındakı yəhudi əhalinin sayı 5000 nəfərə çatmışdı. 1959-cu ilin statistik göstəricilərində isə sovet Ermənistanında yəhudi əhalisinin sayı 10 min nəfər göstərilirdi.

1965-1972-ci illərdə sovet respublikalarında baş verən iqtisadi yüksəliş ilə əlaqədar olaraq Rusiya və Ukraynadan Ermənistana yəhudilərin köçü intensiv xarakter aldı və yəhudilərin sayı Ermənistanda artmağa başladı. Lakin bu artım SSRİ dağıldıqdan sonra davam etmədi, əksinə, yəhudi əhali getdikcə azalmağa başladı. Bunun əsas səbəbi isə antisemitizmin artması, dövlət siyasətinə çevrilməsi və iqtisadi böhran vəziyyətində ölkədə yaşamağın qeyri-mümkünlüyü idi.

Ermənistan müstəqillik elan etdikdən sonrakı illərdə bir sıra səbəblərdən 1989-cu ildə 1246 yəhudi, 1992-1994-cü illərdə 6000-dən çox yəhudi Ermənistandan köçmüş və İsrailə geri dönmüşdülər.

Qeyd olunduğu kimi, yəhudilərin ölkəni tərk etməsinin tək səbəbi iqtisadi böhran deyildi. Belə ki, Ermənistanda yəhudilərin təcrid siyasəti açıq-aydın şəkildə özünü göstərməyə başlamışdı. Ölkədə yaşayan digər millətlərə və etnik azlıqlara qarşı münasibət çox pis idi. Digər millətlərə qarşı aparılan bu təcrid siyasəti yəhudilərə də təsir edirdi. Yəhudilərə qarşı aparılan bu siyasət ümumilikdə "antisemitizm" adlandırılır. Antisemitizm - millətçilik, irqçilik ideologiyasının bir növüdür. Digər millətçilik formalarından fərqi onun yalnız bir xalqa - yəhudi millətinə və mədəniyyətinə, iudaizm dininə qarşı nifrət bəsləməsi və onları təqib etməsidir.

Bu gün İsrail ilə dostluq münasibətləri qurmağa cəhd edən Ermənistanda yəhudilərin əleyhinə çağırışların mövcudluğu əfsanə deyil, reallıqdır. Belə ki, Ermənistanda millətçilik və antisemitizm dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.

Ermənistan Konstitusiyasının 41-ci maddəsinə əsasən, "Hər kəsin milli və etnik kimliyini qorumaq haqqı vardır. Milli azlıqlara mənsub insanlar ənənələrini, dinlərini, dillərini və mədəniyyətlərini qorumaq və inkişaf etdirmək haqqına malikdir". Əlbəttə, bu Konstitusiyaya əsasən, ölkədə yaşayan yəhudilər kağız üzərində azaddırlar, amma ölkənin etnik tərkibinə nəzər yetirdikdə bunun əksini görmək mümkündür. İsrailli mütəxəssis Arye Qut Amerikada nəşr olunan "The Algemeiner" yəhudi qəzetində "Ermənistanda yəhudilərə qarşı: açıq-aşkar və təhlükəli" adlı məqaləsində yazır: "Erməni cəmiyyətində antisemitik hərəkətlərin artması və iqtisadi vəziyyətin çökməsi yəhudiləri ölkəni tərk etməyə vadar etmişdir". Cəmi 20 il ərzində Ermənistanın yəhudi əhalisinin sayı azalaraq 5000 nəfərdən bir neçə yüz nəfərə enmişdir.

Belə bir sual meydana çıxır: erməni cəmiyyətindəki yəhudi azlığa qarşı bu nifrətin səbəbi nə ilə əlaqədardır? Əslində, bu, ermənilərin etnopsixoloji xüsusiyyətləri ilə əlaqədardır. Lakin bu problemin ikinci bir səbəbi isə bəzi tarixçilər tərəfindən iddia edilən avantürist fikirlərdir. Tarixi sübutlarla dəstəklənməyən bu nəzəriyyənin iddialarına görə, uydurma "erməni soyqırımı"nda Osmanlı yəhudiləri iştirak etmiş və Osmanlı əsgərlərinə dəstək olmuşlar. Nəticədə isə bu saxta iddialar bütün erməni xalqı, siyasətçiləri tərəfindən mənimsənilmişdir. Lakin bu iddialar reallığı əks etdirmir. Əgər erməni xalqı bunu reallıq kimi qəbul edirsə, o zaman minlərlə yəhudinin ölümünə səbəb olan alman faşist generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın öz ölkələrində qəhrəman kimi təbliğ olunduğunu unutmamalıdır. Bununla yanaşı, Azərbaycan və İsrail arasında münasibətlərin yaxşılaşması və inkişafı da Ermənistanda antisemitizmi gücləndirən səbəblərdən biridir.

Ermənistanda antisemitizm 3 səviyyədə mövcuddur:

- *erməni cəmiyyəti arasında mövcud olan antisemitizm;*
- *hakimiyyət və siyasətçilər tərəfindən dəstəklənən antisemitizm;*
- *KİV vasitəsilə təbliğ olunan antisemitizm.*

Erməni cəmiyyətindəki yəhudi nifrəti bir çox hallarda əməli fəaliyyətdə özünü göstərir. 2003-cu ildə Yerevanda Holokost qurbanlarının adına qoyulmuş memorial abidənin yerinin dəyişdirilməsi qərarı qəbul edildi. Səbəb isə bu ərazidə yeni bir obyektin tikilməsi idi. Əslində isə əsas səbəb erməni əhalinin abidəyə vurduğu ziyanı gizlətmək üçün onun gözdən uzaqlaşdırılması idi. Lakin yəhudi icmasının səyləri nəticəsində abidə şəhər daxilində başqa bir əraziyə köçürüldü. Abidə yerləşdirildikdən qısa müddət sonra onun üzərində yenə müxtəlif xəsarətlər meydana gəlməyə başlamışdır. Naməlum şəxslər tərəfindən çəkic və mismar ilə abidə üzərindəki yəhudi atributunun silinməsinə cəhdlər edilmişdir. Ermənilər yəhudilərə olan nifrətini bu abidə üzərindən nümayiş etdirirdi: Yerevanda 2004-ci il yəhudi yeni ilinin son günü kimliyi bəlli olmayan erməni vətəndaşları şəhər mərkəzindəki ictimai parkda Holokost qurbanlarının memorial abidəsi üzərinə 666 saylı "şeytan" rəqəmini yazmışdılar. Çox keçmədi ki, 2005-ci il yanvarın 26-da antisemitistlər tərəfindən həmin abidə üzərində qara boya ilə böyük faşist simvolu çəkildi. Yazı dərhal park işçiləri tərəfindən təmizlənsə də, bu hadisəni gizlətmək mümkün olmadı.

2005-ci ildə isə abidə tamamilə aşırdılmış şəkildə tapılmışdır. Bu hadisə yəhudi icmasının rəhbərlərini və yəhudi cəmiyyətini narahat edən antisemitizm aktlarının ən əsası oldu. Bu hadisədən sonra yəhudi icmasının üzvləri hadisəni dərhal polisə bildirmiş, lakin təhqiqat obyektiv aparılmamış və icma üzvlərinə tam məlumat verilməmişdir. Bir müddət sonra isə verilən açıqlamada abidəni saxlayan sütunlarda problem olduğu və abidənin buna görə aşdığı qeyd olunmuşdur. Lakin bu cavabla kifayətlənməyən yəhudi icması üzvləri abidənin yerləşdiyi ərazidə sorğu aparmışdır. Sorğuda iştirak edən Qukas Harutyunyan qeyd edirdi ki, bu və buna bənzər hadisələr abidə qoyulduğu ildən bəri 6 ya da 7 dəfə təkrarlanmışdır. Eyni zamanda o, qeyd edirdi ki, abidənin sütunları çox möhkəmdir və bu səbəbdən onun aşmağı inandırıcı deyil.

Ölkədə antisemitizm yalnız xalq tərəfindən deyil, hakimiyyət və siyasətçilər tərəfindən də dəstəklənir. Erməni millətçiləri ötən bir neçə il ərzində mətbuatda antiyəhudi şərhlər yaymaqla daha da aktivləşmişlər. Ermənistan Ari Birliyi Partiyasının keçmiş lideri, milliətçi Armen Avetissiyan İsrailin "erməni soyqırımı"nı qəbul etməməsini bəhanə edərək, Ermənistandakı İsrail səfiri Rivka Coheninin ölkə üçün arzuolunmaz adam elan edilməsi çağırışı etmişdi. Bununla kifayətlənməyən A.Avetissiyan "Yerevanq" qəzetində antisemit məqaləsini dərc etdirmişdi. Məqalədə yazılırdı: "Yəhudi azlığına malik olan hər bir ölkənin sabitliyində böyük təhlükə yaranır". O, 2003-2004-cü illərdə Ermənistan mediasında haqqında ən çox danışılan insan oldu. İştirak etdiyi verilişlərdən birində Ermənistanda 50 min "gizli" yəhudinin yaşadığını və onların təsbit edilib ölkədən çıxarılmalı olduğunu vurğuladı.

Arye Qutun fikrincə, Ermənistan gözdən pərdə asmaq üçün Holokostu qəbul edir, lakin bununla bərabər Ermənistanda faşizm ideologiyası, irqi ayrı-seçkilik dövlət səviyyəsində təbliğ olunur, faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş erməni millətçilərinə abidələr ucaldılır, küçələrə, meydanlara, tədris müəssisələrinə, strateji mərkəzlərə və başqa obyektlərə onların adları verilir. Bu ölkədə faşizmin, antisemitizmin və terrorizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilməsinin sübutudur. Yəni Ermənistanda anti-azərbaycan siyasəti ilə yanaşı, antisemitizm də tüğyan edir.

Ermənistan müstəqilliyini elan etdikdən sonra hakimiyyətə gələn millətçi qüvvələr demək olar ki, "faşizmin erməni modelini" yaratdılar. Ermənistandakı yəhudi icmasını hiddətləndirən digər hadisə isə erməni hökumətinin dini və etnik azlıqlarla bağlı idarəsinin rəhbəri, etnoloq Hranuş Xaratyanın "Golos Armenii" qəzetinə verdiyi müsahibə olmuşdur. O, müsahibəsində yəhudilərin Şabat ayinlərində yəhudi olmayanlara qarşı düşmənçilik etdiklərini, onlarla heyvan kimi davrandıqlarını qeyd etmiş, yəhudiləri antixristian fəaliyyətlə məşğul olmaqda ittiham etmişdir. Bunun cavabında yəhudi icmasının üzvləri H.Xaratyanın sözlərini prezident Robert Koçaryana göndərdikləri məktubda "yalan, böhtan və cahillik" kimi xarakterizə etmiş və R.Koçaryan hakimiyyətindən Ermənistandakı antisemitizmi görməsini tələb etmişdilər. Lakin yəhudi icmasının bu müraciəti hakimiyyət tərəfindən cavabsız qalmış və H.Xaratyan isə üzr istəməyəcəyini bildirmişdir.

Ölkədə antisemitizmin siyasətçilər tərəfindən dəstəkləndiyini göstərən vizual fakt isə faşist Almaniyasının generalı Njdenin şərəfinə 2016-cı ilin may ayında Yerevanda ucaldılan heykəlin açılışında S.Sarkisyanın iştirak etməsi olmuşdur. Lakin bundan əvvəl 2006-cı il yanvarın 27-də Ermənistan Yəhudi İcmasının təşəbbüsü ilə "Holokostu Anma Günü" adlı tədbir təşkil olunduğu zaman bir çox erməni dövlət adamları və məşhur şəxslər bura dəvət olunsa da, tədbirə yalnız parlamentin deputatı Mkrtiç Minasyan qatılmışdır. Prezidentliyi illərində Njdenin şərəfinə abidənin açılışında iştirak edən S.Sarkisyan o zaman müdafiə naziri vəzifəsində olmuş, lakin o, bu tədbirdə iştirak etməyi lazım bilməmişdi.

Bununla kifayətlənməyən antisemitik dövlət olan Ermənistan "Njdeizm" ideologiyasını təbliğ edərək onu tədris müəssisələrinin proqramlarına daxil edir və gələcək nəsli bu "dəyərlər" əsasında böyüdür. Arye Qut öz məqaləsində qeyd edir ki, minlərlə yəhudinin qətlə yetirilməsində şəxsən iştirak etmiş millətçi qoşun başçısı Dro başda olmaqla erməni legionunun məqsədi alman ordusu üçün "arzuedilməz" yəhudilərin və başqa millətlərin məhv edilməsi idi. Bununla da Ermənistan rəhbərləri özlərinin faşist və millətçi yanaşmalarını nümayiş etdirdilər.

Lakin yəhudilərə qarşı olan bu "mədəni zorakılıq" yalnız xalq və hakimiyyət tərəfindən deyil, media nümayəndələri və KİV tərəfindən də dəstəklənir. Ölkədə antisemitist məzmunda kitablar nəşr edilir, televiziya verilişləri yayımlanır, media nümayəndələri antisemit çıxışlar edirlər.




1998-ci ildə erməni müəllifi İqor Muradyan "Ermənistanın səsi" qəzetində yayımlanan məqaləsində yəhudilərin etnik qarışıqlıq yaratdığını və Dağlıq Qarabağ problemində əlləri olduğunu bildirmişdi. O, eyni zamanda türklərlə yaxınlıq edən yəhudiləri Ermənistan üçün təhlükə adlandırmışdı.

"ALM Mediya" şirkətinin sahibi Tiqran Karapetyan öz çıxışında yəhudiləri təhqir edən ifadələrdən istifadə etmişdi. Onun fikrincə, yəhudilər dünyaya hakim olan qeyri-kafi irqdir və onlar Ermənistana zərər verə bilər. T.Karapetyan həm də yəhudilərin Tövrat qədər hörmət etdiyi "Talmud"du (Yəhudilərin mədəniyyətini, adət-ənənələrini, əfsanələrini birləşdirən dini mətinlər toplusu) təhqir edərək kitabda "davakar ideologiya" təbliğ edildiyini iddia etmişdir. Bütün bunlar sübut edir ki, Ermənistanda antisemitizm dövlət səviyyəsində dəstəklənir.

Yerevanda rus və erməni dillərində nəşr olunan "Milli sistem" adlı kitab da Ermənistanda antisemitizmin daha bir təzahürü olmuşdur. Romen Yepiskopyanın müəllifi olduğu bu "elmi əsər"də ermənilərin başına gələn bütün müsibətlərdə yəhudilər ittiham edilir, türklər "sui-qəsdçi millət", yəhudilər isə "məhv edən millət" adlandırılırdı. Eyni zamanda kitabda müəllif Holokostun bir mif olduğunu bildirirdi. Hətta o, "erməni soyqırımı"nda da yəhudiləri ittiham edirdi. Sonradan rus dilində çap olunan "Ermənistan Respublikası" qəzeti bu kitabı qınasa da, bu əslində Ermənistan dövlətinin öz mövqeyini gizlətmə cəhdi idi. Bu da sübut etdi ki, erməni hökuməti ölkədə antisemitizmin qarşısının alınması ilə bağlı problemləri həll etmək və ya idarə etmək üçün heç bir tədbir görmür.

Baş verən bütün hadisələrə rəğmən Ermənistan hökuməti hələ də ölkədə antisemitizmin olmadığını iddia edir. Ermənistandakı Yəhudi İcmasının sədri Rima Varjapetyan öz çıxışında "Ermənistanda antisemitizm yoxdur. Yəhudiliklə əlaqədar heç bir problem yoxdur" açıqlamasını versə də, antisemitizm Ermənistanda reallıqdır. 2018-ci il martın 28-də "PEW" Araşdırma Mərkəzi tərəfindən açıqlanan məlumatda Şərqi Avropanın 18 ölkəsi arasında Ermənistan yəhudilərə qarşı ən az tolerant olan ölkə seçilmişdi. Digər ölkələrə nisbətən burda antisemitizm 32%-dir ki, bu, çox böyük bir göstəricidir.

Bütün bu faktlar göstərir ki, Ermənistanın yəhudi soyqırımını tanımağına baxmayaraq, bu ölkədə yəhudilərə qarşı qəddar antisemitizm və dərin bir nifrət var.

***Aynur ƏZİMZADƏ,***
***AMEA-nın Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin kiçik elmi işçisi***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mübarizəsini müdafiə edir

### *TÜRKSOY tezliklə tarixi Azərbaycan torpaqlarında insani dəyərlərin canlanmasını istəyir*

TÜRKSOY
ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI
INTERNATIONAL ORGANIZATION OF TURKIC CULTURE

"Azərbaycanın işğal altındakı torpaqları ilə bağlı problemin beynəlxalq hüququn normaları, xüsusilə də BMT-nin məlum qətnamələri çərçivəsində həlli olduqca vacibdir".

AZƏRTAC xəbər verir ki, bu fikir Ermənistanın törətdiyi təxribatlar səbəbindən bölgədə yaranmış hərbi gərginliklə bağlı Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinovun imzası ilə yayılan bəyanatda əksini tapıb. Münaqişədə Ermənistanın vandallığı nəticəsində Azərbaycanın mülki əhalisi arasında tələfatın olmasından dərin kədər hissi keçirdiyini diqqətə çatdıran baş katib şəhidlərimizə Allahdan rəhmət, yaralılara tezliklə şəfa diləyib. Vurğulayıb ki, müqəddəs və tarixi torpaqlarda baş verən qarşıdurmanın yerini sülhə və ədalətə verməsi, insani dəyərlərin yenidən canlanması türk dünyasının mədəniyyət və sənət adamlarının əsas istəyidir.

### *Vyetnam telekanalı Ermənistanın hərbi təxribatı barədə süjet yayımlayıb*




Vyetnamın milyonlarla izləyicisi olan VTC1 televiziya kanalında Ermənistanın ölkəmizə qarşı hərbi təxribatı nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində yaranmış vəziyyət barədə ətraflı videosüjet nümayiş etdirilib.

AZƏRTAC xəbər verir ki, süjetdə ölkəmizin Vyetnamdakı səfirliyində Ermənistanın son təxribatı ilə əlaqədar keçirilən mətbuat konfransında deyilən fikirlərə istinad olunub. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı hücumları nəticəsində 5 üzvdən ibarət ailə də daxil olmaqla, çoxsaylı mülki şəxs həyatını itirib, onlarca insan yaralanıb, yüzdən çox ev dağıdılıb.

VTC1 kanalı tamaşaçılarını Azərbaycan Ordusunun öz əhalisini qorumaq məqsədilə əks-hücuma keçmək məcburiyyətində qaldığı, 2300 erməni hərbçisinin məhv edildiyi və yaralandığı, Ermənistanın 130-dək tank və digər zirehli texnikasının sıradan çıxarıldığı barədə məlumatlandırıb. Süjetdə Azərbaycan Ordusunun mülki əhaliyə deyil, yalnız hərbi obyektlərə zərbələr endirdiyi və mülki əhalinin yaşadığı ərazilərə atəş açmadığı, hərbi əməliyyatları öz əraziləri daxilində keçirdiyi bildirilib.

Vyetnam televiziyası xüsusi vurğulayıb ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, digər 7 rayonu da işğal edib. Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanova istinadla bildirilib ki, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin icrası təmin olunduğu və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkildiyi təqdirdə Azərbaycan tərəfindən hazırda həyata keçirilən əks-hücum əməliyyatı dayandırılacaq.

### *Avstraliyada yaşayan soydaşlarımız: "Bizim də ürəyimiz doğma Azərbaycanla birgə döyünür"*



Avstraliyanın Sidney şəhərində fəaliyyət göstərən azərbaycanlı icmasının nümayəndələri bir araya gələrək, Ermənistan ordusunun Azərbaycana qarşı son təxribatlarını kəskin pisləyiblər.

AZƏRTAC xəbər verir ki, Avstraliya-Azərbaycan Assosiasiyasının təşkil etdiyi tədbirdə işğalçı Ermənistan ordusunun Azərbaycana qarşı iriçaplı silahlardan və ağır artilleriyadan istifadə edərək hücuma keçməsindən, yaşayış məntəqələrini və mülki əhalini atəşə tutmasından dərin narahatlıq ifadə olunub.

Əvvəlcə düşmənin hərbi təxribatı nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Toplantıda çıxış edən Avstraliya-Azərbaycan Assosiasiyasının prezidenti Mikayıl Oyta, təşkilatın üzvləri Sara Azərsun, Şəmsəddin Necadi və Cavad Davudi bildiriblər ki, Avstraliyada yaşayan soydaşlarımız da digər ölkələrdə yaşayan azərbaycanlılar kimi Vətənimizdə baş verənləri böyük diqqətlə izləyirlər. Onların da ürəyi doğma Azərbaycanla birlikdə döyünür. Ermənistanın işğalçı və təcavüzkar siyasətini kəskin şəkildə pislədiklərini vurğulayan natiqlər qeyd ediblər ki, bu gərgin zamanda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdəyə xas tərzdə nümayiş etdirdiyi rəhbərlik və qətiyyətdən sonsuz qürur duyurlar. Xalqımızın özünümüdafiə hüququnu həyata keçirən, 30 ilə yaxındır erməni tapdağı altında inləyən doğma torpaqlarımızın işğaldan azad olunması üçün əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində qazandığı uğurlar bütün xalqımıza xoşbəxt anlar yaşadır.

Azərbaycan dövlətinin yanında olduqlarını bəyan edən toplantı iştirakçıları müzəffər ordumuza Dağlıq Qarabağı və işğaldakı digər torpaqları işğalçılardan tamamilə təmizləməyi arzulayıblar. Vurğulayıblar ki, ən böyük arzuları xalqımızın böyük qələbə sevincini yaşaması və Azərbaycan Bayrağının Qarabağ bölgəsindəki bütün şəhər və kəndlərimiz üzərində dalğalanmasıdır.

### *Veljko KAJTAZİ: "Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərilməli, mülki şəxslərə qarşı hücumlar dərhal dayandırılmalıdır"*




Xorvatiya parlamentinin deputatı, qurumun İnsan hüquqları komitəsinin üzvü Veljko Kajtazi qanunverici orqanın iclasında Azərbaycan ilə Ermənistan arasındakı münaqişənin alovlanmasından təəssüfləndiyini bildirib, iki ölkə arasında münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

AZƏRTAC xəbər verir ki, son günlərdə Ermənistanın təxribatı nəticəsində onlarca dinc insanın ölümündən kədərləndiyini bildirən deputat deyib: "Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərilməli, Cenevrə Konvensiyası pozulmamalı və mülki şəxslərə qarşı hücumlar dərhal dayandırılmalıdır".

Deputat həmçinin həmkarlarını və Xorvatiya hökumətini Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllini dəstəkləməyə çağırıb.

### *Bolqarıstanın xəbər portalı Ermənistanın ölkəmizə qarşı davam edən təcavüzü ilə bağlı məlumat yayıb*




Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova Bolqarıstanın nüfuzlu "FAKTİ" xəbər portalına Ermənistanın ölkəmizə qarşı davam edən təcavüzü ilə bağlı müsahibə verib. AZƏRTAC xəbər verir ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini atəşə tutmasından bəhs edən N.Qurbanova Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin hələ də icra olunmadığını diqqətə çatdırıb. Ermənistanın Dağlıq Qarabağ bölgəsindən əlavə ətrafında yerləşən və ermənilərin heç yaşamadığı yeddi rayonu işğal etməsi faktına diqqət çəkən səfir Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə aparıldığı, burada qeyri-qanuni məskunlaşma siyasəti aparıldığı qeyd olunub. Son bir neçə gün ərzində Ermənistanın Azərbaycan kəndlərinə və mülki əhalisinə daimi atəş açdığını, mülki əhali arasında ölən və yaralananların mövcud olduğunu vurğulayan diplomat müvafiq şəkilləri əyani sübut olaraq göstərib. Bu xüsusda qeyd olunub ki, Azərbaycan tərəfi Cenevrə Konvensiyasına uyğun olaraq mülki əhalini hədəfə almır. N.Qurbanova vurğulayıb ki, əvvəlki cinayətkar hərbi xuntanı devirən Nikol Paşinyanın hakimiyyətə gəlişi ilə Ermənistanda rəhbərlik dəyişikliyi əvvəllər münaqişənin həllində müəyyən ümidlərə yol açsa da, Ermənistanın yeni baş nazirinin ölkədə inkişaf vədlərini yerinə yetirmək iqtidarında ola bilməməsi, daxili siyasi gərginlik və xalqının narazılığı fonunda münaqişə ilə bağlı mövqeyi radikallaşıb. Bu xüsusda ölkəmizin işğal olunmuş ərazilərində N.Paşinyanın oğlunun hərbi xidmət keçdiyi, həmçinin həyat yoldaşı Anna Akopyan və onun yaratdığı "Qadınlar sülhün tərəfdarıdır" təşkilatının üzvlərinin bir həftəlik hərbi təlimlərdə iştirak etdiyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, hələ 2019-cu ildə Ermənistan müdafiə naziri David Tonoyan Nyu Yorkdakı erməni diasporu ilə görüşündə taktikalarının indi yeni ərazilər üçün yeni müharibə olduğunu açıq şəkildə ifadə etmişdir. Eyni zamanda Ermənistanın yeni milli təhlükəsizlik strategiyasında da Azərbaycana qarşı bu kimi aqressiv mövqe nümayiş etdirilib. Veriliş aparıcının Türkiyənin münaqişəyə cəlb olunması sualına cavab olaraq səfir guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfinin yaydığı bütün şayiələrin təxribat xarakteri daşıdığını, Azərbaycanın strateji tərəfdaşı olmasına baxmayaraq Türkiyənin münaqişədə iştirakı etmədiyini və Azərbaycan Ordusunun öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün olduqca hazırlıqlı olduğunu qeyd edib. Bundan əlavə, Azərbaycanın Ermənistan ərazisində nə hərbi, nə də mülki hədəfinin olmadığını söyləyən diplomat BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq Azərbaycanın özünümüdafiə və işğal olunmuş ərazilərini azad etmək hüququna sahib olduğunu vurğulayıb.

### *Qırğızıstan mətbuatı Ermənistanın Azərbaycana qarşı təxribatlarından yazıb*




Qırğızıstanın "manas.kg", "24.kg" portalları və "Veçerniy Bişkek" qəzeti Ermənistanın Azərbaycana qarşı təxribatları, Silahlı Qüvvələrimizin əks-hücumları barədə materiallar yayıb. AZƏRTAC xəbər verir ki, materiallarda sentyabrın 27-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan mövqelərinə hücumu və ordumuzun əks-hücumu haqqında ətraflı məlumat yer alıb. Bildirilib ki, Ermənistan ordusu əsasən Azərbaycanın mülki obyektlərini, kəndlərini və dinc sakinləri hədəfə alıb. Tərtər, Ağdərə, Füzuli istiqamətindəki kəndlərdə xeyli dağıntı, dinc əhali arasında həlak olan və yaralananlar var.

"Manas.kg" portalı yazıb ki, Ermənistanın təmas xəttindəki təxribatları və Azərbaycanın əks-hücumu nəticəsində vəziyyətin daha da gərginləşməsinə görə bütün məsuliyyət işğalçı dövlətin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Portal Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətini rus dilində dərc edib.

"Veçerniy Bişkek" qəzeti vurğulayıb ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və münaqişə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin müddəaları əsasında həll olunmalıdır. Qətnamələrdə deyilir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməlidir.

Materiallarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir.

### *Kanadada yaşayan soydaşlarımız erməni təxribatlarına etirazlarını bildiriblər*




Kanadada yaşayan soydaşlarımız erməni təxribatına etiraz edərək bu ölkənin hökumət nümayəndələrinə, parlament üzvlərinə və digər yerli səlahiyyətli şəxslərə bəyanatlar ünvanlayıblar.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatlarda Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri sadalanıb, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirmədiyi, habelə beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadığı, təxribatçı hərəkətlərini davam etdirməklə regionda daha da təhlükəli vəziyyət yaratdığı vurğulanıb. Dünya dövlətlərinə və beynəlxalq təşkilatlara çağırış edilərək, regionda sülh və sabitliyin təmin olunması üçün Ermənistan dövlətinin Azərbaycanın işğal altındakı torpaqlarından dərhal çıxarılmasına təsir göstərilməsi istənilib.

### *Serbiya KİV: "Azərbaycanın həyata keçirdiyi bütün tədbirlər özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilindədir"*




Serbiyanın nüfuzlu "Tanjug" xəbər agentliyi, "Danas" qəzeti və "RTV" xəbər agentliyinin internet portalında "Azərbaycanın həyata keçirdiyi bütün tədbirlər özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilindədir - Qarabağ Azərbaycandır" başlıqlı məqalələr dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalələrdə Ermənistan XİN-in bölgədə yaşanan son gərginlikdə guya ki, Türkiyənin tərəf kimi iştirak etməsi ilə bağlı verdiyi açıqlamaların yalan və təxribat xarakteri daşıdığı bildirilib.

Qeyd edilib ki, cari ilin 27 sentyabr tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın yeni təcavüz aktına cavab olaraq beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü təmin etmək məqsədilə əks-hücum tədbirləri həyata keçirilib. Hazırda da Azərbaycan tərəfi Ermənistanın davam edən hərbi təxribatlarına adekvat cavablar verir. Azərbaycan Ordusu öz xalqının və torpaqlarının müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlı və güclüdür.

Türkiyənin roluna gəldikdə, bu ölkə bölgədə sülh və təhlükəsizliyin, eləcə də beynəlxalq hüququn fundamental norma və prinsiplərinə hörmətin təmin olunmasının tərəfdarıdır. Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, başda BMT Təhlükəsizlik Şurasının qətnamələri olmaqla beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq və ədalətli şəkildə həllini dəstəkləyir.

Ermənistana məxsus Su-25 tipli döyüş təyyarəsinin guya ki, Türkiyə silahlı qüvvələrinə məxsus F-16 təyyarəsi tərəfindən vurulması ilə bağlı dezinformasiya xarakterli məlumata gəldikdə isə, bu kimi saxta məlumatları yayan Ermənistanın niyyəti münaqişəyə üçüncü tərəfləri cəlb etməkdir.

Görünən odur ki, Ermənistan tərəfi həqiqətə uyğun olmayan və cəfəng açıqlamaları ilə beynəlxalq ictimaiyyətin diqqətini özünün təcavüzkar siyasətindən və azərbaycanlı mülki əhalini məqsədyönlü şəkildə atəşə tutaraq törətdiyi müharibə cinayətlərindən yayındırmaq məqsədini güdür.

Həmçinin məqalələrdə Ermənistan KİV işğal olunmuş Dağlıq Qarabağ bölgəsində Fransanın "Le Monde" qəzetinin iki jurnalistinin yaralanması ilə bağlı məlumata dair bildirilib ki, Ermənistan xarici jurnalistlərin həyatını təhlükə altına ataraq və beynəlxalq humanitar hüququ kobudcasına pozaraq jurnalistlərin hərbi əməliyyatların getdiyi əraziyə səfərini təşkil edir. Xarici jurnalistlərin məqsədyönlü şəkildə təhlükəli əraziyə aparılması Ermənistan hökumətinin jurnalistlərin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar öhdəliklərinə məhəl qoymadığını və xarici jurnalistlərdən özünün qanunsuz təbliğat məqsədləri üçün istifadə etdiyini açıq şəkildə göstərir.

Məqalələrdə "Azərbaycanın həyata keçirdiyi bütün tədbirlər özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilindədir - Qarabağ Azərbaycandır" fikri xüsusi vurğulanıb.

### *Braziliya televiziyasında Ermənistanın bölgədə apardığı təhlükəli siyasətdən danışılıb*




Braziliyanın nüfuzlu "Comunitaria" telekanalında Azərbaycanın bu ölkədəki səfiri Elxan Poluxovun ölkəmizə həsr edilmiş müsahibəsi efirə gedib.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, müsahibə zamanı Braziliya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər, qarşılıqlı səfərlər, iqtisadi, siyasi, mədəni və digər sahələri əhatə edən məsələlərə toxunulub.

Səfir Ermənistanın Azərbaycana qarşı təcavüzü, bölgədə apardığı destruktiv və təhlükəli siyasətdən danışıb. Qeyd olunub ki, Ermənistan rəhbərliyinin həyata keçirdiyi siyasət Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan bütün sülh danışıqlarına son qoyub və təcavüzkar siyasətin davamıdır. Səfir vurğulayıb ki, bu siyasətin yeridilməsinə beynəlxalq aləmin münaqişəyə laqeyd qalması şərait yaradır. O, dünya və Braziliya ictimaiyyətini Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırıb.

30 dəqiqə davam edən müsahibə Braziliyanın geniş auditoriyasının diqqətini çəkib və ölkəmiz haqqında gedən silsilə proqramların növbəti bir hissəsi olub.

### *Özbəkistan portalları Ermənistanın son təxribatları ilə bağlı məqalələr yayıb*



Özbəkistanın orol24.uz və interpress.uz portalları Ermənistanın son təxribatları ilə bağlı məqalələr çap edib.

AZƏRTAC xəbər verir ki, orol24.uz portalı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşməsi ilə bağlı məqalədə dövlət başçısının fikirlərinə geniş yer verib.

Prezident bildirib ki, döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib.

Dövlət başçısı görüşdə deyib: "Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq".

Portalda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması, Qarabağın tarixi haqqında da məlumat verilir.

İnterpress.uz portalı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki obyektlərinə və dinc əhaliyə hücumunu önə çəkir. Bildirilir ki, mülki şəxslərin atəşə tutulması nəticəsində 16 dinc sakin həlak olub, 55 nəfər yaralanıb, 163 ev, 36 mülki obyekt dağılıb.

Materialda Ermənistanın Dağlıq Qarabağdan kənarda işğal etdiyi daha 7 rayon haqqında məlumat verilir. Bildirilir ki, ümumiyyətlə, Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır. BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması ilə bağlı 4 qətnamə qəbul edib. Bununla belə Azərbaycan torpaqları hələ də işğal altındadır.

### *Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı barədə məlumatlar Rumıniya mətbuatında da yer alıb*




Rumıniyanın "Ultima Ora" onlayn qəzeti Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun "Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı" sərlövhəli məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozduğu, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini iriçaplı silahlar və artilleriya qurğularından atəşə tutduğu, Azərbaycana qarşı növbəti təcavüzə əl atdığı bildirilib. Mülki əhali və Azərbaycanın silahlı qüvvələrinin hərbçilərinin həlak olduğu, bir çox evlərə və digər mülki infrastruktura güclü zərbələrin dəydiyi vurğulanıb.

Səfir qeyd edib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirir.

Qeyd edilib ki, Ermənistan Silahlı Qüvvələri cəbhə bölgəsindəki Azərbaycan mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutmağa davam edir, mülki şəxsləri hədəf alır və terror üsullarından istifadə edir.

Bildirilib ki, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Həmçinin qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı təcavüz aktı son aylar ərzində Ermənistan tərəfinin təxribatları, o cümlədən 12-16 iyul Tovuz istiqamətində hücumu, 23 avqust Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, eləcə də Ermənistan rəhbərliyinin təhrikçi bəyanatları və fəaliyyətinin davamıdır. Bildirilib ki, Prezident İlham Əliyev xalqa müraciətində Azərbaycana qarşı hərbi təxribata görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü, Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının danışıqlar prosesini mənasız etdiyini bildirib və danışıqlar formatını dəyişdirmək cəhdi kimi qiymətləndirib. Qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və təxribatçı əməllərini kəskin şəkildə qınamalı və Ermənistanı beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur etməlidir.

Səfir bu qanlı döyüşlərin bütün Azərbaycan xalqı üçün həqiqət anı olduğunu xüsusi vurğulayıb, mövqeyimizin beynəlxalq hüquqa və ədalətə əsaslandığı diqqətə çatdırılıb.

### *Gürcüstanın xəbər portalında Azərbaycan Prezidentinin yaralı hərbçilərlə görüşü zamanı çıxışından bəhs edən material yerləşdirilib*




Gürcüstanın nüfuzlu report.ge portalı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı çıxışından bəhs edən material yayıb. AZƏRTAC xəbər verir ki, "Bizim erməni xalqı ilə işimiz yoxdur" sərlövhəli material oxuculara rus və ingilis dillərində təqdim olunub.

Materialda Azərbaycan Prezidentinə istinadla deyilir: "Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur".

Daha sonra qeyd olunur: "Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir".

### *"Infogate" xəbər agentliyi: "Ermənistanın cəzasızlıq sindromu ilə necə mübarizə aparmalı"*




Çilinin "Infogate" xəbər agentliyi Dağlıq Qarabağ münaqişəsinin tarixi və cəbhə xəttinin bütün istiqamətlərində hərbi əməliyyatların yenidən başlanması barədə "Dağlıq Qarabağ münaqişəsi: Ermənistanın cəzasızlıq sindromu ilə necə mübarizə aparmalı" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə iyul ayında Ermənistan-Azərbaycan sərhədində münaqişənin genişlənməsi, həmçinin sentyabrın 27-də qoşunların təmas xətti boyunca Ermənistan silahlı qüvvələrinin irimiqyaslı təxribatı ilə əlaqədar Azərbaycan ordusu tərəfindən aparılan əks-hücum əməliyyatları barədə məlumatlar təqdim olunub.

Məqalədə qeyd edilir ki, Azərbaycanın böyük əraziləri - Dağlıq Qarabağın bütün ərazisi və ona bitişik yeddi rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) 25 ildən artıq müddətdə Ermənistanın işğalı altında olub. Silahlı münaqişə nəticəsində 20 mindən çox azərbaycanlı həlak olub, 1 milyona yaxın insan qaçqın və məcburi köçkünə çevrilib.

Beynəlxalq birlik tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində onun suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunmasına baxmayaraq, Ermənistana qarşı heç bir sanksiya tətbiq olunmayıb. Faktiki olaraq beynəlxalq birlik tərəfindən siyasi iradənin olmaması səbəbindən BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi Ermənistan tərəfindən indiyədək yerinə yetirilməyib.

Agentlik yazır ki, beləliklə, cəzasızlıq sindromu həm Ermənistanın danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutmasına, həm də bu ölkə tərəfindən öz hərbi işğalının nəticələrinin möhkəmləndirilməsinə kömək edib. İstər Ermənistan hökuməti, istərsə də erməni cəmiyyəti münaqişənin dinc yolla nizamlanması çərçivəsində bu əraziləri Azərbaycana qaytarmaq fikrində deyil. Əksinə, Ermənistan hökuməti Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik tərkibin dəyişdirilməsi məqsədilə uzun illərdir ki, həmin ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini həyata keçirir.

Dağlıq Qarabağ münaqişəsinin Ermənistan tərəfindən təşkil edilən iyul eskalasiyası danışıqlar prosesini pozmağa yönəlmişdi və hazırda cəbhə xətti boyunca davam edən şiddətli hərbi əməliyyatlarla nəticələnib.

Azərbaycan beynəlxalq birliyi təcavüzkar dövlətlərə vahid yanaşma tətbiq etməyə çağırır. Məqalədə qeyd olunur ki, ATƏT-in Minsk qrupu Dağlıq Qarabağın və ona bitişik yeddi rayonun erməni işğalı məsələsində tərəddüd etmədən möhkəm və qətiyyətli mövqe tutmalıdır.

# Professor Tamerlan Əliyevin ölkəmiz üçün tibb sahəsində yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xidmətləri əvəzsizdir

Dünən Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Tamerlan Əliyevin anadan olmasının 99-cu ildönümü tamam oldu. T.Əliyev 1921-ci il oktyabrın 3-də Naxçıvanın Şahtaxtı kəndində, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan tibb elminin müasir istiqamətlərinin müəyyənləşdirilməsində, dünya səviyyəsinə çıxmasında, tibbi tədqiqatlardan dəyərli nəticələr əldə edilməsində Tamerlan Əliyevin əvəzsiz xidmətləri olub. O, olduqca mənalı bir insan, alim, həkim, pedaqoq ömrü yaşayıb, bütün həyatını Azərbaycan tibb elmi və səhiyyəsinin tərəqqisinə həsr edib, çox sayda elmi-tədqiqat işləri ilə elmimizə misilsiz töhfələr verib.

Professor Tamerlan Əliyevin ölkəmiz üçün tibb sahəsində yüksəkixtisaslı elmi kadrların hazırlanmasında da əvəzsiz xidmətləri olub. Bu gün onun elmi məktəbinin yetirmələrinin adları nəinki ölkəmizdə, hətta ölkə hüdudlarından kənarda da böyük ehtiramla çəkilir.

Əziz Əliyev kimi görkəmli şəxsiyyətin ailəsində boya-başa çatan gənc Tamerlan hələ uşaqlıq çağlarından alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə alıb. 1929-cu ildə Bakıdakı 3 nömrəli ibtidai məktəbdə oxumağa başlayıb, sonralar təhsilini 176 nömrəli orta ümumtəhsil məktəbində davam etdirib. 1940-cı ildə orta məktəbi "əla" qiymətlərlə bitirən Tamerlan Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olub. O, təhsildə və ictimai işlərdə qazandığı nailiyyətlərə görə o zaman nadir hallarda rast gəlinən yüksək təltifə - Azərbaycan Ali Sovetinin fəxri fərmanına layiq görülüb.

Tamerlan Əliyev əmək fəaliyyətinə 1945-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə terapiyası kafedrasında (indiki daxili xəstəliklər kafedrası) başlayıb və ömrünün sonunadək burada çalışıb. Onun çoxcəhətli elmi tədqiqatlarının əsasını Azərbaycanın kurort amillərinin müalicəvi təsiri, endokrin sistem xəstəliklərinin patogenezinin, klinikasının və müalicə üsullarının öyrənilməsi, qanın laxtalanma, əks laxtalanma və fibrinoliz sistemində patoloji şəraitdə baş verən dəyişikliklər və onların korreksiya üsulları, miokard infarktının müalicəsi və digər problemlər təşkil edib. Həkimlik fəaliyyətinə başladığı ilk illərdə Naftalan neftinin orqanizmin reaktivliyinə təsirinin öyrənilməsinə böyük əmək sərf edən Tamerlan Əliyev 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

Professor Tamerlan Əliyev apardığı elmi-tədqiqat işlərinin nəticələrinə əsasən, 1969-cu ildə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə periferik damarların vəziyyəti; metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi alıb.

1975-ci ildə Tamerlan Əliyevin şəxsi təşəbbüsü və səyi nəticəsində Fuad Əfəndiyev adına 4 nömrəli Bakı Şəhər Klinik Xəstəxanasının nəzdində 90 yerlik endokrinologiya şöbəsi yaradılıb. Həmin dövrdə Tamerlan Əliyevin təşəbbüsü ilə daxili xəstəliklər kafedrasının nəzdində Azərbaycanda ilk dəfə intensiv kardioloji yardım şöbəsi yaradılıb, reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi təşkil edilib.

Professor Tamerlan Əliyev Azərbaycanda kardioloji xidmət sisteminin təşkili sahəsinin inkişafına böyük əmək sərf edib. Novator alimin təşəbbüsü ilə keçmiş SSRİ miqyasında ilk dəfə 4 nömrəli klinik xəstəxananın nəzdində miokard infarktı və şəkərli diabeti olan xəstələrin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, həmçinin intensiv terapiyası təşkil edilib. Bunun da nəticəsində respublikada həmin xəstəliklərdən ölüm faizi azalıb.

Tamerlan Əliyevin Azərbaycan tibb tarixi salnaməsinə qızıl hərflərlə yazılmış xidmətlərindən biri də bilavasitə onun təşəbbüskarlığı, təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan Səhiyyə Nazirliyinin akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutudur.

Görkəmli alim uzun illər Səhiyyə Nazirliyinin baş terapevti, Bakı Şəhər Səhiyyə İdarəsinin baş endokrinoloqu vəzifələrini yerinə yetirib, Səhiyyə Nazirliyinin IV Baş İdarəsinin məsləhətçisi, "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətinin üzvü olub. O, həmçinin Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən terapiya ixtisası üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının sədri vəzifəsində çalışıb, bu sahə üzrə gənc elmi kadrların yetişməsinə, bacarıqlı, savadlı alimlər ordusu sıralarının artmasına qayğıkeşliklə rəhbərlik edib.

Tamerlan Əliyevin elmi məsləhətçiliyi və rəhbərliyi altında beş doktorluq və 25 namizədlik dissertasiyası yerinə yetirilib. Onun hazırladığı kadrlar Azərbaycanın hüdudlarından kənarda da uğurla fəaliyyət göstərərək müəllimlərinə başucalığı gətiriblər.

Professor 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitinin, metodik tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çox sayda elmi-kütləvi məqalənin müəllifi olub.

Tamerlan Əliyevin müəllifi olduğu "Klinik-diaqnostik laborator tədqiqat üsulları", "Şəkərli diabet haqqında ətraflı məlumat", "Biokimyəvi tədqiqat üsulları", "Şəkərli diabet", "Prediabet", "Karbohidrat mübadiləsinin pozulmaları və ürəyin işemik xəstəliyi", "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi", "Endokrinologiya" və digər bu kimi əsərlər indi də öz aktuallığını saxlayır, həkimlər və tələbələr tərəfindən geniş istifadə olunur.



Alimin uzun illərin təcrübəsi sayəsində əldə etdiyi praktik vərdişlər və nəzəri biliklər əsasında qələmə aldığı "Endokrinologiya" dərsliyi bu sahə üzrə Azərbaycan dilində yazılmış ilk irihəcmli, genişəhatəli əsərdir. Alim, həmçinin tərcüməçilik işi ilə də məşğul olub. Onun "Klinik-diaqnostik laborator tədqiqat üsulları" monoqrafiyası SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə təqdim edilib və sərginin qızıl medalını alıb. Bu monoqrafiya Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb.

Tamerlan Əliyev Türkiyə, ABŞ, Fransa, İngiltərə, Almaniya, Kanada, İsveçrə, Finlandiya və başqa ölkələrdə keçirilmiş elmi toplantılarda özünün maraqlı məruzələri ilə Azərbaycanı layiqincə təmsil edib.

Görkəmli alim səhiyyə, təhsil və elm sahəsində əldə etdiyi nailiyyətlərə görə dövlət tərəfindən bir sıra fəxri ad, orden və medallara layiq görülüb.

Son dərəcə sadə, təvazökar, obyektiv, incə və həssas qəlbli, yüksək mədəni səviyyəyə malik bir insan olan Tamerlan Əliyevin gəncləri elmə həvəsləndirən mütərəqqi ideyaları diqqətlə öyrəniləcək və həyatda daim öz tətbiqini tapacaq.

1997-ci il aprelin 7-də əbədiyyətə qovuşmuş unudulmaz alimin əziz xatirəsi daim qəlbimizdə yaşayır və yad edilir.

## 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür

# Cəmiyyətin gələcəyini nurlandıran işıq

Hər bir dövrdə cəmiyyət təhsilin inkişafına böyük ehtiyac duyur və ümidlər bəsləyir. Çünki təhsil işıqdır. Gur yandıqca cəmiyyəti, onun gələcəyə yolunu aydınladır. Bu işıqdan nur alanlara ziyalı deyirlər.

### Təhsilin inkişafının vacib şərtləri - diqqət və qayğı...

Ölkəmizdə təhsil sahəsinin inkişafına göstərilən diqqət, qayğı göstərir ki, bilik və bacarıqların əldə olunması, daim təkmilləşdirilməsi dövlət üçün nə qədər əhəmiyyətlidir. Son illər Azərbaycanda təhsil sistemində aparılan islahatların davamlı xarakter daşıması, həmin sahədə maddi-texniki bazanın müasirləşdirilməsi bunun bariz nümunəsidir.

Faktlara nəzər salaq: respublikamızın bütün regionlarında 3500-dən çox məktəb yenidən inşa edilib, yaxud əsaslı təmir olunub. Azərbaycanda ali məktəblərin əksəriyyəti müasir standartlara uğunlaşdırılıb. Yeni binalar, korpuslar tikilib, ali təhsil ocaqları yaradılıb.

Son illər Azərbaycan Respublikası Təhsil Nazirliyinin həyata keçirdiyi tədbirlərdə yalnız tədrisin keyfiyyətinin yüksəldilməsi deyil, həm də müəllimlərin hazırlıq səviyyəsinin yaxşılaşdırılması nəzərdə tutulub. Çünki Təhsil naziri Emin Əmrullayevin bildirdiyi kimi: "... hər bir müəllim daim hazırlıqlı olmalıdır. Müəllimin hazırlıqlı və müasir tələblərə cavab verməsi təhsilalanın öyrənməsinə təsir edən amildir". Bu gün Azərbaycan təhsil sistemində həyata keçirilən sertifikasiyanın, həmçinin müəllimlərin işə qəbulu imtahanının əsas mahiyyəti bundan ibarətdir.

### Pandemiya dövründə təhsil

2020-ci il təkcə Azərbaycan deyil, ümumilikdə dünya dövlətləri təhsil sahəsində böyük sınaqla üzləşib. COVID-19 pandemiyasının yaratdığı məhdudiyyətlər dövründə məsafədən təhsil vacib və aktual məsələyə çevrilib. Karantin dövründə Azərbaycanda da onlayn təhsil metodlarından geniş istifadə olunur. Nəticədə təhsil prosesində böyük fasilələr yaranmasının qarşısı alınıb. Görülən işlər deməyə əsas verir ki, pandemiyanın təhsil sahəsində yaratdığı çətinliklər dövlətimizin həyata keçirdiyi operativ tədbirlər nəticəsində aradan qaldırılıb. COVID-19 dünyanı cənginə aldığı ilk vaxtlardan Azərbaycanda məktəblər, müəllimlər sürətlə yeni şəraitə uyğunlaşaraq tədris prosesini məsafədən təşkil etməyə başlayıblar. Bu məsələdə kütləvi informasiya vasitələrinin, xüsusilə televiziyaların imkanlarından da istifadə olunur.

Artıq belə görünür ki, dünya ölkələri COVID-19 pandemiyası ilə vidalaşdıqdan sonra da distant təhsildən istifadəni məhdudlaşdırmaq niyyətində deyil. Belə ki, proqnozlara əsasən, bir çox ölkələr normal həyata dönəndə də onlayn təhsil təcrübəsindən geniş faydalanacaq. Bu mənada, karantin dövründə məsafədən tədris metodlarından istifadə Azərbaycan təhsili üçün faydalı təcrübə olaraq dəyərləndirilir.

Təqdirəlayiqdir ki, pandemiya ilə bağlı tətbiq edilən məhdudiyyətlər 2020-2021-ci tədris ilinə hazırlıq prosesini də ləngidə bilmədi. Plan üzrə əvvəlcədən müəyyən edilmiş lazımi dərsliklər çap olunub. Bütün vacib tədbirlər, eləcə də tədris müəssisələrinə qəbul prosesləri uğurla həyata keçirilib. Karantinin hələ tam aradan qalxmadığı nəzərə alınaraq məktəblərdə tədrisin mərhələli şəkildə başlanmasına müvafiq qaydalar müəyyənləşdirilib. Həmin qaydalara uyğun olaraq tədricən təhsil müəssisələri öz fəaliyyətini bərpa edir.

### Müəllim nüfuzu

Müəllim adının nüfuzdan düşməsi yalnız bu peşənin sahibləri üçün deyil, bütövlükdə cəmiyyət üçün təəssüf doğuran, olduqca ağrılı məqamdır. Sevindirici haldır ki, ölkəmizdə təhsilə dövlət qayğısı, müəllim əməyinin dəyərləndirilməsi cəmiyyətdə bu şərəfli peşə sahiblərinin nüfuzunu yüksəldir. Son illər təhsil işçilərinin peşəkarlığının artması üçün həyata keçirilən tədbirlər, tətbiq edilən proqramlar bəhrəsini verir. Diaqnostik qiymətləndirmədən uğurla keçmiş müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılıb. Belə tədbirlər bu peşəyə marağın daha da güclənməsinə təkan verir. Müxtəlif məktəblərdə müəllim vəzifəsinə qəbul üçün cari ildə əvvəlki illərlə müqayisədə 3 dəfə çox, 46 minə yaxın şəxs müraciət edib.

Cəmiyyətimizdə müəllimin nüfuzunun yüksəldiyini göstərən məqamlar çoxdur. Bunlardan biri də ali məktəblərə qəbul imtahanları zamanı kifayət qədər yüksək bal toplamış gənclərimizin bu peşəni seçmələridir. Halbuki illər öncə gənclər daha yaxşı dolanışıq, maddi imkanlar vəd edən digər ixtisaslara üstünlük verirdilər. Odur ki, müəllim olmaq istəyənlərin sayı indiki ilə müqayisədə xeyli az idi.

Ancaq ali məktəblərdə təhsil almaq, mövcud qaydalarla imtahanlardan uğurla keçərək müəllim adını qazanmaq hələ işin başlanğıcıdır. Böyüməkdə olan nəslin təlim-tərbiyəsində, gələcəyinin formalaşmasında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmək üçün zamanla uyğunlaşmaq lazım gəlir. Dövrün tələbləri tədris işçilərinin üzərinə əlavə məsuliyyət qoyur. Hər bir pedaqoq yaxşı bilməlidir ki, bu günün şagirdi, tələbəsi dünənkilərlə müqayisə oluna bilməz. Bu vacib məqamı nəzərə alan Təhsil naziri Emin Əmrullayev deyib: "Biz şagirdlərimizi keçmişi düşünərək hazırlamamalıyıq. Bir çox hallarda biz məzmun barədə, məktəb haqqında danışanda valideynlər, mən məktəbə gedəndə belə deyildi, deyirlər, yəni, keçmişə baxıb bu günü müqayisə edirlər. Amma bu uşaqlar 30 yaşları olanda əmək bazarı necə olacaq, bu, çox vacib məsələdir".

### Müasir təhsil sistemi və Azərbaycan gəncləri

Bu günün şagirdləri və tələbələri müstəqillik dövründə doğulub formalaşmış nəslin nümayəndələridir. Elə təhsil işçiləri arasında da həmin nəsli təmsil edənlər üstünlük qazanmağa başlayıblar. Çağdaş texnologiyalara bələd, geniş dünyagörüşünə, müvafiq bilik və bacarıqlara malik olan bu təhsil işçilərinin əksəriyyəti təcrübəli həmkarları ilə yanaşı, öz vəzifələrini uğurla yerinə yetirməyə səy göstərirlər.

Azərbaycan dünyanın bir hissəsidir. Beynəlxalq təhsil təcrübəsi ölkəmizdə geniş yayılır, yüksək təhsil standartları müəyyənləşir. Belə şəraitdə şagirdlərimiz və tələbələrimiz daha keyfiyyətli təhsil, qazandıqları müasir bilik və bacarıqlarla qlobal əmək bazarına maneəsiz qoşulmaq imkanı əldə edirlər.

Bu gün dünya sürətlə dəyişir. Elə dəyişir ki, XXI yüzilliyi texniki tərəqqi əsri adlandıranları haqlı çıxarır. Təhsilin rolu, əhəmiyyəti də ötən zamanla birlikdə gedərək artır. Bəşəriyyət daha yaxşı anlayır ki, həyat şəraitinin yaxşılaşdırılmasının və dayanıqlı inkişafın ilkin şərti elmdən, tərəqqidən keçir. Bunun üçün ibtidai siniflərdən başlayaraq keyfiyyətli təhsilin verilməsi zəruridir.

Ancaq bu dəyişikliklərin və inkişafın sürəti ilə ayaqlaşmaq cəhdləri fonunda bir sıra məqamların unudulmaması da vacibdir. Yaddan çıxarmaq olmaz ki, milləti millət edən onun özünəməxsus və tarixin sınaqlarından keçmiş milli-mənəvi dəyərləridir. Bu dəyərlərin qoruyub yaşadılmasında isə gənclərin müstəsna rolu var. O gəncləri yetişdirən, formalaşdıran isə müəllimlərdir.

Təhsil ocaqlarında yalnız yazıb-oxumaq, elm öyrədilmir. Vətənə, dövlətə, millətə layiqli vətəndaşların yetişdirilib tərbiyə olunmasında ailə və cəmiyyətlə bərabər məktəblərin də mühüm rolu var. Bu gün Vətən müharibəsində iştirak etmək üçün könüllü cəbhəyə yollanan, düşmənin silahlı hücumlarının qarşısını mərdliklə alan, torpaqlarımızı işğaldan azad edən qürur duyduğumuz gənclərimiz sübut edirlər ki, həm Azərbaycan ailəsi, həm Azərbaycan cəmiyyəti, həm də Azərbaycan təhsil sistemi öz vəzifəsinin öhdəsindən layiqincə gəlir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Koronavirusdan daha 137 nəfər sağalıb, 108 nəfər isə yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 137 nəfər sağalıb, 108 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 561 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 354 nəfər müalicə olunaraq sağalıb, 595 nəfər vəfat edib. Aktiv xəstə sayı 1612 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 132 min 327 test aparılıb. Dünənki test sayı isə 5789-dur.

## Ağcabədidə özünü jurnalist kimi təqdim edərək komendant postundan yayınmaq istəyən narkotik alverçisi saxlanılıb

Artıq bir neçə gündür axşam saatlarında ölkənin bəzi şəhər və rayonlarında komendant saatı tətbiq edilir. Bununla əlaqədar polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən paytaxt Bakı ilə yanaşı, bölgələrdə də postlar qurulub. Həmin postlarda xidmətin ayıq-sayıq təşkil olunduğunu sübut edən hadisələrdən biri də Ağcabədi rayonunda qeydə alınıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəbrayıl rayon sakini Zeynullah Əsədov Ağcabədi-Beyləqan yolunda idarə etdiyi "Naz Lifan" markalı avtomobillə komendant rejimini pozduğu üçün rayon polis şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Sürücü əvvəlcə polislərə özünü jurnalist kimi təqdim edərək "Cinayətkarlığa Qarşı Mübarizə" qəzetinin redaktoru olduğunu bildirib və məsuliyyətdən yayınmağa çalışıb. Amma sürücünün davranışları polislərdə şübhə doğurduğundan onun avtomobilinə baxış keçirilib. Baxış zamanı Zeynullah Əsədovun nəqliyyat vasitəsindən satış üçün nəzərdə tutulan 10 bükümdə 83 qram marixuana və heroin, 2 qram metamfetamin, elektron tərəzi, həmçinin kəsici alətlər aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Ağcabədi Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Z.Əsədov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Onun digər cinayətlər törətdiyi istisna olunmur. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar olarsa, bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə Daxili İşlər Nazirliyinin 102 - Zəng Mərkəzinə məlumat verə bilərlər.

## Gürcüstan DTX: "Suriyadakı silahlı birləşmələrin ölkəmiz vasitəsilə Azərbaycana keçməsi barədə məlumatlar yalandır"

Suriyada hərbi əməliyyatlarda iştirak edən silahlı birləşmələrin Türkiyədən Gürcüstan ərazisi vasitəsilə Azərbaycana keçməsi barədə məlumatlar yalandır və bölgədəki vəziyyəti daha da gərginləşdirməyə yönəlib.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi Qriqol Liluaşvili məlumat verib.

Xidmət rəisi deyib ki, Gürcüstanın beynəlxalq nüfuzuna və dost ölkələrə münasibətlərinə zərbə vurmağa yönəlmiş bu cür bəyanatların heç bir əsası yoxdur. DTX Azərbaycanın və Ermənistanın müvafiq qurumları ilə fəal əlaqəni davam etdirir.

"Təhlükəsizlik məsələləri üzrə bütün qərarlar regiondakı vəziyyət və cari proseslər nəzərə alınmaqla qəbul ediləcək. Gürcüstanın dövlət təhlükəsizliyinə və bölgədəki sabitliyə təhdid olan istənilən fəaliyyətə qarşı qanunauyğun tədbirlər görüləcək", - deyə Q.Liluaşvili vurğulayıb.

# Beynəlxalq aləm

## Yaponiya alimləri "ən təhlükəli" qan qrupunu açıqlayıblar



Yaponiyada hansı qan qrupunun "ən təhlükəli" olduğu bilinib. Bir sıra araşdırmalar aparan yapon alimlərinin fikrincə, 1-ci qan qrupu ağır yaralanmalardan sonra ölüm təhlükəsini, demək olar ki, üç dəfə artırır. Mütəxəssislərin dediyinə görə, 1-ci qan qrupu olan xəstələrdə qan itkisi riski daha yüksəkdir. Bu isə zəif laxtalanma ilə izah olunur.

Əlavə edək ki, 1-ci qan qrupu olan insanlar universal donorlardır, lakin özləri yalnız öz qrupunun qanını daşıya bilərlər.

## Meksikada silahlı toqquşmada 8 nəfər həlak olub




Meksikada polislərlə narkokartel üzvləri arasında toqquşmalar nəticəsində 8 nəfər həlak olub, 7 nəfər yaralanıb. Bu barədə TASS agentliyi xəbər verir. Məlumata görə, silahlı toqquşma Durango əyalətində baş verib. İnsident zamanı silahlı narkokartelin 8 üzvü qətlə yetirilmiş, 7 polis əməkdaşı yaralanmışdır.

Hadisə yerinə təhlükəsizlik qüvvələri göndərilib.

## "SpaceX" son anda yeni "Falcon 9" raketinin startını ləğv etdi

"SpaceX" şirkəti GPS III SV04 peykini daşıyan "Falcon 9" raketinin startını son anda ləğv edb. Səbəbi isə bildirilməyib. Bu barədə "The Verge" qəzeti xəbər verir.

Uçuş srağagün axşam ABŞ-ın Florida ştatındakı Kanaveral kosmodromundan baş verməli idi. Yeni startın tarixi açıqlanmayıb.

"Falcon 9" GPS III SV04 hidrolokasiya peykini orbitə çıxaracaqdı.

Məlumata görə, yeni nəslin peyki əvvəlkilərdən üç dəfə dəqiqdir, maneələrdən və müdaxilələrdən daha yaxşı qorunur.

## Əfqanıstanda partlayış: 13 ölü, 30-dan artıq yaralı

Əfqanıstanın Nənqarhar vilayətinin Qəni Khil rayonunda qubernatorun iqamətgahının yanında dayanan minalanmış avtomobil partladılıb.

ToloNews telekanalının xəbərinə görə, ən azı 13 nəfər, o cümlədən 8 dinc sakin həlak olub. Həmçinin 30-dan çox adam müxtəlif dərəcəli xəsarətlər alıb, bəziləri ağır vəziyyətdədir.

Vilayət qubernatorunun nümayəndəsi Ataulla Hoqyani bildirib ki, partlayışdan sonra bir qrup döyüşçü silahla iqamətgaha girməyə cəhd edib, lakin mühafizəçilər onların qarşısını kəsib. Hələlik regionda fəaliyyət göstərən qruplaşmaların heç biri hücuma görə məsuliyyəti öz üzərinə götürməyib.




## NATO-nun Baş katibi Türkiyə və Yunanıstana səfər edəcək

NATO-nun Baş katibi Yens Stoltenberq gələn həftə Türkiyə və Yunanıstana səfər edəcək.

Şimali Atlantika Alyansının mətbuat xidmətinin məlumatına görə, Stoltenberq sabah Ankaraya səfər edəcək, çərşənbə axşamı isə Afinada olacaq.

Türkiyəyə səfəri zamanı NATO-nun Baş katibi xarici işlər naziri Mövlud Çavuşoğlu və digər rəsmi şəxslərlə danışıqlar aparacaq. Afinada isə Stoltenberq Baş nazir, xarici siyasət və müdafiə qurumlarının rəhbərləri ilə görüşəcək.

Qeyd edək ki, ötən gün NATO Aralıq dənizinin şərq hissəsində gərginliyin artacağı halda, Türkiyə və Yunanıstan silahlı qüvvələrinin ayrılma mexanizminin formalaşdırıldığını bəyan edib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7565
Sifariş 2294
Qiyməti 40 qəpik